**Əhli-beyt və səhabələr birliyi**

**Birinci silsilə: Əhli-beyt və səhabələrin həyatı (14)**

# ON NƏFƏRDƏN BAŞQA CƏNNƏTLƏ MÜJDƏLƏNƏNLƏR

**Dr. Muhəmməd bin Əli bin Saleh əl-Ğamidi**

Yoxladı və düzəlişlər etdi:
**"Elmi tədqiqatlar və araşdırmalar mərkəzi"**

**Hissa İshaq İbrahim əl-Hacirinin**
vəsaiti hesabına nəşr olunmuşdur

# MÜNDƏRİCAT

Müqəddimə ... 5
Qohumlar kimlərdir? ... 9
Səhabələr kimlərdir? ... 22
Birinci qism. Cənnətlə müjdələnmiş on nəfər ... 26
İkinci qism. On nəfərdən başqa Cənnətlə müjdələnənlər ... 28
Cənnətlə müjdələnmiş səhabələrə xüsusi önəm verməyin və onların halı ilə tanış olmağın səmərəsi ... 30
Araşdırmanın planı ... 36
Mülahizə ... 38
1. Useyram ibn Bəni Abdul-əşhəl رضي الله عنه ... 39
2. Bilal ibn Rabəh رضي الله عنه ... 43
3. Sabit ibn Qeys رضي الله عنه ... 47
4. Cəfər ibn Əbu Talib رضي الله عنه ... 51
5. Harisə ibn Suraqa رضي الله عنه ... 56
6. Hüzeyfə ibn əl-Yəman رضي الله عنه ... 58
7. Peyğəmbərin ﷺ nəvəsi Həsən ibn Əli رضي الله عنه ... 62
8. Peyğəmbərin ﷺ nəvəsi Hüseyn ibn Əli رضي الله عنه ... 66
9. Zəkvan ibn Abdu-Qeys əl-Ənsari əl-Xəzraci رضي الله عنه ... 68
10. Zeyd ibn Harisə رضي الله عنه ... 70
11. Səd ibn Müaz رضي الله عنه ... 76
12. Salman əl-Farisi رضي الله عنه ... 79
13. Abdullah ibn Ravaha رضي الله عنه ... 87
14. Abdullah ibn Salam رضي الله عنه ... 90
15. Abdullah ibn Amr ibn Haram رضي الله عنه ... 93
16. Ukkaşə ibn Mihsan رضي الله عنه ... 97
17. Ammar ibn Yasir رضي الله عنه ... 100
18. Amr ibn əl-Cəmuh رضي الله عنه ... 103

19. Ali Maxzumun tərəfdaşı Yasir ibn Amir əl-Ənsi رضي الله عنه .......... 107
20. Malik ibn Sinan əl-Xudri رضي الله عنه .......... 109
21. Əbud-Dəhdah əl-Ənsari رضي الله عنه .......... 111
22. Xədicə bint Xuveylid رضي الله عنها .......... 115
23. ər-Rumeysa bint İmran رضي الله عنها .......... 122
24. Həfsa bint Ömər رضي الله عنها .......... 125
25. Sumeyyə bint Xibat Ummu Ömər رضي الله عنها .......... 128
26. Aişə bint əs-Siddiq رضي الله عنها .......... 131
27. Fatimə bint Muhəmməd رضي الله عنها .......... 139
28. Ummu Zufər əl-Həbəşiyyə رضي الله عنها .......... 146
Araşdırmanın nəticələri .......... 147
Araşdırmanın mənbələri .......... 149

**Tərcüməçidən**

Hörmətli oxucu. Kitabda Allahın Elçisi, yaxud Peyğəmbər sözlərindən və səhabələrin adlarından sonra rast gəlinən işarələnmənin oxunuşu belədir:

صلى الله عليه وآله وسلم – [salləllahu aleyhi və alihi və səlləmə] Ona və ailəsinə Allahın salavatı və salamı olsun

رضي الله عنه – [radıyAllahu anhu] Allah ondan razı olsun

رضي الله عنها – [radıyAllahu anhə] Allah ondan (qadın cinsi) razı olsun

بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ

**Rəhmli və Mərhəmətli Allahın adı ilə!**

# Müqəddimə

Peyğəmbəri ﷺ üçün yardımçılar seçən Allaha həmd olsun. O, həmin köməkçiləri məxluqatın ən xeyirlisi, ən güclü imanı olanlar kimi təyin etmişdir. Onların vasitəsilə dini gücləndirmiş, möminlərin kəlməsini onların vasitəsilə zahirə çıxarmış, onlara böyük savab nəsib etmiş, islam ümmətinə də onlar barəsində yalnız xoş sözlər söyləməyi vacib buyurmuşdur. Onları məxluqatın ən xeyirlisi, elçilərinin ən üstünü [Muhəmməd] üçün seçmişdir ki, ona Rəbbi tərəfindən nazil olanı eşitsinlər, onun etdiklərinin və əməllərinin şahidi olsunlar ki, nazil olunmuş vəhyin mənalarını daha dərindən anlasınlar, dinin əsaslarını və şəriətin qaydalarını dərk etsinlər. Şahidlik edirəm ki, Uca Allahdan başqa ibadətə layiq məbud yoxdur, şəhadət verirəm ki, Muhəmməd ﷺ Onun qulu və elçisidir. Uca Allah peyğəmbərlərin ağası Muhəmmədə, onun pak əhli-beytinə (ev əhlinə), bütün səhabələrinə, möminlərin anaları olan pak xanımlarına və Qiyamətədək ona tabe olanlara salavat və salam yetirsin.

Şəkk yoxdur ki, hədis əhlindən isnad etibarilə ən uca dərəcədə olanlar Rəsulullahın ﷺ səhabələridir. Allahın etdiyi düzəlişləri düzəldənlər məhz onlardır.

Hər bir bəsirət sahibinə gün kimi aydındır ki, səhabələr bu ümmətin ən xeyirliləri, imamların öndərləridir. Bu baxımdan onların yaxşı xüsusiyyətlərini xatırlatmaq, çatışmazlıqları, o cümlədən aralarında baş vermiş ixtilaflar barədə isə susmaq açıqca əmr olunmuşdur. Hər kim Allahın Elçisinin ﷺ səhabələrini və ya onlardan birini söyər, yaxud alçaldarsa, tənə vurar, yaxud onların ayıblarını aşkara çıxararsa, onlardan birində ayıb tutarsa, o həm özünə, həm də onlara zülm etmiş olar. Əksinə, onları sevmək Allah Elçisinin ﷺ yoludur, onlara dua etmək ibadətdir, onlara tabe olmaq vəsilədir, onların əməllərini etmək fəzilətdir. Peyğəmbərin ﷺ səhabələri məxluqatın ən xeyirliləridir, bu səbəbdən iman gətirmiş hər kəs onların mənfi xüsusiyyətləri barədə susmalı, onları ayıb və naqisliklərlə vəsf etməməlidir.[1]

Səhabələr Qurani-Kərimin mənası olan Sünnəni nəql etmişlər. O Quran ki, onu əl-Mumin və əl-Muheymin olan Allah məxluqatının ən etibarlısı olan Cəbrail vasitəsilə böyük bir əmanət kimi Muhəmmədə ﷺ nazil etmişdir. Sonra da səhabələr bu böyük əmanəti bizlərə çatdırmışlar. Bu səbəbdən də biz Qurani-Kərimdə onların təriflənməsinin və gözəl

[1] Bax: İmam Əhməd ibn Hənbəlin “əs-Sünnə” əsəri (78-ci səh), Xatib əl-Bağdadinin “Tarixu Bağdad” əsəri (1/3).

şəkildə xatırlanmasının şahidi oluruq. Onlar dürüst bir həyat sürmüş, Bədr, Mutə və Yərmuk kimi döyüşlərdə qəhrəmanlıq göstərməklə kifayətlənməmiş, həyatlarının hər anında bir nümunə olmuşlar. Onlar öz dünya həyatlarını axirət həyatına uyğun nizamlamış, atdıqları hər bir addımda Allahın razılığını qazanmağı hədəfləmişlər. Qurani-Kərim və Peyğəmbərin ﷺ Sünnəsi məhz paklıq və düzgünlükləri barəsində ən uca misal çəkilən bu şəxslər vasitəsilə bizlərə ötürülmüşdür. Bu səbəbdən də onları sevmək, müdafiə etmək və onlardan razılıq bizlərə vacibdir. Allah onların hamısından razı olsun.

Şəkk yoxdur ki, əhli-beytin ağaları da möhtərəm səhabələrdəndir. Onlar iki fəziləti özlərində birləşdirmişlər – qohumluq fəziləti və səhabəlik fəziləti.

Bu məqamda biz Allahın onları tərifləməsini izləyir, Onun Elçisinin ﷺ vəsiyyətinə riayət etmiş oluruq ki, bu da mühüm məsələdir. Əhli-beyt və başqalarından xüsusi olanlar on nəfərdən başqa Cənnətlə müjdələnmiş digər səhabələrdir. Belə ki, Cənnətlə müjdələnmiş on səhabə haqqında çoxlu kitablar yazılmışdır ki, onlar da bu məqama layiqdir. Lakin onlardan başqa Cənnətlə müjdələnənlər barədə də kitaba ehtiyac vardır. Biz bu məsələyə müxaliflik sərgiləmək istəmirik. Lakin on nəfərin Cənnətlə müj-

dələnməsi xəbəri digər səhabələrin bu məqama yüksəlməsini istisna etmir. Onlarla, hətta yüzlərlə səhabə, o cümlədən Ridvan beyətində iştirak etmiş 1400 nəfər, Bədr döyüşündə iştirak etmiş 300-dən artıq səhabə və əhli-beyt nümayəndəsinin hamısı Cənnətlə müjdələnmişlər. Bu əsərdə biz səhih və həsən mənbələrdə xüsusi olaraq müjdələnmiş digər kəslər barədə söhbət açacağıq. Həmçinin "Əhli-beyt və səhabələr mərkəzi" olaraq "Ummul-Qura Universiteti"ndə hədis elmləri doktoru olan hörmətli Əli ibn Muhəmməd əl-Ğamidiyə əməkdaşlığa və Mərkəzə bu istiqamətdə göstərdiyi əvəzsiz yardıma görə öz təşəkkürümüzü bildiririk.

Allahdan diləyirik ki, bizləri Muhəmmədə ﷺ və onun səhabələrinə Firdovs cənnətlərində qovuşdursun. Amin.

Son duamız isə belədir: *Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur.*

## Qohumlar kimlərdir?

"Lisan əl-ərəb" əsərinin müəllifi İbn Mənzur demişdir: "Əhli-beyt, yəni evin sakinləri; insanın əhli, yəni ona xas olan şəxslər; Peyğəmbərin ﷺ əhli-beyti onun xanımları, qızları və kürəkəni Əlidir. Başqa bir deyimə görə: Peyğəmbərin ﷺ xanımları və ailəsindən olan kişilər.

Rağib əl-İsfahani demişdir: "Adamın əhli dedikdə, din və nəsəb baxımından ortaq olduğu şəxslər və bu minvalla baş verən yaxınlıq, ev və övlad kimi amillər nəzərdə tutulur. Deyilənə görə "*ali*" sözünün əsli "*əhl*" sözündəndir. Sonradan *hə* hərfi həmzəyə çevrilərək "*əəli*" olub, daha sonra "*ali*" sözünə çevrilib. Demək "*ali*" və "*əhli*" sözləri eyni mənanı ifadə edir. Adamın əhli, dilçi alimlərin dediyi kimi, onun xanımları, zürriyyəti və qohumlarıdır. Uca və Böyük Allah buyurur [ki, hökmdarın xanımı öz ərinə demişdi]: **"*Qadın* dedi: – Sənin ailənə pislik etmək istəyənin cəzası zindana salınmaqdan və ya ağrılı-acılı bir əzaba düçar edilməkdən başqa nə ola bilər?!"**[2] Burada qadın özünü nəzərdə tuturdu. Həmçinin Uca və Böyük Allah Musa barədə buyurur:

---

[2] "Yusuf" surəsi, 25.

**“Bir zaman Musa öz ailəsinə: “Mən, doğrudan da, bir od gördüm.** *Qoy gedib* **ondan sizə bir xəbər və ya bir köz gətirim ki, qızınasınız”– demişdi.”**[3] Burada onun əhli deyildikdə, onunla birlikdə olan zövcəsi nəzərdə tutulur. Həmçinin Rəbbimiz İbrahim və xanımı barəsində buyurur: **“Onlar dedilər: – Allahın əmrinə təəccübmü edirsən? Ey ev əhli! Allahın rəhməti və bərəkəti sizin üstünüzdə olsun! Həqiqətən, O, Tərifəlayiqdir, Şan-şöhrətlidir.”**[4, 5]

Şəriətdə *“əhl”* və *“ali”* sözləri barədə dörd rəy vardır.

**Birinci rəy:** *“əhli”* dedikdə xanımlar və zürriyyət nəzərdə tutulur və buna təmizlik barəsində nazil olmuş ayələri dəlil gətirmişlər. Uca və Böyük Allah Peyğəmbərin ﷺ xanımları barəsində buyurur: **“Ey Peyğəmbərin zövcələri! Siz hər hansı bir qadın kimi deyilsiniz. Əgər** *Allahdan* **qorxursunuzsa,** *yad kişilərlə* **nazlana-nazlana danışmayın, yoxsa qəlbində xəstəlik olan kəs tamaha düşər.** *Şəriətə* **müvafiq qaydada danışın. Evlərinizdə qərar tutun! İlk cahi-**

---

[3] “ən-Nəml” surəsi, 7.

[4] “Hud” surəsi, 73.

[5] Bax: İbn Mənzurun “Lisan əl-ərəb” əsəri (11/28), əz-Zəbidinin “Tac əl-ərus min cəvahir əl-qamus” (28/41).

**liyyə dövründə olduğu kimi, açıq-saçıq gəzməyin. Namaz qılın, zəkat verin, Allaha və Onun Elçisinə itaət edin. Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir. Evlərinizdə oxunan Allahın ayələrini və hikməti yada salın. Həqiqətən, Allah lütfkardır,** ***hər şeydən*** **xəbərdardır."**[6]

Bu ayələrin həm əvvəlində, həm də sonlarında Peyğəmbərin ﷺ xanımlarından bəhs edilir. Ayənin ortasında isə onlara deyilir: **"Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir".** Bu baxımdan heç kim deyə bilməz ki, burada uyğunsuzluq olduğu üçün əhli-beyt deyildikdə, Peyğəmbərin ﷺ xanımları nəzərdə tutulmur. Axı ayələrin həm əvvəlində həm də sonunda Peyğəmbərin ﷺ xanımlarından bəhs edilir.

Soruşula bilər ki, "Nə üçün ayənin həmin hissəsində qadın cinsində olan *nunun* əvəzinə kişi cinsində olan *mim* işlənir?"

Belə ki, ayənin əvvəlindəki **"Ey Peyğəmbərin zövcələri! Siz"** ifadəsi qadın cinsində, "**Evlərinizdə qərar tutun!"** ifadəsi qadın cinsində, **"Allahın ayələrini və hikməti yada salın."** ifadəsi qadın cinsində, **"Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq**

---

[6] "əl-Əhzab" surəsi, 32-34.

**və sizi tərtəmiz etmək istəyir."** müraciəti isə kişi cinsində işlənmişdir.

Cavabı belədir ki, ayənin əvvəlindəki əmrlər yalnız qadınlara aiddir. Ayənin sonundakı müraciət isə evin rəhbəri olan Peyğəmbərə ﷺ və onun xanımlarınadır. Ərəb dilində isə qayda belədir ki, bir qrup qadının arasında bir kişi varsa, onlara kişi cinsində xitab olunur. Ayənin ardınca isə Uca Allah buyurur: **"Evlərinizdə oxunan Allahın ayələrini və hikməti yada salın."**[7]

Buna ikinci dəlil isə təşəhhüddür. Belə ki, bizlər təşəhhüddə deyirik: "Allahım, Muhəmmədə ﷺ və onun ailəsinə salavat çatdır".

İmam Muslimin "Səhih" əsərində belə rəvayət də varid olmuşdur: "Allahım, Muhəmmədə, onun xanımlarına, zürriyyətinə salavat çatdır".[8] Bu rəvayət digər bir rəvayətin açıqlamasıdır ki, ailə sözünün açıqlaması xanımlar və zürriyyət kimi verilmişdir.

Həmçinin Aişənin رضي الله عنها belə dediyi rəvayət olunur: "Allah Elçisinin ﷺ ailəsi doyunca təzə çörək yeməyib". Hədisi İmam Buxari və İmam Muslim rəvayət etmişlər.[9]

---

[7] əl-Alusinin "Ruh əl-məani" əsəri (22/13).

[8] "Səhih Muslim" (407).

[9] "Səhih əl-Buxari" (5107), "Səhih Muslim" (2970).

**İkinci rəy:** *"əhli"* dedikdə, özlərinə zəkat haram buyurulmuş kəslər nəzərdə tutulur.

Özlərinə zəkat haram buyurulmuş kəslər barəsində də iki rəy vardır:

1. Özlərinə zəkat haram buyurulmuş kəslər Haşim oğulları və Muttalib oğullarıdır.

Peyğəmbərin ﷺ nəsəbi Haşimə qayıdır. O, Muhəmməd ibn Abdullah ibn Əbdül-Muttalib ibn Haşimdir. əl-Muttalib Haşimin qardaşıdır və o, Peyğəmbərin ﷺ babası Əbdül-Muttalibin əmisidir.

Hətta Əbdül-Muttalibi əmisinə də nisbət etmişlər. Çünki onun adı həmd sözünə bənzəyir. Lakin o, Mədinədəki Nəccar oğullarından olan dayılarının yanında tərbiyə almışdır. Bu səbəbdən də onlara Peyğəmbərin ﷺ dayıları deyilir. Haşim və oğlu Şeybə dayılarının yanında vəfat etmişlər. Əmisi əl-Muttalib ibn Əbdu Manaf gəlib onu onlardan gizlincə götürüb Məkkəyə aparmışdır. İnsanlar da əl-Muttalibin yanında Şeybətul-həmdi gördükdə dedilər: "Bu kimdir sənin yanında?" O dedi: "Mənim küləmdir". Sonra onlar gəlib onu təbrik etdilər və ona dedilər: "Əbdul-Muttalib buna layiqdir". Beləcə əl-Muttalib oğulları və Haşim oğulları onunla qaldı.[10] Bu rəyin

[10] Bax: İbn Kəsirin "əs-Siratun-Nəbəviyyə" əsəri (1/185).

sahibləri İmam Buxarinin “Səhih” əsərində nəql olunmuş hədisi dəlil gətirmişlər. Rəvayət olunur ki, Cubeyr ibn Mutim ؓ demişdir: “Bir dəfə mən Osman ibn Əffanla ؓ birlikdə Allahın Elçisinin ﷺ yanına gedib dedim: – Ey Allahın Elçisi, sən Əbdül-Muttalib oğullarına *[üstünlük]* verib bizi tərk etmisən, axı biz eyni səviyyədəyik. Allahın Elçisi ﷺ dedi: “əl-Muttalib oğulları ilə Haşim oğulları eynidir”. [11]

2. Özlərinə zəkat haram olunanlar yalnız Haşim oğullarıdır.

Bunların Peyğəmbərin ﷺ əhli-beytindən olmalarına dəlil Zeyd ibn Ərqamdan ؓ rəvayət olunan hədisdir. Peyğəmbər ﷺ demişdir: “Allah üçün sizlərə əhli-beytimi xatırladıram, Allah üçün sizlərə əhli-beytimi xatırladıram”. Soruşdular ki, Zeyd də onun əhli-beytindəndirmi? Dedi: “Əhli-beyt, özlərinə sədəqə haram olunmuş kəslərdir. Onlar Əlinin ailəsi, Aqilin ailəsi, Abbasın ailəsi və Cəfərin ailəsidir. Bu dörd ailə Peyğəmbərin ﷺ əhli-beytidir”. Hədisi Muslim rəvayət etmişdir.[12]

Həmçinin Əbdül-Muttalib ibn Rabiə ؓ və Fadl ibn Abbasın ؓ hədisini də dəlil gətirmişlər. Belə ki,

---

[11] “əl-Xüms” kitabı. “Xüms imama məxsusdur və o, həmin xümsdən bəzi qohumlarına verə bilər” babı (2971).

[12] “Səhih Muslim” (2408).

onlar Peyğəmbərin ﷺ yanına gələrək onları zəkat yığmağa mükəlləf etməsini istəmişdilər ki, maddi cəhətdən gəlir əldə edə bilsinlər. Çünki zəkat yığanlar da ondan bir pay almağa layiqdirlər. Uca Allah buyurur: **"Onu yığıb paylayanlara...".**[13] Fadl ibn Abbas və Əbdül-Muttalib ibn Rabiə də bu işlə məşğul olmaq istəyirdilər. Peyğəmbər ﷺ isə onlara belə buyurdu: "Bu, Muhəmmədə və Muhəmmədin ailəsinə halal deyildir". Beləcə, [zəkatdan pay ummağı] onlara qadağan etdi. Hədisi Muslim rəvayət etmişdir.[14]

Bu da Fadl ibn Abbas ibn Əbdül-Muttalib رضي الله عنه və Əbdül-Muttalib ibn Rabiə ibn əl-Haris ibn Əbdül-Muttalibə رضي الله عنه zəkatın halal olmadığına dəlildir. Çünki onlar da Peyğəmbərin ﷺ əhli-beytindən hesab olunurlar.

**Üçüncü rəy:** Peyğəmbərin ﷺ əhli-beyti ona tabe olanlardır.

Bu rəyə əsasən, hər bir müsəlman Peyğəmbərə ﷺ tabe olanlardan hesab edildiyi üçün onun ailəsindən sayılır. İnsanın ailəsi ona tabe olanlardır. Kim bir adama tabe olarsa, onun ailəsindən sayılar. Uca və Böyük Allah bu xüsusda buyurur: "**Onları səhər və**

---

[13] "ət-Tövbə" surəsi, 60.

[14] "Səhih Muslim" (1072).

**axşamüstü oda salırlar. O Saat gələcəyi gün isə; Firon nəslini ən şiddətli əzaba salın!"**[15] – yəni Firon və onun dininə və küfrünə tabe olanları. Allah qorusun! Bu məsələnin xüsusiliyinə dəlil olaraq Beyhəqinin Vasilə ibn əl-Əsqa əl-Leysidən rəvayət etdiyi hədisi dəlil gətirmişlər. Həmin hədisdə o, demişdir: "Mən Əlini ﷺ axtarırdım, lakin onu tapmadım. Fatimə ﷺ dedi ki, Allahın Elçisinin ﷺ yanına gedib, oradadır. O Allahın Elçisi ﷺ ilə birlikdə gəlib daxil oldu. Mən də onlarla birlikdə daxil oldum. Sonra Allahın Elçisi ﷺ Həsənlə ﷺ Hüseyni ﷺ çağırıb hərəsini bir dizinə oturtdu. Sonra Fatiməni ﷺ və onun ərini də özünə yaxın çağırdı. Daha sonra libasını onların üzərinə örtüb dedi: **"Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir".** Allahım bunlar mənim ən haqlı əhli-beytimdir". Vasilə deyir ki, mən soruşdum: "Ey Allahın Elçisi, mən də sənin əhlindənəmmi?" O dedi: "Sən də mənim əhlimdənsən". Vasilə deyir ki, o mənə istədiyimi verdi".[16]

---

[15] "Ğafir" surəsi, 46.

[16] "əs-Sünən əl-kubra" (2/152), səhih olaraq. Lakin Beyhəqi bunun Vasiləyə xas olduğunu bildirərək demişdir: "Hədisin isnadı səhihdir, lakin bu bütün ümmətə deyil, yalnız Vasiləyə xasdır. Sanki o, Vasiləni əhli-beyt adına layiq görmüşdür, həqiqətdə isə bu belə deyildir. Daha doğrusunu Allah bilir". Hafiz ibn əl-Qeyyim hədisin isnadının yaxşı olduğunu bildirmişdir. Bax: "Cəla əl-əfham", 220.

**Dördüncü rəy:** Yalnız Əli, Fatimə, Həsən, Hüseyn və onların zürriyyətləri.

Onlar bu rəyə örtük hədisini dəlil gətirmişlər. Belə ki, Aişədən ﷺ nəql olunan hədisdə deyilir ki, bir dəfə Əli ibn Əbu Talib ﷺ Peyğəmbərin ﷺ yanına daxil oldu. Peyğəmbər ﷺ də onu örtüyünün, yəni əbasının altına aldı. Sonra Fatimə ﷺ gəldi və Peyğəmbər ﷺ onu da əbasının altına aldı. Sonra Həsən ﷺ, daha sonra da Hüseyn ﷺ gəldi və o ﷺ onları da əbasının altına alıb örtdü və oxudu: **"Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir."**[17] Hədisi Muslim rəvayət etmişdir.[18] Bu da dəlildir ki, Peyğəmbərin ﷺ əhli-beyti bunlardır.

Həmçinin onlar Uca və Böyük Allahın dua barədə olan ayəsini də dəlil gətirirlər: **"Sənə bilik gəldikdən sonra kim səninlə *İsanın* barəsində mübahisə edərsə, de: "Gəlin oğullarımızı və oğullarınızı, qadınlarımızı və qadınlarınızı, özümüzü və özünüzü çağıraq, sonra isə dua edib yalançılara Allahın lənət etməsini diləyək".**[19] Sonra Peyğəmbər ﷺ Əlini ﷺ, Fatiməni ﷺ,

[17] "əl-Əhzab" surəsi, 33.
[18] "Səhih Muslim" (2424).
[19] "Ali İmran" surəsi, 61.

Həsəni ﷺ və Hüseyni ﷺ çağıraraq demişdir: Allahım, bunlar əhli-beytimdir.[20]

**Nəticə.** Bu rəylər arasında daha səhih olanı odur ki, Peyğəmbərin ﷺ əhli-beyti özlərinə sədəqə haram buyurulmuş kəslərdir. Səhih rəyə əsasən isə özlərinə sədəqə haram buyurulmuş kəslər yalnız Haşim oğullarıdır. əl-Muttalib oğullarına isə səhih rəyə görə sədəqə haram deyildir. Daha doğrusunu Allah bilir.[21] Peyğəmbərin ﷺ qadınlarına gəlincə, onlar əslən deyil, əlavə olaraq Peyğəmbərin ﷺ əhli-beytindəndirlər. Belə ki, onlar Peyğəmbərlə ﷺ evlənməmişdən öncə əhli-beytdən sayılmamışlar.

Əhli-beytin İslam ümmətinin qəlbində özlərinə məxsus məkanları və uca yerləri vardır. Müsəlmanlar onlara hörmət edir, hər kəsə bəlli olan məqamlarına ehtiram göstərirlər. Buna aşağıdakıları misal gətirmək olar:

Əbu Bəkr ﷺ demişdir: "Muhəmmədə, onun əhli-beytini təqib etməklə tabe olun." Hədisi Buxari öz "Səhih" əsərində nəql etmişdir.[22]

[20] "Səhih Muslim" (2404).
[21] Bax: İbn Qudəmənin "əl-Muğni" əsəri (2/518).
[22] "Səhih əl-Buxari" (3509).

Həmçinin o ﷺ, demişdir: “Canım əlində olana and olsun ki, Allahın Elçisinin ﷺ qohumları öz qohumlarıma yaxşılıq etməyimdən daha üstündür.” Hədisi Buxari öz “Səhih” əsərində rəvayət etmişdir.

Bir dəfə Zeyd ibn Sabit ﷺ minik üzərində ikən İbn Abbası ﷺ da tərkinə alaraq dedi: “Gəl, ey Allahın Elçisinin əmisi oğlu”. Sonra dedi: “Bizlərə əmr olunub ki, alimlərimizlə və böyüklərimizlə belə rəftar edək”. Zeyd ﷺ [İbn Abbasa] demişdir: “Əlini göstər”. O ﷺ, əlini çıxardıqda Zeyd ﷺ onu öpüb dedi: “Bizlərə əmr olunub ki, Peyğəmbərin ﷺ əhli-beytinə belə [hörmət] edək.”[23]

Rəvayət olunur ki, İmam Malik Mənsur tərəfindən döyülərkən iştirak edənlər şahidlik etmişdilər ki, o, onu döyənə halallıq vermişdi. Sonra da bunu belə açıqlamışdı ki, “Qorxdum ki, birdən dünən ölərdim və Peyğəmbərlə ﷺ görüşərdim, utandım ki, onun nəslindən olan birisi mənə görə cəhənnəmə girmiş olsun.[24]

Rəvayət olunur ki, bir dəfə Harun ər-Rəşid Musa ibn Cəfər ibn Muhəmməd ibn Əli ibn Hüseyn ibn Əli

---

[23] Hədisin ilk hissəsini Hakim “əl-Mustədrak” əsərində (3/478), tam şəkildə isə başqa rəvayətlərlə əd-Dinuri “əl-Mucələsə” əsərində (4/146) rəvayət etmişlər.

[24] “Tərtib əl-mədarik” (1/75).

ibn Əbu Taliblə birlikdə Peyğəmbərin ﷺ məzarının yanına gəlmişdi. Həmin vaxt Harun ər-Rəşid Peyğəmbərin ﷺ qəbri önündə fəxrlə dayanmışdı. Sonra o dedi: "Sənə salam olsun, ey əmim oğlu" – çünki o, Abbas ibn Əbdül-Muttalibin nəslindən idi. Musa ibn Cəfər gəlib dedi: "Sənə salam olsun, atacan". Harun ər-Rəşid də ona tərəf çevrilib dedi: "Ey Əbu Həsən, həqiqətən də bu bir fəxrdir".[25]

Əgər biz onların qəlbində Peyğəmbərin ﷺ əhli-beytinə qarşı necə böyük bir ehtiramın olduğunu bilmək üçün varid olmuş rəvayətlərin hamısını sadalamağa cəhd etsək, bu barədə söhbətimiz çox uzanar. Məqsədimiz müxtəsər şəkildə Peyğəmbərin ﷺ səhabələri ilə əhli-beyti arasında heç bir münaqişənin mövcud olmamasını çatdırmaqdır ki, bunu da həm şəri əsaslar, həm də tarixi faktlar təsdiq etməkdədir. Belə ki, Allahı özünə Rəbb, İslamı din, bəşəriyyətin ağası Muhəmmədi ﷺ isə peyğəmbər və elçi kimi qəbul edən bir adamın Peyğəmbərin qohumlarına və əhli-beytinə nifrət bəsləməsi təsəvvür edilməzdir. Beləsinin İslamdan payı yoxdur. Həmçinin İslam tarixinə bəsirət gözü ilə nəzər salan kəs həm əvvəlki, həm də sonrakı müsəlmanların Peyğəmbərin ﷺ əhli-beytini nə qədər çox sevdiyini aydın şəkildə görər.

[25] "Tarixu Bağdad" (13/31).

Hər bir halda Əhli-beyt barədə qeyd olunan rəylərdən hansının daha məqsədəuyğun olmasından asılı olmayaraq bəlli olur ki, Peyğəmbərin ﷺ ailəsi və əhli-beyti səhabələrin əvvəlinciləridir. Həmçinin şəkk yoxdur ki, möminlərin əmiri Əli ibn Əbu Talib رضي الله عنه və dünya qadınlarının başçısı Fatimə əz-Zəhra رضي الله عنها, habelə iki şəhid imam – Həsən رضي الله عنه və Hüseyn رضي الله عنه əhli-beytdən ən əfzəl olanları, hər kəsdən öncə əhli-beyt hesab olunanlardır. Bu da həmin rəylər arasında hər kəs tərəfindən qəbul edilən bir fikirdir. Həmçinin, bu bütün islam təriqətləri arasında da qəbul edilmişdir. Allah xüsusi ilə onlardan, ümumən də bütün səhabələrdən və əhli-beytdən razı olsun.

## Səhabələr kimlərdir?

Alimlər *"səhabə"* sözünün tərifi barəsində iki rəyə ayrılıblar. Onlardan daha səhih olanı budur ki, səhabə, Allahın Elçisi ﷺ ilə ona peyğəmbərlik veriləndən sonra o ﷺ diri ikən ayıq halda, onunla mömin olaraq görüşən və iman üzərində ölən kəsə deyilir. Bu da digər mühəddislərin və bir sıra fəqihlərin, o cümlədən: Əhməd, Buxari, Əbu Zura, İbn Həzm, habelə səhabələr haqqında əsərlər yazmış Əbu Ömər ibn Əbdül-Bərr, Əbu Abdullah ibn Məndə, Əbu Musa əl-Mədini, İbn əl-Əsir, əz-Zəhəbi, İbn Həcər və digər alimlərin rəyidir. Bunu İmam Nəvəvi və başqaları səhih hesab etmişdir.[26]

Səhabələr peyğəmbərlərdən sonra bəşəriyyətin ən xeyirliləridir. İzzət və Cəlal sahibi olan Allah məhz onları Öz Elçisinə dost seçmişdir. Onlar da İzzət və Cəlal sahibi Allahın ən xeyirli bəndəsinə sadiq dost olmuşlar. Səhabələr İslamı qəbul etmə vaxtına, İzzət və Cəlal sahibi olan Allahın Peyğəmbərinə yaxınlıqlarına görə fərqli dərəcələrdə olmalarına rəğmən İzzət və Cəlal sahibi olan Allah onların hamısından razı

---

[26] Bax: Təlqih fuhum əhlil-əsər (101-ci səh), İbn əl-Əsirin Usdul-ğabə əsəri (1/19), İrşad tulləb əl-həqaiq (2/586), ən-Nəvəvinin Təhzib əl-əsma val-luğat əsəri (1/43), İbn Həcərin əl-İsabə əsəri (1/3), İbn Cəmaənin əl-Munhəl ər-ravi əsəri (111).

qalmış, onları tərifləmiş və onları Cənnətlə müjdələmişdir. Uca Allah buyurur: **“Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. *Allah* onlar üçün altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər hazırlamışdır. Bu, böyük uğurdur.”**[27] Həmçinin buyurur: **“Sizə nə olub ki, *malınızdan* Allah yolunda xərcləmirsiniz? Halbuki göylərin və yerin mirası Allahındır. Sizlərdən *mallarını Məkkənin* fəthindən əvvəl xərcləyib döyüşənlər *başqaları ilə* eyni deyillər. Onların dərəcəsi *mallarını fəthdən* sonra xərcləyib döyüşənlərdən daha üstündür. Amma Allah onların hamısına ən gözəl olanı vəd etmişdir. Allah sizin nə etdiklərinizdən xəbərdardır.”**[28]

Bəzi İslam alimləri nəzəri cəhətdən İslamı daha əvvəl qəbul etmələri məsələsində səhabələri müəyyən mərtəbələrə ayırmışlar. Belə bölgü aparmış ilk alimlərdən biri İmam Hakim bu bölgünü öz “Mərifətu ulum əl-hədis” əsərində etmişdir. Belə ki, o, səhabələri on iki mərtəbəyə ayırmışdır:

1) Məkkədə ilk əvvəl İslamı qəbul edənlər. Misal üçün, dörd xəlifə.

---

[27] “ət-Tövbə” surəsi, 100.

[28] “əl-Hədid” surəsi, 10.

2) Dar ən-Nədvada toplaşanlar.

3) Həbəşistana hicrət edənlər.

4) Birinci Əqəbə beyətinin əhli.

5) İkinci Əqəbə beyətinin əhli. Onların çoxu ənsarlardan idi.

6) Peyğəmbər ﷺ Mədinəyə daxil olmadan öncə Qubada gəlib ona çatan mühacirlər.

7) Bədr əhli.

8) Bədr və Hüdeybiyyə günləri arasında hicrət edənlər.

9) Hüdeybiyyə günündə Ridvan beyətini edənlər.

10) Hüdeybiyyə sülhü ilə Məkkənin fəthi arasında hicrət edənlər. Misal üçün, Xalid ibn Valid, Amr ibn əl-As və Əbu Hureyra.

11) Məkkənin fəthindən sonra İslamı qəbul edənlər.

12) Vida həcci günü və başqa vaxtlarda Peyğəmbəri ﷺ görmüş uşaq və yeniyetmələr.[29]

Ümumiyyətlə, bu əsər möhtərəm səhabələrdən elə bir qismi barəsində söhbət açır ki, onlar da məlum hədisdəki on nəfərdən başqa Cənnətlə müjdələnən kəslərdir. Qeyd edək ki, onlardan da müəyyən qismi Peyğəmbərin ﷺ əhli-beytindəndir.

---

[29] əl-Hakimin "Mərifətu ulum əl-hədis" əsəri (158-ci səhifə, ixtisarla).

Allahın Elçisindən ﷺ sonra Əhli-beytin ən fəzilətlisi Əli ibn Əbu Talibdir رضي الله عنه. O da on nəfərin içərisindəki digər qardaşları ilə birlikdə Cənnətlə müjdələnmişdir. Allah onların hər birindən razı olsun.

Möminlərin anası, pak ailənin anası, kamil qadın Xədicə bint Xuveylid رضي الله عنها də onlardandır.

Dünya xanımlarının rəhbəri pak Fatimə əz-Zəhra رضي الله عنها da onlardandır.

Möminlərin anaları Aişə رضي الله عنها və Həfsə رضي الله عنها da onlardandır.

Şəhidlərin iki ağası Həsən رضي الله عنه və Hüseyn رضي الله عنه də onlardandır.

Peyğəmbərin ﷺ əmisi oğlu şücaətli şəhid Cəfər də onlardandır. Allah onların hər birindən razı olsun.

Bu adamlar nəsəb və qohumluq səbəbindən insanların ağasına yaxınlıq mərtəbəsinə yetişmişlər. Eyni zamanda onlar imanları və Peyğəmbərə ﷺ tabeçilikləri baxımından səhabə mərtəbəsinə də yüksəlmişlər.

Qarşıda qeyd edəcəyimiz kimi, onlardan başqa da Cənnətlə müjdələnmək şərəfinə nail olmuş digər səhabələr də vardır.

Bu mövzunun məzmununu təsəvvür etməniz üçün deyək ki, pak səhabələr və əhli-beytdən Cənnətlə müjdələnmiş olanları (Onlara Allahın salavatı və salamı olsun) iki qismə bölmək olar:

## Birinci qism: Cənnətlə müjdələnmiş on nəfər

Bu qism barədə səhih hədislər varid olmuşdur. Onlar səhabələrin ən xeyirli və ən fəzilətli olanlarıdır.

Rəyyah ibn Haris Səid ibn Zeyd ibn Amr ibn Nufeylin belə dediyini eşitmişdir: – Rəsulullah ﷺ on nəfərin onuncusu idi, o belə dedi: "Əbu Bəkr cənnətlikdir, Ömər cənnətlikdir, Osman cənnətlikdir, Əli cənnətlikdir, Talhə cənnətlikdir, Zubeyr cənnətlikdir, Səd cənnətlikdir, Abdur-Rahmən cənnətlikdir". Ondan soruşdular: – Bəs doqquzuncu kimdir? Dedi: – Mən.[30]

Həmid ibn Abdur-Rahmən bir neçə nəfərin yanında Səid ibn Zeydin رضي الله عنه ona belə dediyini rəvayət etmişdir ki, Rəsulullah ﷺ demişdir: "Əbu Bəkr cənnətlikdir, Ömər cənnətlikdir, Osman, Əli, Zubeyr, Talhə, Abdur-Rahmən, Əbu Ubeydə və Səd ibn Əbi Vaqqas [cənnətlikdirlər]".[31]

---

[30] Hədisi Əhməd (1629), İbn Macə (133) və ən-Nəsai "əl-Kubra" əsərində (8137) Sadəqa ən-Nəxaidən rəvayət edərkən: "Babam Rəyyah ibn əl-Haris mənə rəvayət etmişdir"– deyərək hədisi nəql etmişdir.

[31] Hədisi Tirmizi (3748) və Nəsai "əl-Kubra" əsərində (8139) Abdur-Rahmən ibn Humeyd ibn Abdur-Rahmən ibn Aufdan, o da atasından rəvayət etmişdir.

Bu möhtərəm on nəfər barəsində müxtəlif əsərlər yazılmışdır ki, onlardan da bəziləri aşağıdakılardır:

1. Əbu Qasim Mahmud ibn Ömər əz-Zəməxşərinin "ət-Tərif bi ashabi rasulilləhil mubəşşərinə bil-cənnəh" əsəri. Bu əsər əl-Qaraviyyin əlyazmalarının mündəricatında qeyd olunur.

2. əl-Muhib ət-Tabərinin "ər-Riyadun-nədirah fi mənaqibil-əşəra" əsəri.

3. Muhəmməd ibn əl-Xatib ət-Timurtaşinin "Aqdul-cəvahir ən-neyyirat fi bəyəni xasais əl-kiram əl-əşəra əs-siqat" əsəri.

4. Əhməd ibn Əbdül-Vahhab əl-Fasinin "Avarif əl-minnə fimən nəşhədu ləhu bil-cənnəh" əsəri.

5. Doktor Seyyid əl-Cəmilinin "əl-Əşərat əl-mubəşşərunə bil-cənnəh" əsəri, "Dar ər-Rayyən lit-turas" nəşriyyatı, Beyrut, h.1408 (m. 1988).

6. Abdul-Kəbir ibn Muhəmməd ibn Abdul-Kəbir əl-Həsəni əl-İdrisi əl-Kəttaninin "Arbaunə hədisən mutəbəyinətil-isnadi val-mutuni bis-səmə əl-muttasil min hədisil əşaratul-məşhudi ləhum bil-cənnəh" əsəri.

7. Şeyx Abdul-Ğani ən-Nəbilsinin "Ləmat əl-ənvar fil-məqtui ləhum bil-cənnəti val-məqtui ləhum bin-nəri" əsəri.

8. Muhəmməd Saleh İvadın "əl-Əşəratul mubəşşərunə bil-cənnəti" əsəri. "əl-Muxtar" müəssisəsi, Qahirə.[32]

## İkinci qism: On nəfərdən savayı digər cənnətlə müjdələnənlər

Bu araşdırmanın mövzusu da bu qismə aiddir. Bu mövzuya diqqət ayırmağın önəmli olması aşağıdakı məsələlərdən aydın olur:

**Birinci:** Araşdırmaçı bu mövzu ilə bağlı hər hansı bir araşdırmaya, onların adları, müjdələnmə dəlillərinə, onların qəbul olunub-olunmama dərəcələrinə rast gəlməyib.

**İkinci:** Cənnətlə müjdələnmiş on nəfərlə bağlı bir sıra əsərlər yazılmış, alimlər onların fəzilətlərini qeyd etmişlər ki, biz də onlardan bəzilərini qeyd etdik. Adları bir yerdə qeyd olunduğu üçün böyüklü-kiçikli bütün müsəlmanların arasında onların adları dillər əzbəridir.

"əl-Cuz əl-məşhur" əsərinin müəllifi İmam Hafiz Əbu Əli Həsən ibn Urfə əl-Bağdadi əl-Muəddib yüz

---

[32] əl-Bağdadinin "İdah əl-məknun" əsəri (2/130-410); əl-Kəttaninin "ər-Risələtul-mustətrafə" əsəri (6/30); Ömər Kəhalənin "Mucəm əl-muəllifin" əsəri (10/196).

on yaşında vəfat etmişdir. Onun on övladı var idi və onlara cənnətlə müjdələnmiş on səhabənin adlarını vermişdi.[33]

Bəziləri həmin səhabələrin adlarını beytlərində qeyd etmişlər. Məsələn, İbn əl-Vəzir demişdir:

*Ən xeyirli dostlar Mustafanındır,*
*Xüld Cənnətlərində onların şərəfi artar,*
*Onlar Talhə, İbn Ovf və Zübeyr,*
*Əbu Ubeydə, İki Səd və xəlifələrdir.*[34]

Həmçinin, Əbut-Tahir əs-Siləfi əl-Hafiz demişdir:

*Peyğəmbər Muhəmmədən ﷺ sonra müjdələndi,*
*Ədn cənnətləri ilə bir qrup xoşbəxt insan –*
*Səid, Səd, Zubeyr və Amir,*
*Talhə və Zuhri və Xəlifələr.*[35]

Bu qismə aid olanların çoxu böyük səhabələrdir. Onların İslam əhli üzərində haqları vardır. Buna görə də onlara yüksək məqamlarına görə belə bir xüsusiyyət verilmişdir.

---

[33] İbn Kəsirin "əl-Bidayə van-nihayə" əsərinə bax (11/35).

[34] Əbul-Qasimin "ər-Raud əl-Basim fiz-Zəbbi an sünnə" əsəri (2/172).

[35] əl-Qadi əl-Miknasinin "Durratul-hical" əsəri (1/34).

## Cənnətlə müjdələnmiş səhabələrə xüsusi önəm verməyin və onların halı ilə tanış olmağın səmərəsi

Əhli-Sünnə vəl-Cəmaənin əsas əqidə prinsiplərindən biri belədir ki, "heç kimi cənnətlik və ya cəhənnəmlik etmə!" İbn Əbul-İzz İmam Əbu Cəfər ət-Tahavinin məşhur əqidə kitabını şərh edərkən demişdir: "Qiblə əhlindən heç kəsin Cənnət və ya Cəhənnəm əhlindən olmasını demirik. Yalnız Peyğəmbərimizin ﷺ Cənnətlə müjdələdiyi məlum on nəfər istisnadır. Bizlər deyirik ki, Allah böyük günah sahiblərindən dilədiyini cəhənnəmə salacaq, sonra Uca Allahın mərhəməti və şəfaətçilərin şəfaəti sayəsində oradan çıxacaqlar. Lakin müəyyən olaraq hər iki şəxs barəsində susuruq. Yəni kiminsə Cənnətə və ya Cəhənnəmə daxil olacağı barədə elmsiz hökm vermirik. Çünki həqiqət gizlidir və insanın necə öldüyünü bilmirik. Sadəcə yaxşı işlər görənin barəsində rica edir, günah əhli barəsində isə qorxuruq.

Cənnətə şahidlik barədə saleh sələflərin üç rəyi vardır:

*Birincisi,* yalnız peyğəmbərlərə şahidlik verilə bilər ki, bu da Muhəmməd ibn əl-Hənəfiyyə və əl-Əvzainin rəyidir.

*İkincisi,* barəsində cənnətlə müjdə dəlili varid olmuş hər bir mömin şahidlik edilir ki, bu da bir çox alimlərin və hədis əhlinin rəyidir.

*Üçüncüsü,* möminlərin şahidlik etdikləri kəslər üçün şahidlik edilir. Buxari və Muslimin "Səhih" əsərlərində nəql olunur ki, bir dəfə Peyğəmbərin ﷺ yanından bir cənazə aparılarkən insanlar cənazə sahibini təriflədilər. Peyğəmbər ﷺ dedi: "Vacib oldu." Sonra başqa bir cənazə aparılarkən onu pislədilər. Peyğəmbər ﷺ dedi: "Vacib oldu." Başqa bir rəvayətdə deyilir ki, o ﷺ "Vacib oldu" sözünü üç dəfə təkrar etdi. Ömər dedi: – Ey Allahın Elçisi, nə vacib oldu? Allahın Elçisi ﷺ dedi: "Bu adamı təriflədiniz, Cənnət ona vacib oldu. O birisini pislədiniz, cəhənnəm ona vacib oldu. Sizlər Allahın yer üzərindəki şahidlərisiniz". Sonra dedi: "Sizlər Cənnət əhlini Cəhənnəm əhlindən fərqləndirə bilərsiniz." Soruşdular ki: – Necə, ey Allahın Elçisi? Dedi: "Barələrində yaxşı və ya pis danışılması ilə". Beləcə xəbər verdi ki, Cənnət əhli Cəhənnəm əhlindən bununla fərqlənir.[36]

---

[36] İbn Əbul-İzz əl-Hənəfinin "Şərhu əqidətut-Tahaviyyə" əsəri (2/538). Bu üç rəyi Şeyxulislam İbn Teymiyyə "ən-Nubuvvat" əsərində (1/154) nəql edərkən üçüncüdə demişdir: "Ümmətin əməlisaleh insan kimi qəbul etdiyi kəsə deyilə bilər. Misal üçün Ömər ibn Əbdül-Əziz, Həsən əl-Bəsri və başqaları kimi. Əbu Səur Əhməd ibn Hənbəlin cənnətlik olduğuna şahidlik etmişdi".

İkinci rəyin cümhurun rəyi olması görsənir. Belə ki, təxminlə şahidlik naqis hesab olunur. Buna sadəcə ümid oluna bilər. Buna görə də birinci hədisdə "Vacib oldu" deyilir, bu da onlara verilən şahidlik şəfaət mənasındadır. Çünki hədisdə deyilir ki; "Siz onu tərifədiniz və Cənnət ona vacib oldu." Yəni insanların onu təriflməsi səbəbindən ona Cənnət vacib olur. Beləliklə, insanların xeyirə şahidliyi nəticə deyil, Cənnətə aparan səbəbdir. Sanki o, şəfaət və dua məqamındadır ki, bu da mütləq deyildir. İkinci hədis də bu mənanı, yəni şəfaət və dua mənasını daşıyır. Əlavə olaraq ikinci rəy İslam alimlərinin çoxunun rəyidir.[37] Doğru rəy budur ki, dəlillərdə varid olmayan bir kəsin Cənnətlik olmasına şahidlik verilməz ki, bu da yalnız Peyğəmbərin ﷺ təriflədiyi səhabələrə aiddir.

İmam Muhəmməd ibn Həzm bu barədə başqa bir təfsilata vararaq demişdir: "Ona görə də heç bir kəsin Cənnətə və ya Cəhənnəmə gedəcəyini dəqiq söyləyə bilmərik. Yalnız barələrində Cənnətə daxil olacaqları ilə bağlı dəlil varid olmuş səhabələr istisnadır. Çünki Allah onların qəlblərində olanı bildiyindən onların üzərinə sükunət nazil etmişdi. Bədr əhli

[37] Şeyx Saleh Ali Şeyxin "Şərhu Əqidətut-Tahaviyyə" əsərinə bax (459).

və ilk öncə islamı qəbul edənlər də bu qəbildəndirlər. Yalnız onların Cənnətə daxil olacaqları barədə qəti söz deyə bilərik. Çünki Allah öz Elçisinin ﷺ dili ilə bu xüsusda xəbər vermişdir. Həmçinin, aşkarcasına küfrü elan edərək həmin vəziyyətdə ölənlər də istisnadır. Biz onların da Cəhənnəmə daxil olacaqlarını deyə bilərik. Bunlardan başqaları barəsində isə dayanırıq. Vəsflər barədə isə deyə bilərik ki, kim küfrü elan edərək və ya onu gizlədərək ölərsə, əbədi olaraq Cəhənnəmə gedəcəkdir. Allahla görüşdüyü zaman kimin savabları günahlarından çox və ya bərabər olarsa, Cəhənnəmə daxil olmadan Cənnətə girəcək. Kimin də böyük günahları savablarından çox olarsa, Cəhənnəmə gedəcək, sonra da şəfaətlə oradan çıxarılaraq Cənnətə gedəcək”.[38]

Peyğəmbərin ﷺ belə dediyi də nəql olunmuşdur: “Allahdan ümid edirəm ki, ağac altında beyət edənlərdən heç kim Cəhənnəmə daxil olmasın”.[39] Onların sayı min dörd yüz nəfərdən artıq idi. Bu hədisdə Peyğəmbər ﷺ şahidlik edir ki, onlardan heç biri Cəhənnəm oduna daxil olmayacaq və onlar Cənnət əhlindəndirlər. Çünki cəhənnəm oduna daxil olma-

---

[38] “əl-Faslu fil-miləli val-əhvai van-nihəl” (4/52).

[39] Nəsainin “əl-Kubra” əsəri, “Ağac altında beyət edənlər Cəhənnəmə daxil olmayacaq” babı (6/464).

yacaq kəs mütləq Cənnətə daxil olacaqdır. Həmçinin sayları üç yüz ondan artıq olan Bədr əhli. Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Şübhəsiz ki, Allah Bədr əhlinə nəzər salıb demişdir: – Nə istəyirsiniz edin, siz bağışlanmısınız".[40] Əgər onları Allah bağışlamışdırsa, deməli bu onların Cənnət əhlindən olmalarına dəlildir. Digər səhabələr barəsində də yalnız xeyir umulur. Çünki onlar İslamı ilk əvvəl qəbul etmiş və xeyirli işlər görmüşlər. Uca Allah onların öndə olmaları və fəzilətləri xüsusunda ayələr nazil etmişdir. Uca Allah buyurur: **"Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara..."**[41] Burada Məkkədən Mədinəyə hicrət etmiş mühacirlər, habelə Mədinədə İslamı qəbul etmiş ənsarlar nəzərdə tutulur. **"həmçinin yaxşı işlər görməkdə onların**

---

[40] Hədisi Buxari (1095) və Muslim (6557) Əlidən uzun bir rəvayətdə nəql etmişlər. Orada deyilir: "Nə bilirsən, ola bilsin ki, Allah Bədr əhlinə nəzər salmış...". Əhməd (13/322) və Əbu Davud isə (4656) Əbu Hureyradan Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişlər: "Şübhəsiz ki, İzzət və Cəlal Sahibi olan Allah Bədr əhlinə nəzər salmış...". Burada qəti şəkildə bildirilmişdir. Hafiz "əl-Fəth" əsərində (7/380) öz rəvayətini ["Ola bilsin ki, Allah"] qeyd etdikdən sonra demişdir: "Lakin alimlər demişlər: – Allah və Elçisinin kəlamında ümid etmək deyildikdə, həmin işin baş verməsi nəzərdə tutulur". Sonra o, Əhməd və Əbu Davudun rəvayətlərinə işarə edərək onların qətiyyət formasında qeyd olunduğunu bildirmişdir.

[41] "Tövbə" surəsi, 100.

**ardınca gedənlərə gəlincə..."**[42] – yəni səhabələrdən sonra İslamı qəbul edənlər. Sonra Uca Allah buyurur: **"Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. *Allah* onlar üçün *ağacları* altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları hazırlamışdır."**[43] Bu Uca Allah tərəfindən onlara verilmiş tərif və şahidlikdir ki, O, onlar üçün ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları hazırlamışdır. Bu həm də ona dəlildir ki, mühacir və ənsarlar, habelə onlardan sonra İslamı qəbul edənlər və onlara yardım edənlər barəsində xeyir umulur.[44]

İmam İbn Həzm və onunla razılaşan alimlərin rəyinə gəldikdə bu ümumi bir müjdədir. Araşdırmamızın mövzusu isə xüsusi olaraq adbaad Cənnətlə müjdələnmiş kəslərdir.[45]

---

[42] "Tövbə" surəsi, 100.

[43] "Tövbə" surəsi, 100.

[44] Şeyx İbn Cibrinin "Əqidətut-Tahaviyyə" əsərinin şərhinə bax.

[45] Bax: "əl-Faslu fil-miləli val-əhvai van-nihəl" (4/52); İbn Teymiyyənin "Məcmu əl-fətava" əsəri (11/518); İbn Cibrinin "Şərhu əqidətut-Tahaviyyə" əsəri (3/47); "ər-Racihi" (274-cü səhifə); Saleh Ali Şeyxin "İthaf əs-Sail" əsəri (457-ci səhifə).

## Araşdırmanın planı

Bu araşdırma pak Sünnə mənbələrinin, tərcümeyi-hal və təbəqələrdə adları ilə xüsusi olaraq Cənnətlə müjdələnmiş səhabələr haqqında məlumatların bir yerə toplanmasını özündə əks etdirir. Sonra da müjdələnmiş həmin şəxslər haqqında varid olmuş dəlillər bir yerə toplanmışdır. Bu səhabələrin sayı 49-dur. Onlar barəsində varid olmuş rəvayətlərin sayı isə 160-dan artıqdır. Həmin dəlil və rəvayətləri araşdırdıqda məlum olmuşdur ki, onlardan qəbul oluna biləcək şəxslərin adı 31-dir. Bu araşdırmanın çox həcmli olmaması üçün müəllif bu hörmətli səhabələrdən hər birinin cənnətlə müjdələnməsi barədə yalnız bir dəlil gətirməklə kifayətlənmişdir. Ancaq bu səhabələrdən 18-i barəsində varid olmuş rəvayətlər məqbul hesab olunmur. Səhih olmayan rəvayətlərdə adları keçən və Cənnətlə müjdələnmiş səhabələrin adları bunlardır:

1. Xabib ibn Udey رضي الله عنه.
2. Cənnətdə Rəsulullahla ﷺ birlikdə olmaq istəmiş gənc oğlan.
3. Ənsardan bir kişi.
4. Müaviyə ibn Əbu Sufyan رضي الله عنه.
5. Abdullah ibn Ömər رضي الله عنه.

6. Ummu Ruman رضي الله عنها.
7. Zeyd ibn Savhan رضي الله عنه.
8. Abdullah ibn Yasir əl-Ənəsi رضي الله عنه.
9. İtab ibn Useyd رضي الله عنه.
10. Muğiranın azadlısı Hilal رضي الله عنه.
11. Əbu Əyyub əl-Ənsari رضي الله عنه.
12. Əbu Hind əl-Həccam رضي الله عنه.
13. Abdullah ibn Məsud رضي الله عنه.
14. Amir ibn Əbu Vaqqas رضي الله عنه.
15. Ubey ibn Kəb رضي الله عنه.
16. Usamə ibn Zeyd ibn Harisə رضي الله عنه.
17. Ummu Varaqa bint Abdullah əl-Ənsari رضي الله عنه.
18. Suheyb ibn Sinan ər-Rumi رضي الله عنه.
19. Miqdad ibn əl-Əsvəd رضي الله عنه.
20. Əbu Zərr əl-Ğifari رضي الله عنه.

Araşdırmanın planına gəlincə, o belədir: əvvəlcə Cənnətlə müjdələnmiş səhabənin adı qeyd olunur, sonra qısa şəkildə onun tərcümeyi-halı verilir. Daha sonra onun Cənnətlə müjdələnməsi barədə varid olmuş hədis, həmin hədisin təxrici və hökmü zikr olunur.

Müvəffəq edən Allahdır.

## Mülahizə

Vurğulamaq lazımdır ki, Bədr döyüşündə və Hüdeybiyyə sülhündə iştirak etmiş səhabələr barəsində ümumi bir müjdə vardır.

Zeyd ibn Harisənin ﵁ xanımı Ummu Mubəşşir rəvayət edərək demişdir ki, "Bir dəfə Peyğəmbər ﷺ Həfsanın evində ikən dedi: "Bədr və Hüdeybiyyədə iştirak etmiş adamlardan (səhabələrdən) heç biri Cəhənnəm oduna daxil olmayacaqdır". Həfsa dedi: – Məgər İzzət və Cəlal Sahibi Allah buyurmurmu: **"İçinizdən hər kəs oraya varid olacaqdır"**[46] Allahın Elçisi ﷺ də dedi: **"Sonra Biz müttəqiləri (oddan) xilas edəcəyik."**[47]."[48]

---

[46] "Məryəm" surəsi, 71-ci ayə.

[47] "Məryəm" surəsi, 72-ci ayə.

[48] Hədisi Əhməd "Müsnəd" əsərində (27087) və İshaq ibn Rahuya "Müsnəd" əsərində (1986) rəvayət etmişlər. Hədisin Əbu Davud (4655) və Tirmizidə (3860) Cabir ibn Abdullahdan, Buxari (6540) və Muslimdə (6557) isə Əlidən şahidləri vardır.

## 1 – Useyram bin Bəni Abdul-əşhəl ؓ

O, Amr bin Sabit bin Vaqiş (Aqiş də deyilir) bin Zağbə bin Zaura bin Abdul-Əşhəl əl-Ənsaridir. Bəzən babasına nisbət olunaraq ona Amr bin Aqiş də deyilir. Anası bintul Yəman Hüzeyfənin bacısıdır. Ləqəbi Useyramdır və o, Uhud döyüşündə şəhid olmuşdur.

İslamı Uhud günü qəbul etmiş və elə o döyüşdə də şəhid olmuşdur. Allah üçün bircə dəfə namaz da qılmamışdır. Rəsulullah ﷺ da onun Cənnət əhlindən olması barədə xəbər vermişdir.

Buxarinin "Səhih" əsərində Bəradan ؓ rəvayət olunan hədisdə o, demişdir: "Üzü zirehlə örtülü bir kişi Peyğəmbərin ﷺ yanına gəlib dedi: – Ey Allahın Elçisi, döyüşüm, yoxsa İslamı qəbul edim? Dedi: "İslamı qəbul et, sonra döyüş". Həmin adam da İslamı qəbul edib döyüşdü və öldü. Rəsulullah ﷺ dedi: "Az iş gördü, lakin çox savab qazandı".

Muslim isə bu hədisi belə rəvayət etmişdir: "Bənun-Nəbit qəbiləsindən (ənsarlarda bir qəbilədir) bir kişi gəlib [Allahın Elçisinə ﷺ] dedi: – Şəhadət verirəm ki, Allahdan başqa ibadətə layiq məbud yoxdur və sən onun qulu və elçisisən. Sonra gedib vuruşdu və öldü. Sonra hədisi qeyd etdi.

Nəsainin ləfzi isə belədir: “Ey Allahın Elçisi, əgər bircə namaz belə qılmadığım halda [düşmən] bir qövmə hücum edib onlarla ölənə qədər vuruşsam, mənim üçün xeyirli olarmı?” Dedi: “Bəli”.[49]

Onun Cənnətlə müjdələnməsi aşağıdakı hədislə sübut olunur:

Əbu Əhmədin köləlikdən azad etdiyi Əbu Sufyan Əbu Hureyradan ﷺ rəvayət edərək demişdir: – Bir dəfə o, dedi: “Mənə elə bir adam barədə xəbər verin ki, bircə dəfə namaz qılmadığı halda Cənnətə daxil olmuş olsun”. İnsanların bilmədiyini görüb dedi: “Useyram bəni Abdul-Əşhəl Amr bin Sabit bin Vaqş”. Husayn deyir ki, mən Mahmud ibn Ləbidə dedim: “Useyramın halı necə oldu ki?” Dedi: “O, qövmünün İslamı qəbul etməsinə razı olmurdu. Uhud döyüşü günü Allahın Elçisi ﷺ Uhuda çıxmışdı. Bu vaxt o, İslamı qəbul etmək istədi və müsəlman oldu. Sonra qılıncını götürüb döyüşə atılaraq vuruşmağa başladı. Döyüş zamanı o, ağır yaralandı. Bənu Əşhəl qəbiləsinin adamları döyüş meydanında öz ölülərini axtararkən onu görüb dedilər: “Vallahi ki, bu Useyramdır. Görəsən onu bura nə gətirib? Axı biz onu görəndə o

---

[49] Bax: İbn əl-Əsirin “Usdul-ğabə” əsəri (1/147); İbn Həcər əl-Əsqəlaninin “əl-İsabə” əsəri (2/282). Hədisi əl-Buxari (2808), Muslim (1900) və Nəsai “əl-Kubra” əsərində (8652) rəvayət etmişlər.

bu fikri inkar edirdi”. Ondan buraya gəlmə səbəbini soruşdular ki, “Ey Amr, səni buraya gətirən nədir? Öz qövmünə rəhmin gəlib, yoxsa İslama rəğbət bəsləyirsən?” Dedi: “İslama rəğbət bəslədiyim üçün. Mən Allaha, Onun Elçisinə iman gətirərək müsəlman oldum. Sonra qılıncımı götürüb Allahın Elçisi ﷺ ilə birlikdə döyüşə getdim və vuruşaraq gördüyünüz bu hala düşdüm”. Az sonra o, onların qollarında vəfat etdi. Onlar gəlib bu barədə Allahın Elçisinə ﷺ xəbər verdikdə, o ﷺ, dedi: “O, Cənnət əhlindəndir.”

İbn İshaq İbn Hişamın “Sira” əsərində (2/89) rəvayət edərək demişdir: “Husayn ibn Abdur-Rahmən Əbu Əhmədin azadlısı Əbu Sufyandan rəvayət etmişdir ki...”. Sonra da hədisi zikr edir.

Hədisi Əhməd (23684) rəvayət edərək demişdir: “Yaqub ibn İbrahim ibn Səd rəvayət etmişdir ki...”.

Həmçinin bu hədisi Əbu Nueym “Mərifətus-sahəbə” əsərində (4428) Əhməd ibn Muhəmməd ibn Əyyubdan, onların da hər ikisi İbrahim ibn Səddən rəvayət etmişlər. Hədisi Əbu Nueym (997) Əbu Cəfər ən-Nufeylidən, o da Muhəmməd ibn Sələmədən, onların da hər ikisi İbn İshaqdan rəvayət etmişlər.

Heysəmi “əl-Məcmə” əsərində (9/34) demişdir: “Hədisi Əhməd rəvayət etmişdir və raviləri etibarlıdır”.

İbn Həcər "əl-İsabə" əsərində (2/282) demişdir: "Bu, həsən isnaddır və onu bir sıra ravilər İbn İshaqdan rəvayət etmişlər".

Əbu Hureyradan gələn başqa bir rəvayətdə onun İslama qarşı mübarizə aparması səbəbi zikr edilmişdir. Əbu Davud[50], Hakim[51] və başqaları Həmmad ibn Sələmədən, o da Muhəmməd ibn Amrdan, Əbu Sələmədən, Əbu Hureyradan, o da Amr ibn Aqişdən rəvayət edir ki, "Bəzilərinin ona cahiliyyət dövründən qalmış riba borcu var idi. O da həmin borcu almayınca İslamı qəbul etmək istəmirdi. Uhud günü isə o gəlib dedi: "Əmim oğulları haradadır?" Dedilər: "Uhudda". Dedi: "Demək, Uhudda". Sonra o, zirehini geyinib atına minərək onlardan əvvəl yola düşdü. Müsəlmanlar onu görüb dedilər: "Bizdən uzaq dur, ey Amr!" O dedi: "Mən artıq iman gətirmişəm". Beləcə o, döyüşə atılır və döyüşdə ağır yaralanır. Onu yaralı halda yaxınlarının yanına apardılar. Səd ibn Müaz ﷺ onun yanına gəlib qardaşı Sələməyə dedi: "O, qövmü ilə həmrəylik göstərdi, yoxsa Allah və Onun Elçisi üçün qəzəbləndi?" Dedi: "Allah və Onun Elçisi üçün qəzəbləndi". Beləcə o, ölərək bircə namaz belə qılmadan Cənnəti qazandı". Hədisin isnadı həsəndir.

---

50 "Sünən Əbu Davud" (2539).

51 "əl-Mustədrak" (2533).

## 2 – Bilal ibn Rabəh رضي الله عنه

O, Müəzzin Bilal bin Rabəh əl-Həbəşidir. Əbu Bəkrin رضي الله عنه köləlikdən azad etdiyi Əbu Abdullahdır. İslamı ilk əvvəl qəbul etmiş və Allah yolunda əzab çəkmiş kəslərdəndir.

Abdullah ibn Məsud رضي الله عنه demişdir: "İslamı ilk əvvəl izhar edən yeddi nəfər bunlardır: Allahın Elçisi, Əbu Bəkr, Ammar, onun anası Sumeyyə, Suheyb, Bilal və Miqdad. Allahın Elçisinə ﷺ gəlincə, Allah onu əmisi vasitəsilə imtahan etmişdi. Əbu Bəkrə Allah qövmü vasitəsilə imtahan etdi. Digərlərinə isə müşriklər dəmir zirehlər geyindirərək günün altında onlara əziyyət vermişdilər. Onların hər biri müşriklərin tələb etdiklərini dedi, yalnız Bilaldan başqa. O, Allah üçün özünə əziyyət verilməsinə razı oldu. Onu iki nəfərə tapşırdılar ki, Məkkənin ətrafına dolandırsınlar. O isə: "Allah Təkdir, Allah Təkdir" – dedi".[52]

Buxari Ömər ibn Xəttabın رضي الله عنه belə dediyini rəvayət etmişdir: "Ağamız Əbu Bəkr رضي الله عنه ağamız Bilalı رضي الله عنه azad etmişdir".[53]

---

[52] Hakimin "əl-Mustədrak" əsəri (5238); Əbu Nueymin "Hilyətul-əvliya" əsəri (1/149). Buradakı mətn Əbu Nueymindir.

[53] Hədisi Buxari (3544) və Muslim (3656) rəvayət etmişlər.

Əta əl-Xorasani deyir ki, mən İbn əl-Museyyibin yanında ikən, o, Bilalı zikr edib dedi: "O, dininin qeyrətini çəkən birisi idi. O, Allah yolunda əzaba məruz qaldı. Allahın Elçisinə ﷺ bu barədə xəbər çatdıqda dedi: "Pulumuz olsaydı, Bilalı satın alardıq". Sonra Əbu Bəkr Abbasla rastlaşdı və dedi: "Bilalı mənim üçün al". Abbas da onu alaraq Əbu Bəkrin yanına göndərdi". Əbu Bəkr də onu azad etdi.[54]

Qeys demişdir: "Əbu Bəkr رضي الله عنه Bilalı beş misqal qızıla aldıqda, o, daşlarla basdırılmış halda idi. Ona dedilər ki, bir misqal qızıla alsaydın da onu sənə satardıq. O isə dedi: – Əgər yüz misqal qızıla satmış olsaydınız belə, onu alardım".[55]

Bilal Bədr və digər döyüşlərdə iştirak etmişdir.

Peyğəmbər ﷺ onun Cənnətə girəcəyini xüsusilə vurğulamışdır. Həmçinin Peyğəmbər ﷺ onunla Əbu Ubeydə ibn əl-Cərrahı qardaş etmişdi.[56]

---

[54] Zəhəbi "Siyar əlam ən-nubəla" əsərində (1/352) hədisi bu ləfzlə rəvayət etmişdir. Həmçinin hədisi Abdur-Razzəq "əl-Musannəf" əsərində (11/234) bu hədisdən də uzun mətnlə nəql etmişdir.

[55] Hədisi İbn Əbu Şeybə (36589) və Əbu Nueym "Hilyətul-əvliya" əsərində (1/38) rəvayət etmişlər. Zəhəbi "Siyar əlam ən-nubəla" əsərində (1/353) demişdir: "İsnadı güclüdür".

[56] "əl-İsabə" (1/326).

Peyğəmbərin ﷺ vəfatından sonra Bilal cihada çıxmış və Şamda vəfat etmişdir.

O, Əbu Bəkrlə رضي الله عنه birlikdə idi.

Həmçinin o, Allahın Elçisinin ﷺ xəzinədarı idi.

Bilal رضي الله عنه hicrətin on yeddinci ilində vəfat etmişdir. Bəziləri onun daha sonra vəfat etdiyini bildirmişlər. Həmin vaxt onun altmışdan çox yaşı var idi. Səid ibn Əbdül-Əziz rəvayət edir ki, Bilal ölüm anında belə demişdir: "Sabah bizlər Muhəmməd və onun səhabələri ilə görüşəcəyik". Bunu eşidən xanımı da: "Necə gözəl! Necə də sevincli xəbərdir!"– dedi.[57]

Bilalın رضي الله عنه Cənnətlə müjdələnməsi xəbəri aşağıdakı on səhabədən nəql olunmuşdur: Əbu Hureyra, Cabir bin Abdullah, Abdullah ibn Ömər, Abdullah ibn Abbas, Zeyd ibn Ərqam, Vahşi bin Hərb, Səhl bin Səd, Əbu Umamə, Ənəs bin Malik və Bureydə. Bu hədislərdən də ən səhihi Əbu Hureyra və Cabirdən rəvayət olunmuş hədisdir. Mən burada Əbu Hureyradan nəql olunmuş rəvayətlə kifayətlənəcəyəm:

Əbu Zura bin Amr bin Cərir Əbu Hureyradan رضي الله عنه rəvayət edir ki, Allahın Elçisi ﷺ dedi: "Ey Bilal, mənə İslamda sənə qazanc gətirən ən böyük əməl barəsində danış, bu gecə mən Cənnətdə sənin ayaq səslərini

[57] "Siyar əlam ən-nubəla" (1/359).

eşitdim.” Bilal dedi: “Mən İslamda mənfəətli elə bir əməl etməmişəm. Sadəcə mən gecə-gündüz hər dəfə təmizləndikdən sonra bacardığım qədər namaz qılardım.”[58]

[58] Hədisi Buxari (1098) və Muslim (2458) rəvayət etmişlər.

## 3 – Sabit bin Qeys ﵁

O, Sabit bin Qeys bin Şəmmas əl-Ənsari əl-Xəzramidir. Ənsarların xütbə verəni və böyük səhabələrdəndir. Peyğəmbər ﷺ onu Cənnətlə müjdələmişdir. O, hicrətin 12-ci ilində Əbu Bəkrin xilafəti dövründə Yəməmə döyüşündə şəhid olmuşdur.

Peyğəmbər ﷺ demişdir: "Sabit bin Qeys bin Şəmmas necə də gözəl insandır".[59]

O, Bədr və bütün başqa döyüşlərdə iştirak etmişdir.

Ənəs ﵁ demişdir: "Yəməmə günü Sabit bin Qeys gəldi. Onun cəsədi mumyalanmış, özü də iki ağ libas geyinmişdi. Həmin ağ libaslar da onun kəfəni oldu. Həmin vaxt qövm məğlub olmuşdu. O, dedi: "Allahım, onların etdiklərindən Sənə sığınıram! Onların etdiklərinə görə Səndən üzr istəyirəm! Dostlarınıza öyrəşdirdiyiniz əməl necə də pisdir! Bizimlə onların arasında bir saat möhlət verin". Sonra o, silahını götürüb döyüşə atıldı və öldü. Onun zirehi oğurlanmışdı. Bir kişi onu yuxusunda görmüşdü. O, ona demişdir: "O, filan yerdə, yəhərin altındakı kuzənin içərisindədir". Sonra da ona bəzi tövsiyələr verdi. Gedib baxdıqda,

---

[59] Hədisi Əhməd (9421), Buxari "Ədəb əl-mufrad" əsərində (337) və Tirmizi (3795) rəvayət etmişlər; isnadı həsəndir. Bax: Hafiz İbn Həcərin "əl-İsabə" əsəri (1/260).

zirehi kişinin dediyi yerdə tapdılar. Sonra da onun tövsiyələrini həyata keçirdilər".[60]

Hakim öz isnadı ilə Əbu Muhəmməd bin İshaqın belə dediyini rəvayət etmişdir: "Sabit bin Qeys bin Şəmmas Yəmamə günü şəhid olmuşdur. Əbu Bəkr onu Xalid bin Validlə birgə ənsarlara rəhbər təyin etmişdi".[61] Sonra da onun tərcümeyi-halında bəzi hədisləri qeyd etmişdir. Həmin hədislərdən biri budur: Abdur-Rahmən bin Yəzid bin Cabir deyir ki, Əta əl-Xorasani mənə demişdir: "Mən Mədinəyə gəlmişdim. Sabit bin Qeysin qızının yanına gedib atasının əhvalatını ona danışdım. O dedi: – Uca Allahın **"Səsinizi qaldırmayın..."[62]** ayəsi nazil olduqda, atam oturub ağladı. Mən hədisi ona danışdım. Orada deyilirdi: "O, şəhid olduqdan sonra bir kişi onu yuxusunda gördü. [Sabit bin Qeys həmin kişiyə belə] dedi: "Mən öldükdə, müsəlman birisi mənim zirehimi əynimdən çıxarıb əvvəlcə onun üstünə kəndir, onun da üstünə yəhər atıb gizlətdi. Əmirin yanına gedib bu barədə

[60] Hədisi Hakim "əl-Mustədrak" əsərində (3/260) rəvayət etmiş və demişdir: "Muslimin şərtinə uyğundur, lakin Buxari və Muslim həmin hədisi rəvayət etməmişlər". Həmçinin, hədisin əslini Buxari də nəql etmiş, lakin onun şəhid olmasını və zireh məsələsini qeyd etməmişdir. Bax: "Səhih əl-Buxari" (2690).

[61] "əl-Mustədrak" (3/259).

[62] "əl-Hucurat" surəsi, 2.

ona xəbər ver, ancaq bunun yuxu olduğunu ona deyib onu çaşdırma. Mədinəyə getdiyində Allahın Elçisinin ﷺ xəlifəsinə de ki, "Mənim filan qədər borcum var, filan köləm də azaddır". Ancaq bunun yuxu olduğunu ona demə ki, onu çaşdırmayasan. O da xəlifənin yanına gedib bunları ona dedi. Xəlifə də həmin vəsiyyətləri həyata keçirdi. Biz Sabit bin Qeysdən başqa kiminsə ölümündən sonra vəsiyyətinin həyata keçirildiyini eşitməmişik".[63]

Sabit bin Qeysin oğulları Muhəmməd, Yəhya və Abdullah Hurra günü şəhid olmuşdular.

Zuhri demişdir: "Təmim qəbiləsindən nümayəndə heyəti gəlmişdi. Onların xütbə verəni bir neçə məsələ ilə fəxr edirdi. Peyğəmbər ﷺ Sabit bin Qeysə dedi: "Qalx və onların xütbə verənlərinə cavab ver". O da qalxıb Allaha həmd və sənalar etdi. Peyğəmbər ﷺ və müsəlmanlar da onun bu məqamından xoşlandılar.[64]

Onun müjdələnməsi aşağıdakı hədislə sabitdir:

Sabit Ənəs bin Malikdən رضي الله عنه rəvayət edir ki, bir gün **"Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən yüksəyə qaldırmayın və bir-birinizə müraciət etdiyiniz kimi ona da uca səslə müraciət**

---

[63] "əl-Mustədrak" (3/261).

[64] Bax: "Siyar əlam ən-nubəla" (1/311), (2/562); İbn Hişamın "Sira" əsəri (2/562); "Təhzib ət-təhzib" (2/11).

**etməyin. Yoxsa, özünüz də hiss etmədən əməlləriniz hədər gedər.”**[65] ayəsi nazil oldu. Sabit bin Qeys bin Şəmmas da uca səsli birisi idi. Bu zaman o, dedi: “Mən səsimi Peyğəmbərin ﷺ səsindən yüksəyə qaldırırdım. Demək, əməllərim puç oldu, demək, mən Cəhənnəm əhlindənəm”. Beləcə o, kədərli-qüssəli halda əhlinin yanında oturdu. Allahın Elçisi ﷺ da onun yanına gəlmişdi. Bəzi insanlar da onun yanına gəlib dedilər: – Allahın Elçisi sənin yanına gəlmişdi, sənə nə olub? Dedi: – Mən səsimi Peyğəmbərin ﷺ səsindən yüksəyə qaldırır və ucadan danışıram. Mənim əməllərim puç olub, mən Cəhənnəm əhlindənəm. Onlar gedib onun dediklərini Peyğəmbərə ﷺ çatdırdılar. O dedi: “Xeyr, o, cənnət əhlindəndir”. Ənəs dedi: – Bəzən o bizim aramızda gəzişər, biz də bilirdik ki, o, cənnət əhlindəndir. Yəməmə günü bizlər bir az geriləmişdik. Sabit bin Qeys bin Şəmmas tədarükünü görüb, kəfənini geyinərək gəlib dedi: “Dostlarınızı öyrəşdirdiyiniz necə də pisdir!”. Sonra o düşmənlərə qarşı vuruşdu və şəhid oldu.[66]

---

[65] əl-Hucurat surəsi, 2.

[66] Hədisi Əhməd (12422) rəvayət etmişdir və buradakı mətn ona məxsusdur. Həmçinin, hədisi müxtəsər şəkildə Buxari (4565) və Muslim (119) də rəvayət etmişlər.

# 4 – Cəfər bin Əbu Talib ﵁

O, Peyğəmbərin ﷺ əmisi oğlu Cəfər bin Əbu Talib bin Əbdul-Muttalib bin Haşim bin Abdu Manaf bin Qusey, Əbu Abdullahdır. Görkəmli səhabə olan Cəfər *Zul-cənəheyn* (yəni ikiqanadlı) ləqəbini daşıyırdı. İslamı ilk əvvəl qəbul edənlərdən olan Cəfər Əlinin doğma qardaşı idi. Peyğəmbər ﷺ onunla Müaz bin Cəbəli qardaş etmişdi.

Əbu Hureyra ﵁ deyərdi: "Cəfər kasıblara əl tutmaqda insanların ən yaxşısı idi".[67]

Həmçinin Əbu Hureyra ﵁ demişdir: "Allahın Elçisindən ﷺ sonra Cəfər bin Əbu Talibdən ﵁ daha fəzilətli ayaqqabı geyinən, minik üzərində oturan, torpağa ayaq basan kəs olmamışdır".[68]

Peyğəmbər ﷺ ona belə demişdir: "Yaradılış və əxlaq baxımından mənə çox oxşayırsan".[69]

O, Həbəşistana hicrət etmiş, Nəcaşi və tərəfdarları onun vasitəsilə İslamı qəbul etmişlər. Cəfər də bir müddət onun yanında qalmış, sonra Mədinəyə hicrət

---

[67] Hədisi Buxari (3505) rəvayət etmişdir.

[68] Hədisi Əhməd (9342), Tirmizi (3764) və Nəsai "əl-Kubra" əsərində (8157) rəvayət etmişlər. Tirmizi demişdir: – Bu hədis Həsən səhih ğaribdir.

[69] Hədisi Buxari (2698) və Tirmizi (3769) Bəradan rəvayət etmişlər.

etmişdi. Həmin vaxt Peyğəmbər ﷺ Xeybərdə idi. Bütün bu deyilənlər döyüşlərlə bağlı əsərlərdə müxtəlif səhih rəvayətlərlə varid olmuşdur.

Rəvayət olunur ki, Abdullah ibn Cəfər ؓ demişdir: “Mən Əlidən bir şey istərkən istədiyimi mənə vermədikdə, ona deyərdim ki, Cəfərin xətrinə ver, o da verərdi”.[70]

Cəfər Peyğəmbərin ﷺ sağlığında, hicrətin səkkizinci ilinin Cəmədəl-ulə ayında Şam torpaqlarında Mutə döyüşündə Rumlulara qarşı qəhrəmancasına döyüşərək şəhid olmuşdur. O, Əlidən on yaş böyük idi və səhih mənbələrə görə qırx yaşını haqlamışdı.

Təbərani Nafidən, o da İbn Ömərdən ؓ rəvayət edir ki, o demişdir: “Mən həmin döyüşdə onlarla birlikdə idim. Birdən qarşımıza Cəfər çıxdı. Biz onun bədənində doxsandan artıq ox və nizə yarası saydıq”.[71]

Peyğəmbər ﷺ demişdir: “Mən Cəfərin Cənnətdə mələklərlə birlikdə uçduğunun şahidi oldum”.[72]

Buxarinin “Səhih” əsərində İbn Ömərdən ؓ rəvayət olunur ki, o, Abdullah bin Cəfərə salam

---

[70] Hədisi İmam Əhməd “Fədail əs-sahəbə” əsərində (2/1142), Təbərani “əl-Kəbir” əsərində (2/109) rəvayət etmişlər. Hədisin isnadında zəif ravi hesab olunan Mucalid bin Səidin adı keçir.

[71] “əl-Mucəm əl-kəbir” (2/106).

[72] Hədisi Tirmizi (5/654) rəvayət etmişdir.

verdikdə deyərdi: “Sənə salam olsun, ey ikiqanadlının oğlu”.[73]

Aişə ﷺ demişdir: “Cəfər vəfat etdikdə biz Peyğəmbərin ﷺ üzündəki kədəri hiss etdik”.[74]

Həssan bin Sabitə Abdullah bin Ravahanın ölüm xəbəri gəlib çatdıqda belə bir qəsidə oxumuşdu:

*Ən xeyirli möminlərin gəlişini gördüm,*
*Gəlməyənlərə baxıb çox kədərləndim.*
*Mutədən gələn ölüləri Allah uzaqlaşdırmasın,*
*Aralarında İki qanadlı Cəfər də vardır.*
*Həmçinin Zeyd və Abdullah da ardıcıl,*
*Birlikdə eyni məqsədlə vəfat etdilər.*
*Biz Cəfərə baxıb Muhəmmədi görürdük,*
*Vəfa və əmr etdikdə xüsusən belə idi.*
*İslamda hələ də Haşim ailəsindən olanlar var,*
*İzzət dayaqları hər zaman olacaqdır.*

O, hicrətin səkkizinci ilində Mutə döyüşündə şəhid olmuşdur.[75]

---

[73] Hədisi Buxari (3506) və Nəsai “əl-Kubra” əsərində (5/47) rəvayət etmişlər.

[74] Hədisi Təbərani “Mucəm əl-Kəbir” əsərində (2/1087) və Hakim (2/231) rəvayət etmişlər. Hakim demişdir: Bu hədis Muslimin şərtinə uyğundur, lakin Buxari və Muslim onu nəql etməmişlər.

[75] Bax: “əl-İsabə” (1/485).

Onun Cənnətlə müjdələnməsi xəbəri Əbu Hureyranın ﵁, İbn Abbasın ﵁ və Əli əl-Hilalinin mürsəl hədislərindən gəlmişdir. Bu məqamda Əbu Hureyra və İbn Abbasdan gələn rəvayətlərlə kifayətlənirəm:

1. Abdur-Rahmən bin Yaqub Əbu Hureyranın ﵁ belə dediyini rəvayət etmişdir: "Allahın Elçisi ﷺ demişdir: "Mən Cənnətdə Cəfərin mələklərlə birlikdə uçduğunu gördüm". Başqa bir rəvayətdə isə deyilir: "Mənə Cəfərin Cənnətdə iki qanadı ilə birlikdə uçduğu göstərildi".

Hədisi Tirmizi (5/654) rəvayət edərək demişdir: "Əli bin Həcər bizə demişdir ki, Abdullah bin Cəfər bizə əl-Əla bin Abdur-Rahməndən, o da atasından, o da Əbu Hureyradan ﵁ rəvayət edir ki, Allahın Elçisi ﷺ demişdir: "Mən Cəfərin Cənnətdə mələklərlə birlikdə uçduğunu gördüm". Bu hədisin isnadı Abdullah bin Cəfərə görə zəifdir".

Tirmizi həmçinin demişdir: "Əbu Hureyradan ﵁ nəql olunmuş bu hədis ğaribdir və o, yalnız Abdullah bin Cəfərdən nəql olunmuşdur ki, onu da Yəhya bin Məin və başqaları zəif hesab etmişlər. Abdullah bin Cəfər Yəhya bin əl-Mədininin atasıdır".

Həmçinin bu mövzuda İbn Abbasdan ﵁ nəql olunmuş hədis də vardır. Tirmizinin işarə etdiyi bu hədisi Təbərani (1466) rəvayət etmişdir.

2. İbn Abbasdan ﷺ rəvayət olunur ki, Allahın Elçisi ﷺ demişdir: "Mən dünən Cənnətə daxil oldum, oraya nəzər saldım və gördüm ki, Cəfər orada mələklərlə birlikdə uçur." Başqa bir rəvayətdə isə deyilir: "Mən Cəfər bin Əbu Talibin ﷺ mələk kimi iki qanadı ilə ayaqları kəsilmiş və qanlı halda Cənnətdə istədiyi yerə uçduğunu gördüm".[76]

[76] Hədisi Təbərani "əl-Kəbir" əsərində (1448, 1449) və Əbu Nueym "Mərifətus-sahəbə" əsərində (1339) İbn Abbasdan rəvayət etmişlər. əl-Heysəmi "əl-Məcmə" əsərində (9/443) demişdir: "Hədisi Təbərani iki isnadla nəlq etmişdir ki, onlardan da biri həsəndir".

## 5 – Harisə bin Suraqa ﷺ

O, Harisə bin Suraqa bin əl-Haris bin Udey bin Malik bin Amir bin Ğanəm bin Udey bin ən-Nəccar əl-Ənsari ən-Nəccaridir. Anası Rabi bint ən-Nadr Ənəs bin Malikin bibisidir.

O, Bədr döyüşündə şəhid olmuşdur. Onu Hibban bin əl-Urqa hovuzda su içərkən oxla vuraraq qətlə yetirmişdir. Bədr döyüşünə o, kəşfiyyat məqsədilə çıxmış və onu orada oxla boğazından vurmuşdular. Harisə Bədr döyüşündə ənsarlardan ilk şəhid olan kəs idi və onun övladı yox idi.

Allahın Elçisi ﷺ onu Saib bin Osman bin Məzun əl-Cuməhi ilə qardaş etmişdi.[77]

Onun Cənnətlə müjdələnməsi xəbəri Ənəs bin Malikdən ﷺ nəql olunmuşdur. Buxari öz "Səhih" əsərində (2654), İmam Əhməd "Müsnəd" əsərində (21/280) və Tirmizi (5/327) Qatədədən, Ənəs bin Malikdən rəvayət etmişlər ki, Harisə bin Suraqanın anası Ummu Rabi bint əl-Bəra Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ey Allahın Elçisi! Mənə Harisə barədə xəbər verərsənmi? Bədr döyüşündə oxla vurulub – əgər Cənnətdədirsə, mən səbir edim, yox əgər

[77] İbn Səadın "ət-Tabaqat" əsəri (3/510); "əl-İstiab" (1/91); "Siyar əlam ən-nubəla" (1/163); "əl-İsabə" (1/614).

belə deyilsə, bol-bol ağlayım". Peyğəmbər ﷺ dedi: "Ey Ummu Harisə, Cənnətdədir, sənin oğlun Firdovs əl-Əladadır.

Tirmizi əlavə etmişdir: "Firdovs, Cənnətin ən ortası və ən fəzilətli yeridir". Bunu həmçinin Əhməd də Qatədənin sözü kimi rəvayət etmişdir.

## 6 – Hüzeyfə bin əl-Yəmən رضي الله عنه

O, böyük səhabələrdən olan Hüzeyfə bin əl-Yəmən əl-Əbsidir. Atasının adı Hüseyl və ya Həsəl ibn Cabir bin Əbəsdir və o, əl-Yəmən əl-Əbsi kimi məşhurdur.

Atası adam öldürdüyü üçün Mədinəyə qaçaraq orada Bənu Abdul-Əşhəl qəbiləsinə qoşulur. Qövmü də Yəmanilərlə saziş bağladığı üçün onu əl-Yəman adlandırmışdır. Hüzeyfənin anası ilə evləndi və Hüzeyfə Mədinədə dünyaya gəldi. Hüzeyfə və atası İslamı qəbul edərək Bədr döyüşündə iştirak etmək istədilər, ancaq müşriklər buna mane oldular. Yəman Uhud döyüşündə iştirak etdi və orada şəhid oldu.

Hüzeyfə رضي الله عنه Peyğəmbərdən ﷺ bir çox hədislər rəvayət etmişdir.

əl-Acəli demişdir: "Xəlifə Ömər ona əl-Mədaində vəzifə vermişdi. O da hicrətin otuz altıncı ilində, Osmanın qətlindən qırx gün sonra vəfat edənədək orada qalır".[78]

Hüzeyfə İraqın fəthində iştirak etmiş və bu barədə ondan bir sıra rəvayətlər nəql olunmuşdur.[79]

---

[78] Bax: "əs-Siqat" (1/289).

[79] "əl-İsabə" (2/44), ixtisarla.

O, Allahın Elçisinin ﷺ böyük səhabələrindən idi. Xeybər günü Peyğəmbər ﷺ məhz onu qureyşlilərin yanına göndərmişdi ki, onlar barədə məlumat gətirsin. Ömər bin Xəttab ؓ da ondan münafiqlər barədə soruşmuşdu.

Hüzeyfə ؓ Allah Elçisinin ﷺ sirr sahibi kimi də tanınırdı. Birisi öldükdə Ömər ؓ diqqət edərdi ki, Hüzeyfə ؓ həmin adamın cənazəsində iştirak edir, yoxsa yox – əgər o iştirak etməzdisə, Ömər də iştirak etməzdi. Həmçinin o, Abdul-Əşhəl oğulları ilə saziş bağlamışdı. Hüzeyfə Nahavand döyüşündə də iştirak etmişdi. Noman bin Muqrin şəhid edildikdə, bayrağı o götürmüşdü. Həmədanın, Reyyin, Deynurun fəthi də onun əli ilə baş vermişdi. Onun fəthlərinin çoxu hicrətin 22-ci ilində baş vermişdir.[80]

Ömər ؓ öz dostlarına demişdir: "Təmənna edin!" Onlar da Allah yolunda xərcləmək üçün olduqları ev miqdarında cəvahirat təmənna etdilər. Ömər ؓ dedi: "Mən isə Əbu Ubeydə, Müaz bin Cəbəl və Hüzeyfə kimi kişilər təmənna edirəm ki, Allah yolunda onlara işlər tapşırım".[81]

Hüzeyfə ؓ fitnələr və şər əməllər barədə Peyğəmbərə ﷺ çoxlu suallar verərdi ki, onlardan

80 "əl-İstiab" (1/99).
81 "Usd əl-Ğabə" (1/248).

qorunsun. Bir dəfə ondan soruşulduqda ki, hansı fitnələr daha şiddətlidir, o, demişdi: “Sənə xeyirlə şər bəyan edilsin, sən də hansının daha xeyirli olmasını bilməyəsən.[82]

Onun Cənnətlə müjdələnməsi haqqında xəbəri İmam Muslim “Səhih” əsərində rəvayət etmişdir. İbrahim ət-Teymi öz atasından onun belə dediyini rəvayət etmişdir: “Biz Hüzeyfənin ؓ yanında idik. Bir kişi dedi: “Əgər Allahın Elçisinin ﷺ vaxtına yetişsəydim, ölənədək onunla vuruşardım”. Hüzeyfə dedi: “Məgər sən bunu etmirdinmi? Əhzab gecəsi mən Allahın Elçisi ﷺ ilə birlikdə idim. Həmin vaxt güclü külək əsirdi. Allahın Elçisi ﷺ dedi: “Aranızdan kim gedib düşmən barədə bizə xəbər gətirsə, Allah onu Qiyamət günü mənimlə birlikdə edəcək”. Biz susduq. Sonra Peyğəmbər ﷺ yenə dedi: “Aranızdan kim gedib düşmən barədə bizə xəbər gətirsə, Allah onu Qiyamət günü mənimlə birlikdə edəcək”. Biz yenə susduq. Bizlərdən heç kim ona cavab vermədi. Sonra o ﷺ yenə dedi: “Aranızdan kim gedib düşmən barədə bizə xəbər gətirsə, Allah onu Qiyamət günü mənimlə birlikdə edəcək”. Biz yenə susduq və heç

---

[82] Bax: “əl-İstiab fi mərifətil-əshab” (1/99); “Təhzib əl-əsma” (1/215); “əl-İsabə” (2/44). Bu rəvayəti İbn Əbu Şeybə özünün “Musənnəf” əsərində (7/503) nəql etmişdir.

kim dillənmədi. Onda Allahın Elçisi ﷺ dedi: "Qalx, ey Hüzeyfə, get bizə düşmən barədə xəbər gətir". Mən də adım çəkildiyi üçün çarəsiz qalıb ayağa qalxdım. O dedi: "Get mənə qövmün xəbərlərini gətir, ancaq onları təlaşa salma". Mən onun yanından ayrıldıqda özümü elə apardım ki, sanki hamama gedirəm. Beləcə gəlib düşmənin yerinə yetişdim. Gördüm ki, Əbu Sufyan kürəyini oda verib qızınır. Mən ox götürüb yaya qoydum, istədim ki, atım, ancaq Allahın Elçisinin ﷺ "Onları təlaşa salma" sözünü xatırladım. Halbuki atsaydım, onu vurardım. Sonra da yenə elə gəzməyə başladım ki, sanki hamama gedirəm. Bir müddət sonra qayıdıb onlar barədə xəbərləri Allahın Elçisinə danışdım. O ﷺ da namaz qılarkən geyindiyi ən yaxşı əbalardan birini mənə geyindirdi. Beləcə gözümü yuxu tutdu və mən yatdım. Səhər açıldıqda o ﷺ mənə dedi: "Qalx, ay çox yatan".[83]

[83] "Səhih Muslim" (1788).

## 7 – Peyğəmbərin ﷺ nəvəsi Həsən bin Əli رضي الله عنه

O, möminlərin əmiri Həsən bin Əli bin Əbu Talib əl-Haşimi, Peyğəmbərin ﷺ reyhan qoxulu nəvəsi Əbu Muhəmməddir رضي الله عنه. O, onunla dostluq etmiş və ondan da öyrənmişdir. Anası Peyğəmbərin ﷺ qızı Fatimə رضي الله عنها, atası isə möminlərin əmiri Əli bin Əbu Talibdir. Həmçinin o, möminlərin anası Xədicənin رضي الله عنها nəvəsi və raşidi xəlifələrin beşincisidir.

Usamə bin Zeyd رضي الله عنه demişdir: "Peyğəmbər ﷺ məni və Həsən bin Əlini qucağına alıb deyərdi: "Allahım, mən bunları sevirəm, sən də onları sev".[84]

O, Peyğəmbərdən ﷺ hədislər əzbərləyib onları rəvayət etmişdir.

Buxarinin Əbu Muleykədən, onun da Uqbə bin Harisdən رضي الله عنه nəql etdiyi hədisdə o demişdir: "Əbu Bəkr bizə əsr namazını qıldırıb çölə çıxdı və gördü ki, Həsən bin Əli oynayır. Onu götürüb boynuna qaldıraraq gülə-gülə dedi: "Ay Əliyə deyil, Peyğəmbərə oxşayan."[85]

---

[84] Hədisi Əhməd (4/283 və 4/292), Buxari (3537), yenə Buxari "Ədəbul-mufrad"da (86) və Muslim (7/130) rəvayət etmişlər.

[85] Buxari (3349).

Həsən bin Əli ﵁ hicrətin 49-cu ilində qırx yeddi yaşında zəhərlənərək şəhid edilmişdir. Bəziləri onun hicrətin 50-ci ilində vəfat etdiyini də bildirmişlər.

O, həcc ziyarətinə piyada gedər və belə deyərdi: "Mən utanıram ki, Uca Allahla görüşdükdə Onun evinə piyada getmiş olmayım". O, iyirmi dəfə Mədinədən piyada ziyarətə getmişdi.[86]

Həsən ﵁ Uca Allah yolunda üç dəfə malını yarıya bölərək paylamışdı. Beləcə o, malının yarısını paylamışdı, hətta ayaqqabısının bir tayını sədəqə vermiş, digər yarısını saxlamışdı. İki dəfə isə öz malının hamısını sədəqə vermişdi.

O, olduqca mülayim və təqvalı birisi idi. O qədər təqvalı idi ki, dünyanı və xəlifəliyi Uca Allah yolunda tərk etmişdi. Həmçinin o, Osman ibn Əffanı ﵁ müdafiə etməyə tələsənlərdən biri idi.[87]

Atası Əlinin ﵁ qətlindən sonra xəlifə olmuşdu. Əli hicrətin qırxıncı ilində Ramazan ayının sonuna on üç gün qalmış qətlə yetirilmişdi. Atası Əliyə beyət etmiş qırx mindən artıq müsəlman Həsənə beyət edir. Təxminən yeddi ay müddətində Hicazın, Yəmənin, İraqın, Xorasanın və digər yerlərin Xəlifəsi olmuşdur. Sonra Müaviyə Şamdan onun üzərinə qoşun yeridir.

---

[86] Hilyətul-əvliya (2/37).

[87] Təhzib əl-əsma (1/220).

O da Müaviyənin üzərinə qoşunla çıxır. Qoşunlar bir-birinə yaxınlaşdıqda Həsən görür ki, qoşunlardan heç biri digərinin böyük bir hissəsini məhv etmədən qalib gələ bilməyəcək. Beləcə o, Müaviyəyə məktub yazaraq hakimiyyəti ona təslim etmək istəyini bildirir. Bir şərtlə ki, Müaviyədən sonra hakimiyyətə yenidən o gəlsin. Həmçinin Mədinə, Hicaz və İraq əhlindən atasının dövründə olduğundan artıq bir şey tələb olunmasın. Bunlardan əlavə bir neçə şərt də irəli sürür. Müaviyə də onun şərtləri ilə razılaşır və onlar arasında sülh sazişi bağlanır. Bununla Peyğəmbərin ﷺ Həsənlə bağlı dediyi möcüzə həyata keçmiş oldu. O demişdir: "Mənim bu oğlum alicənab bir şəxsiyyətdir. Allah onun vasitəsilə iki çoxsaylı müsəlman ordusunun arasında sülh bağlayacaq".[88]

Rəvayətə görə onlar hicrətin qırx birinci ilində Rabiul-əvvəl ayının sonuna beş gün qalmış sülh bağlamışlar. Digərləri bu hadisənin rabiul-əxir ayında baş verdiyini demişlər. Başqaları isə həmin ilin cəmədil-ulə ayının ortalarında baş verdiyini bildirmişlər. O, rəhbərliyi qardaşı Hüseynə vəsiyyət etmişdi. Allah onların hər ikisindən razı olsun.[89]

---

[88] Hədisi Əhməd (5/49), Buxari (2557), Əbu Davud (4662) və Nəsai (1410) rəvayət etmişlər.

[89] "Təhzib əl-əsma" (1/220).

Həsən ﷺ və qardaşı Hüseynin ﷺ Cənnətlə müjdələnməsi barədə tutarlı dəlillər varid olmuşdur. Hətta "Nuzum əl-mutənəsir" əsərində (196) deyildiyi kimi, bu dəlillər on yeddi səhabədən nəql olunmaqla *mütəvatir* dərəcəsinə qalxmışdır. Mən də həmin rəvayətləri araşdırakən gördüm ki, bu xəbər aşağıdakı on səkkiz səhabə və bir tabiindən nəql olunmuşdur: Əbu Səid əl-Xudri, Hüzeyfə, Ömər ibn əl-Xəttab, İbn Ömər, Əbu Hureyra, Cəhm, Əli ibn Əbu Talib, Abdullah ibn Məsud, Müaviyə ibn Qurra öz atasından, Usamə ibn Zeyd, Hüseyn ibn Əli, Bəra ibn Azib, Cabir ibn Abdullah, Bureydə ibn əl-Hasib, Ənəs ibn Malik, Əbu Ramsə, Əli əl-Hilali və Muslim ibn Yəsar (*mürsəl* olaraq). Mən burada Əbu Səiddən nəql olunanla kifayətlənəcəm:

Abdur-Rahmən ibn Əbu Nəam Əbu Səid əl-Xudridən ﷺ onun belə dediyini rəvayət etmişdir: Allahın Elçisi ﷺ demişdir: "Həsənlə Hüseyn Cənnətdəki gənclərin rəhbərləridir, Fatimə ﷺ isə qadınlarının rəhbəridir – yalnız Məryəm bint İmran istisnadır".[90]

[90] Hədisi Əhməd (1102), Nəsai "əl-Kubra" əsərində (8525), Əbu Nuaym "Tarixi İsbahan" əsərində (2021), Təbərani "əl-Kəbir" əsərində (3/38) Tariq ibn Yezid Mərdaniyyə İbn Əbu Nəamdan rəvayət etmişlər. Yenə bu hədisi Əhməd (11612), Tirmizi (5/565), Nəsai "əl-Kubra" əsərində (8526) Yezid ibn Əbu Zəyyaddan, o da İbn Əbu Nəamdan rəvayət etmişlər. Bu hədis bir sıra başqa isnadlarla da İbn Əbu Nəamdan, o da Əbu Səiddən nəql olunmuşdur.

## 8 – Peyğəmbərin ﷺ nəvəsi Hüseyn ibn Əli ؓ

O, İmam, şəhidlərin seyyidi Hüseyn ibn Əli ibn Əbu Talib əl-Haşimidir – Peyğəmbərin ﷺ reyhan qoxulu nəvəsi Mədinəli Əbu Abdullahdır ؓ. O və qardaşı Həsən Cənnət cavanlarının rəhbərləridir. Onun fəzilətlərindən bəzilərini qardaşı Həsən ibn Əlinin tərcümeyi-halında qeyd etmişik.

Cəfər ibn Muhəmməd demişdir: "Həsənin doğuluşu ilə Hüseynə hamilə qalma arasında bircə ay olmuşdur".[91]

Tirmizi həsən isnadla Yəalə bin Murradan rəvayət edərək demişdir: "Allahın Elçisi ﷺ demişdir: – Hüseyn məndəndir, mən də Hüseyndənəm. Hüseyni sevəni Allah da sevər, Hüseyn nəvələrdən biridir".[92]

Zubeyr bin Bəkkar demişdir ki, mənə Musab ؓ demişdir: "Hüseyn piyada iyirmi beş dəfə həccə getmişdi".[93] Dedilər: "Hüseyn fəzilətli bir insan idi,

---

[91] "Usd əl-ğabə" (1/264).

[92] Hədisi Əhməd (17704), Tirmizi (3775) və İbn Macə (144) rəvayət etmişlər. əl-Buveysiri "Misbah əz-zucəcə" əsərində (1/22) demişdir: "Bunun isnadı həsəndir, raviləri də etibarlıdır".

[93] Hədisi Təbərani "Mucəm əl-kəbir" əsərində (2844) rəvayət etmişdir. Heysəmi "Məcmə əz-zəvaid" əsərində (9/135) demişdir: "Təbərani bu hədisi kəsik isnadla rəvayət etmişdir".

çoxlu namaz qılar, oruc tutar, həcc edər, sədəqə verər və bütün xeyirli işləri görərdi".

Hüseyn ﵁ cümə günü qətlə yetirilmişdi. Başqa bir deyimə görə şənbə günü aşura günü İraqda Kərbəla adlanan yerdə qətlə yetirilmişdi. İnsanlar ona görə böyük kədərə sarılmış, çoxlu mərsiyələr demişlər.

Hüseynin ﵁ övladları bunlardır: Əli əl-Əkbər, Əli əl-Əsğər, Fatimə və Səkinə. Allah onlardan razı olsun.

Hafiz demişdir: "Keçmiş alimlərdən Hüseynin ölümü ilə bağlı saysız-hesabsız səhih və zəif əsərlər qələmə alınmışdır. O, hicrətin altmış birinci ilində əlli doqquz yaşında şəhid edilmişdir".[94]

Onun və qardaşı Həsənin ﵁ Cənnətlə müjdələnməsi barədə varid olmuş hədislər mütəvatirdir və bu qardaşı Həsən bin Əlinin ﵁ tərcümeyi-halında öz əksini tapmışdır.

[94] "Təhzib əl-əsma" (1/228), "əl-İsabə" (2/76).

## 9 – Zəkvan ibn Abdu Qeys əl-Ənsari əl-Xəzrəci ﷺ

O, Zəkvan ibn Abdu Qeys ibn Xildə Zuş-şəmələyn əl-Ənsari əz-Zərqidir. Ləqəbi Əbus-səbdir ﷺ. Hər iki Əqəbə beyətində iştirak etmişdir. Sonra o, Mədinədən çıxaraq Allahın Elçisinin ﷺ yanına gəlmiş və onunla Məkkədə qalmışdır. Ona mühacir-ənsar deyilirdi. Bədr döyüşündə iştirak etmiş, Uhud döyüşündə isə şəhid olmuşdur. Onu Əbul-Həkəm ibn əl-Əxnəs ibn Şəriq qətlə yetirmişdi. Bu vaxt Əli ibn Əbu Talib Əbul-Həkəm ibn əl-Əxnəs ibn Şəriq yəhərdə ikən ona hücum edib qılıncla onun ayağını budunun ortasından kəsmişdi. Sonra da atdan yerə yıxaraq onu qətlə yetirmişdi. Bu hadisə hicrətdən on iki ay sonra, şəvval ayında baş vermişdi. Zəkvanın övladı yox idi.[95]

İbn Hişam demişdir: "Onun adı Umeyrdir və solaxay olduğu üçün ona Zuş-şəmələyn də deyərdilər".

Onun Cənnətlə müjdələnməsi barədə bir hədis vardır:

Asim ibn Ömər ibn Cəfər əl-Umari Suheyl ibn Əbu Salehdən rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Uhud günü [döyüşə] çıxdıqda soruşdu: "Bu [yerdə] boşluğu doldurmaqdan ötrü kim əvəzləyici olar?" Bu vaxt ənsarların Zureyq oğullarından Zəkvan ibn Abdu

[95] İbn Sədin "Tabaqat" əsərindən ixtisarla (3/593).

Qeys Əbus-Səb adlı birisi qalxıb dedi: “Mən”. Dedi: “Sən kimsən?” Dedi: “İbn Abdu Qeysəm”. Dedi: “Əyləş”. Sonra Zəkvanı çağırıb yenə soruşdu: “Sən kimsən?” Dedi: “Mən Əbus-Səbəm”. Dedi: “Filan yerdə olarsan”. Zəkvan dedi: “Ey Allahın Elçisi, bu mənəm və orada müşrik cəsuslarının ola bilməsindən arxayın deyilik”. Allahın Elçisi ﷺ dedi: “Kim sabah Cənnətin yaşıllığına ayaq basacaq kəsi görmək istəyirsə, buna baxsın”. Zəkvan ailəsinin yanına gedərək onlarla vidalaşdı. Onun xanımları onun ətəyindən dartıb dedilər: “Ey Əbus-Səb, bizi qoyub gedirsən?” Bu zaman onun hətta libası da cırıldı. Onlardan uzaqlaşdıqda onlara tərəf çevrilib dedi: “Qiyamət günü görüşərik”. Sonra da şəhid oldu.[96]

---

[96] Hədisi İbn əl-Mübarək “Cihad” babında (1/46, 151 saylı hədis), Əbu Nueym İbn əl Mübarəkdən “Mərifətus-sahəbə” əsərində (7/328) və Hafiz “əl-İsabə” əsərində (2/405) rəvayət etmişlər. Hədis *mürsəldir* və mürsəl isnadlarla nəql olunmuşdur, çünki Suheyl ibn Əbu Saleh tabiindir, lakin Zəkvan Uhud döyüşündə şəhid olmuşdur.

Əbu Nueym “əl-Mərifətus-sahəbə” əsərində (7/327) İbn Şihab əz-Zuhridən və Urvadan Uhud şəhidləri arasında Zəkvanın da adını qeyd etdiklərini rəvayət etmişdir.

## 10 – Zeyd ibn Harisə ﵁

O, Zeyd ibn Harisə ibn Şərahil əl-Kəlbidir ﵁. Allah Elçisinin ﷺ köləlikdən azad etdiyi Əbu Usamə ləqəbli möhtərəm səhabədir. İslamı ilk əvvəl qəbul edənlərdəndir.

İbn Səad demişdir: "Anası Taydan olan Sədi bint Sələbədir". İbn Ömər demişdir: Biz **"Onları atalarının adı ilə çağırın"** ayəsi nazil olanadək Zeyd ibn Harisəyə Zeyd ibn Muhəmməd deyirdik.[97]

Kəlbi rəvayət edir ki, Cəmil ibn Mirsəd ət-Tai və başqaları demişlər: "Bir dəfə Sədi Ummu Zeyd ibn Harisə oğlu Zeydlə birlikdə öz qövmünü ziyarət etmişdi. Cahiliyyət dövründə Bənul-Qayn ibn Cisrin atlarına basqın edilir. Mən qəbiləsinin məskənlərində cavan Zeydi tapıb Ukaz bazarında satışa çıxarırlar. Həkim ibn Hizam da onu dörd yüz dirhəmə bibisi Xədicə üçün alır. Allahın Elçisi ﷺ onunla evləndikdə Xədicə ﵂ onu Allahın Elçisinə ﷺ hədiyyə edir. Bir müddət sonra Kəlb oğullarından bəziləri həcc ziyarəti edərkən Zeydi görüb tanıyırlar, o da onları tanıyır. Onlar gedib Zeydin atasına bu barədə xəbər verərək onun yerini vəsf edirlər. Harisə ilə qardaşı Kəb onun

[97] Hədisi Əhməd (5479), Buxari (4504), Muslim (7/130) və Tirmizi (3209, 3814) rəvayət etmişlər.

üçün yola çıxırlar. Onlar Məkkəyə çatıb Peyğəmbəri ﷺ soraqladıqda dedilər ki, o, məsciddədir. Onlar onun yanına daxil olub dedilər: "Ey Əbdul-Muttalibin oğlu, ey qövmünün rəhbərinin oğlu! Siz Allahın toxunulmaz məkanının əhlisiniz – yardım istəyənə yardım edir, əsirə yemək verirsiniz. Biz sənə kölə olan övladımızdan ötrü sənin yanına gəlmişik. Bizə yardım et, fidyə qarşılığında onu bizə ver, biz də sənə qaldırılarıq". Dedi: "Kimdir o?" Dedi: "Zeyd ibn Harisə". Dedi: "Başqa bir istəyiniz varmı? Onu çağırın seçim etsin. Əgər sizi seçmiş olsa, o fidyəsiz sizin olsun. Yox, əgər məni seçsə, vallahi ki, məni seçən birisini fidyə ilə sizə vermərəm". Dedilər: "Bizə müəyyən olunmuş miqdarın yarısı qədər də artırdın". Sonra onu çağırıb dedi: "Bunları tanıyırsanmı?" Dedi: "Bəli, bu mənim atam, o biri isə əmimdir". Dedi: "Mənim sənə olan münasibətimi bilirsən, indi mənimlə onlar arasında bir seçim et". Zeyd dedi: "Mən səndən başqasını seçmərəm, sən mənim üçün ata və əmi kimisən". Onlar dedilər: "Vay səni halına, ey Zeyd, sən köləliyi azadlığa, atana, əminə və əhlinə tərcih edirsən?!" Dedi: "Bəli, mən bu kişidən elə şeylər görmüşəm ki, başqasını ona tərcih edə bilmərəm". Allahın Elçisi bunu gördükdə onu otaqdan çıxarıb dedi: "Şahid olun ki, Zeyd mənim oğlum və mənim

varisimdir". Atası və əmisi də bunu görüncə, nəfslərində bir rahatlıq tapıb getdilər. Uca Allah İslam dinini bərqərar edənədək ona Zeyd ibn Muhəmməd dedilər".[98]

Sələmə ibn əl-Əkva demişdir: "Mən Peyğəmbər ﷺ ilə birlikdə yeddi döyüşdə, Zeyd ibn Harisə رضي الله عنه ilə birlikdə də yeddi döyüşdə iştirak etdim – [hər dəfə də] Allahın Elçisi ﷺ onu bizə əmir təyin edərdi".[99]

---

[98] Hədisi İbn Səd "ət-Tabaqat əl-kubra" əsərində (3/42) rəvayət edərək demişdir: "Bütün bunları bizə Hişam ibn Muhəmməd ibn əs-Saib əl-Kəlbi öz atasından, o da Cəmil ibn Mirsad ət-Taidən və başqalarından nəql etmişdir". Bu hədisin bir hissəsi atasından, Əbu Salehdən, İbn Abbasdan nəlq olunmuşdur. Hədisin davamında Zeyd ibn Harisənin Zeynəb bint Cəhşlə izdivacı da qeyd olunur.

[99] Hədisi Buxari öz "Səhih"ində (4272) Sələmə ibn əl-Əkvadan nəql edərək demişdir: "Mən həm Peyğəmbərlə ﷺ birlikdə yeddi döyüşdə, həm də onun ﷺ İbn Harisi bizə əmir təyin etdiyi yeddi döyüşdə iştirak etmişəm". Hafiz burada hədisi Buxariyə nisbət etmiş olsa da, "Fəth əl-Bari" əsərində (7/498) bunun təfsilatına vararaq Buxarinin rəvayətinə əlavə olaraq demişdir: "Beləcə o, hədisi məchul şəkildə rəvayət etmişdir. Hədisi Əbu Muslim əl-Kəcci Əbu Asimdən belə nəql etmişdir: – Mən Peyğəmbərin ﷺ İbn Harisi bizə əmir təyin etdiyi yeddi döyüşdə iştirak etmişəm. Həmçinin hədisi Təbərani Əbu Muslimdən bu ləfzlə nəql etmişdir. Həmçinin hədisi Əbu Nueym "əl-Mustəxrac" əsərində Əbu Şueyb əl-Hərranidən və Əbu Asimdən rəvayət etmişdir. Həmçinin hədisi əl-İsmaili Əbu Asimdən nəlq etmişdir. Zeyd ibn Harisənin döyüşləri barəsində yazılmış əsərlərlə tanış olub gördüm ki, onların sayı Sələmənin dediyi kimi yeddidir". Hafizin sözü burada bitir. Hafizin işarə etdiyi

Sələmə ibn əl-Əkva demişdir: “Mən Peyğəmbər ﷺ ilə birlikdə yeddi döyüşdə oldum. Həmçinin onun İbn Harisi bizə əmir təyin etdiyi yeddi döyüşdə də iştirak etmişəm”.

Muhəmməd ibn Usəmə ibn Zeyd atasından rəvayət edərək demişdir ki, Allahın Elçisi ﷺ Zeyd ibn Harisəyə belə demişdir: “Ey Zeyd sən mənim azad etdiyimsən, məndənsən, mənim üçünsən və mənə görə ən sevimli birisisən”.[100]

İbn Ömər demişdir: “Allahın Elçisi ﷺ demişdir: – Vallahi ki, istər əmir, istərsə də ən sevimli insan mənim üçün Usamə ibn Zeyddir”.[101]

Yenə rəvayət olunur ki, İbn Ömər ؓ demişdir: “Bir dəfə Ömər Usaməyə məndən çox pay ayırdı. Ondan bu barədə soruşduqda, o dedi: “O, Peyğəmbərə ﷺ səndən daha sevimli idi, onun atası də sənin atandan Peyğəmbərə ﷺ daha sevimli idi”.[102]

---

Təbəraninin rəvayətinə gəlincə, o “Mucəm əl-kəbir” əsərində (7/30) 6282 saylı hədisdə nəql edilmişdir.

[100] Hədisi İbn Səd “ət-Tabaqat əl-kubra” əsərində (3/44) rəvayət etmişdir. İbn Həcər “əl-İsabə” əsərində (2/601) demişdir: Hədisi İbn Səd həsən isnadla nəlq etmişdir.

[101] Hədisi Buxari (3524) və Muslim (2426) rəvayət etmişlər.

[102] Hədisi Tirmizi (3813) rəvayət etmiş və demişdir ki, bu hədis həsən ğaribdir. Onun ləfzi belədir: “Zeyd ibn Əsləm atasından, o da Ömərdən rəvayət edərək demişdir: “Usaməyə üç min beş yüz,

O, hicrətin səkkizinci ilində Mutə döyüşündə, Peyğəmbərin ﷺ sağlığında, əlli beş yaşında şəhid olmuşdur.[103] Onun Cənnətlə müjdələnməsi barədə hədislər Əbu Qatədədən, İbn Abbasdan, Bureydədən, Muhəmməd ibn Ömər ibn Əlidən mürsəl olaraq nəlq olunmuşdur. Bu məqamda Əbu Qatədənin hədisi ilə kifayətlənəcəyəm.

Abdullah ibn Rabəh ؓ demişdir ki, Peyğəmbərin ﷺ süvarisi Əbu Qatədə demişdir: “Peyğəmbər ﷺ əmir təyin edib ordu göndərkən dedi: “Zeyd ibn Harisəyə diqqət edin. Əgər Zeydə bir şey olsa, Cəfər, Cəfərə bir şey olsa, Abdullah ibn Ravaha əl-Ənsari rəhbər olsun”. Bunu eşidən Cəfər yerindən sıçrayaraq dedi: “Atam-anam sənə fəda olsun, ey Allahın Elçisi, Zeydi məndən öncə təyin edəcəyindən qorxmurdum”. Dedi: “Gedin, sən bilmirsən ki, onların hansı daha fəzilətlidir”. Dedi: Ordu getdi. Bir müddətdən sonra Allahın Elçisi ﷺ minbərə qalxıb əmr etdi ki, insanlar camaat

---

Abdullah ibn Ömərə isə üç min ayrılmışdı. Abdullah ibn Ömər atasına dedi: – Nə üçün Usaməni məndən üstün tutdun? Vallahi ki, axı heç bir hadisədə məndən daha artıq iştirak etməyib? O dedi: – Çünki Zeyd Peyğəmbər üçün sənin atandan daha sevimli idi. Həmçinin Usamə də Peyğəmbərə səndən daha sevimli idi. Ona görə də Allahın Elçisinin sevgisini öz sevgimdən üstün tutdum”. Hafiz “əl-İsabə” əsərində hədisin səhih olduğunu bildirmişdir (2/601).

[103] “əl-isabə” (2/598).

namazına çağırılsın. Sonra o ﷺ dedi: "Xəbər gəldi! Sizə ordunuzun halı barədə xəbər verimmi? Onlar gedib düşmənlə qarşılaşdılar. Zeyd şəhid oldu, onun üçün bağışlanma diləyin!". İnsanlar da onun üçün bağışlanma dilədilər. [Peyğəmbər ﷺ sözünə belə davam etdi:] "Sonra bayrağı Cəfər ibn Əbu Talib əlinə aldı. İnsanlar ona hücum etdilər və o da şəhid oldu. Onun şəhid olmasına şahidlik edirəm. Onun üçün bağşışlanma diləyin! Sonra bayrağı Abdullah ibn Ravaha əlinə aldı. Şəhid olanadək ayaqlarını sabit saxladı. Onun üçün də bağışlanma diləyin! Sonra bayrağı Xalid ibn Valid əlinə aldı. O, əmirlərdən biri deyildi – o, özü özünü əmir seçdi". Sonra Allahın Elçisi ﷺ iki barmağını yuxarı qaldıraraq dedi: "Allahım! O, sənin qılınclarından biridir, ona yardım et!" Abdur-Rahmən bu yerdə dedi: – O, qələbə çaldı və həmin gündən Xalid Allahın qılıncı adlandırıldı. Sonra Allahın Elçisi ﷺ dedi: "Gedin, qardaşlarınıza yardım edin, heç kim qalmasın". İnsanlar da qızmar hava şəraitində kimisi miniklə, kimisi də piyada döyüş meydanına getdilər".[104]

---

[104] Hədisi Əhməd (22604 və 22619), Nəsai "əl-Kubra" əsərində (8249), İbn Əbu Şeybə "əl-Musənnəf"də (36966), Darimi (2448, müxtəsər şəkildə), İbn Hibban (7048) və başqaları əl-Əsvəd ibn

## 11 – Səd ibn Müaz ﵁

O, Ovs qəbiləsinin rəhbəri Səd ibn Müaz ibn Noman əl-Ənsari əl-Əşhəli Əbu Amrdır. Anası Kəbşə bint Rafi səhabə qadındır.

O, Peyğəmbər ﷺ Musab ibn Umeyri ﵁ müsəlmanları öyrətmək üçün Mədinəyə göndərdikdə, onun vasitəsilə İslamı qəbul etmişdi. İslamı qəbul edincə Abdul-əşhəl oğullarına dedi: "İslamı qəbul edənədək kişilərinizin və qadınlarınızın sözləri mənə haramdır". Onlar da İslamı qəbul etdilər.[105]

O, İslamda ən çox bərəkəti olan kəslərdən biri idi. Yekdil rəyə görə Bədr döyüşündə iştirak etmişdir. Həmçinin Uhud və Xəndək döyüşlərində də iştirak etmişdir.[106]

Buxari və Muslimdən rəvayət olunur ki, Əbu Səid əl-Xudri ﵁ demişdir: "Bir dəfə Allahın Elçisi ﷺ

---

Şeybandan, Xalid Sumeyrdən rəvayət edərək demişdir: "Abdullah ibn Rabəh bizim yanımıza gəldi..." Sonra hədisi zikr etdi.

əl-Heysəmi "əl-Məcmə" əsərində (6/150) demişdir: "Etibarlı ravi olan Xalid ibn Sumeyrdən başqa digər ravilər "Səhih" əsərinin raviləridir".

Xalid ibn Sumeyri Nəsai etibarlı saymışdır. Bax: "əl-Kaşif" (1328), İbn Hibban "əs-Siqat" əsərində (8/129) onu qeyd etmişdir.

105 "Siratu İbn Hişam" (1/435).

106 "Usd əl-ğabə" (1/422).

Səd ibn Müazın ﷺ yanına adam göndərir ki, gəlib Qureyza barəsində hökm versin. O da uzunqulağını minib gəlir. Yaxınlaşdıqda Peyğəmbər ﷺ dedi: "Rəhbəriniz üçün alın", yaxud belə dedi: "Aranızdakı ən xeyirliniz və ən yaxşı hökm verəninizdir". Dedi: "Onlar barədə hökm verirəm ki, onlar qətlə yetirilsin və qadınları da kəniz edilsin". Allahın Elçisi ﷺ dedi: "Padşah hökmü kimi bir hökm verdin".[107]

Cabir ﷺ demişdir: "Əhzab günü Səd ibn Müaz vuruldu və qolunun damarı kəsildi. Allahın Elçisi ﷺ odla onun qanaxmasını durdurmağa çalışdı. Sonra onun əli şişdi və qanaxma yenidən davam etdi. Bunu gördükdə o dedi: "Allahım, Qureyza oğulları barədə mən arxayın olmadıqca, canımı alma". Sonra o, qolunu əli ilə sıxdı və beləcə qanaxmanı durdurdu. Qureyza oğulları barəsində də hökm verir ki, kişiləri qətlə yetirilsin, qadınları və yaxınları (ailə üzvləri) isə kəniz və kölə edilsin ki, müsəlmanlar bundan faydalansın. Allahın Elçisi ﷺ dedi: "Onlar barədə Allahın hökmünü verdin". Onların sayı dörd yüz idi. Onlar qətlə yetirildikdən sonra Sədin damarı partladı və o öldü.[108]

---

[107] Buxari (2907) və Muslim (1768).

[108] Hədisi Tirmizi (1582) rəvayət etmişdir. Əbu İsa demişdir: "Bu hədis həsən səhihdir". Nəsainin "əl-Kubra" əsəri (8679).

Rəvayət olunur ki, Aişə demişdir: "Abdul-əşhəl oğullarından üç nəfər var ki, Peyğəmbərdən ﷺ sonra onlardan daha fəzilətlisi olmamışdır – Səd ibn Müaz, Useyd ibn Xudeyr və Abbad ibn Bişr".[109]

Rəsulullah ﷺ demişdir: "Ərş Səd ibn Müazın ölümü səbəbindən titrədi". Başqa bir rəvayətdə isə "Rəhmanın Ərşi" deyilir.[110]

Allahın Elçisi ﷺ ona hədiyyə edilmiş bəzəkli ipək barədə demişdir: "Səd ibn Müazın Cənnətdəki dəsmallarından biri ondan daha xeyirlidir."[111]

Ənsarlardan birisi dedi: "Allahın Ərşi həlak olan bir kəsin ölümünə görə titrəməz – Səd Əbu Amrdan başqası barədə bunu eşitməmişik".[112]

---

[109] Hakimin "əl-Mustədrak" əsəri (3/254).

[110] Buxari (3592) və Muslim (2461). Hafiz ibn Həcər demişdir: "Bu hədis bir neçə yolla, həm də yekdilliklə nəql olunmuşdur və onu bir toplum səhabə rəvayət etmişdir".

[111] Hədisi Buxari (5461) Bəra ibn Azibdən belə nəql etmişdir ki, Peyğəmbərə ﷺ ipəkdən libas hədiyyə olunur. Biz də ona təəccüblə əlimizi vururduq. Peyğəmbər dedi: "Buna təəccüblənirsiniz?" Dedik: "Bəli". Dedi: "Səd ibn Müazın Cənnətdəki dəsmallarından biri ondan daha xeyirlidir". Bu hədisi həmçinin Muslim (2469) Ənəsdən rəvayət etmişdir.

[112] Bax: "əl-İstiab" (1/181), "Usd əl-ğabə" (1/442), "əl-İsabə" (3/84).

Onun Cənnətlə müjdələnməsinə gəlincə, bu Peyğəmbərin ﷺ şahidliyi ilədir. Çünki onun Cənnətdəki dəsmalları ipəkdən də gözəldir. Buxari və Muslimin "Səhih" əsərlərində də buna yaxın bir rəvayət qeyd olunur.

## 12 – Salman əl-Farisi ﵁

O, Salman ibn İslam, Əbu Abdullah əl-Farisidir. Farslardan İslamı qəbul edənlərin birincisidir. O, Peyğəmbərin ﷺ səhabəsi olmuş, ona qulluq etmiş və ondan hədislər rəvayət etmişdir. Ona Salman əl-Xeyr (yəni xeyirli Salman) də deyilir. Əslən İsfahandandır. Bəziləri onun Ramuhurmuzdan olduğunu da bildirmişlər. İştirak etdiyi ilk döyüş Xəndək döyüşü olmuşdur.

O, olduqca zəkalı və cəsarətli idi. İnsanların ən ağıllı, abid və nəciblərindən idi. İslamı qəbul etməsi barədə uzun bir qissə vardır. Bu xüsusdakı rəvayətlərdən bəziləri münkərdir. Səhih olanlardan isə Bəqiy ibn Müxəllədin öz "Müsnəd"ində Əbut-Tufeyldən, onun da Salmandan rəvayət etdiyi hədisdə deyilir: "Mən elm öyrənmək üçün Şama yola çıxdım. Mənə dedilər ki, Tuhəmədə bir peyğəmbər zühur edib. Mən də Mədinəyə yola düşdüm. Orada ona bir bağlama xurma göndərdim. Soruşdu ki, hədiyyədir, yoxsa sədəqə? Dedim: "Sədəqə". O da əlini geri çəkib səhabələrə dedi ki, həmin xurmanı yesinlər. Sonra ona daha bir bağlama xurma göndərdim və dedim ki, bu hədiyyədir. O da səhabələrlə birlikdə xurmanı yedi. Mən onun başı üstündə dayandım, o da bunu sezdi.

O əyildikdə çiynindəki örtük aralandı və mən onun kürəyindəki peyğəmbərlik möhürünü gördüm. Mən onu qucaqlayaraq şəhadət gətirdim".[113]

Nəvəvi demişdir: "Onun İslamı qəbul etmə səbəbi məşhurdur. Belə ki, o, atasından qaçmışdı, özü də məcusi idi. O, bir rahibin yanına gəldi. Sonra bir-birinin ardınca müxtəlif rahiblərin yanına getdi və onlar vəfat edənədək onların yanında qaldı. Sonuncu rahib ona məsləhət görür ki, Hicaza getsin. O, ona peyğəmbərin zühur etdiyini və ərəblərin arasında olduğunu bildirdi. Onu aparıb Vadil-Qura adlanan yerdə yəhudilərə satdılar. Qureyza qəbiləsindən bir yəhudi onu satın alıb Mədinəyə gətirdi. O, onun yanında bir müddət qaldıqdan sonra Allahın Elçisinin ﷺ yanına gələrək ona hədiyyə gətirdi. Sonra peyğəmbərlik möhürünü gördü. Sonuncu rahib ona peyğəmbərin üç əlamətini öyrətmişdi. Salman dedi: "Mən möhürü görüb onu öpdüm və ağladım. Allahın Elçisi ﷺ məni önündə oturtdu və mənə hər şey barədə xəbər verdi. Mən kölə olduğum üçün Bədr və Uhud döyüşlərində iştirak edə bilməmişdim. Mənə dedi: – Ey Salman, özün haqqında mənə xəbər ver". Beləcə mən qırx unsiya dəyərində qızıl müqabilində

[113] "Siyər əlam ən-nubəla" (1/538). Zəhəbi burada demişdir: "İsnadı yararlıdır".

və üç yüz xurma ağacı əkmək barədə öhdəlik yazaraq ağamın yanında qaldım. Peyğəmbər ﷺ dedi: "Qardaşınız Salmana ağac əkməkdə yardım edin". Onlar da mənə yardım etdilər və mən tələb olunanı topladım. Sonra dedi: "Ona yaxınlaş, mən əlimlə ondan bir şey qoymayanadək, sən də qoyma". Mən belə də etdim. Onun dostları mənə yardım etdilər və mən işimi bitirdim. Mən onun yanına xurma ağacını gətirir, o da onu yerə qoyaraq torpaqlayırdı. Onu haqq olaraq peyğəmbər göndərənə and olsun ki, onlardan heç biri qurumadı, qızıl da qaldı. Sonra bir kişi bəzi mədənlərdən topladığı yumurta boyda qızıllardan gətirib dedi: "Sövdələşməsi olan imkansız fars Salmanı çağırın". Sonra da mənə dedi: "Apar bunları ödə". [114, 115]

Tariq ibn Şihab Salmanın belə dediyini rəvayət etmişdir: "Gecə düşdükdə insanlar üç məqamda olar: bəziləri udar, bəziləri uduzar, bəziləri də ki, nə udar, nə də uduzar". Dedim: "Bu necə ola bilər?" Dedi: "Udan kimsəyə gəlincə, o, insanların qəflətdə olmasından və gecənin qaranlığından istifadə edərək dəstəmaz alıb namaz qılan kəsdir – beləsi qazanmış sayılır. Uduzan kəs isə insanların qəflətdə olmasından və gecənin qaranlığından istifadə edərək Allaha

---

[114] "Təhzib əl-əsma" (1/318).

[115] Bax: "Siyər əlam ən-nubəla" (1/512).

asilik olan əməllər edər. Yatıb səhərədək heç bir iş görməyən kəs isə nə udar, nə də ki uduzar". Tariq dedi: "Öz-özümə dedim ki, mən bununla dostluq edəcəyəm". Sonra insanları toplayıb onların arasına çıxdı. Mən də ona yoldaşlıq etdim və onu heç bir işdə tərcih etməzdim. Mən xəmir yoğurduqda, o çörək bişirər, mən çörək bişirdikdə, o yemək hazırlayardı. Sonra bir yerə gedib orada gecələməli olduq. Tariq deyir ki, gecələr müəyyən saatda qalxar, onu güdüb görürdüm ki, o, yatıb. Deyirdim: "Məndən daha xeyirli olanı, Allahın Elçisinin ﷺ səhabəsi yatıb". Sonra yatıb yenə oyandığımda onu yatmış görürdüm. Lakin o, gecə uzanmış halda deyərdi: *"Subhanallah, əlhəmdulilləh, lə iləhə illəllah, Allahu əkbər; lə iləhə illəllahu vahdəhu lə şərikə ləhu, ləhul mulku va ləhul həmdu va huva alə kulli şeyin qadir"*. Sübhə az qalmış isə o qalxıb dəstəmaz alar, dörd rükət namaz qılardı. Biz sübh namazını qıldıqdan sonra mən dedim: "Ey Əbu Abdullah! Mən gecənin müəyyən bir saatını qalxıram. Bu gecə qalxmaq istədikdə, gördüm ki, sən yatmısan". Dedi: "Ey qardaşım oğlu, mənim nə dediyimi eşitdin?" Mən də ona xəbər verdim. Dedi: "Ey qardaşım oğlu, bu namazdır. Şübhəsiz ki, beş vaxt namaz, qətl istisna olmaqla, aralarında olanların

kəffarəsidir. Ey qardaşım oğlu, əsas qəsdin olsun, bu daha önəmlidir.[116]

Əbu Vail demişdir ki, mən dostumla birlikdə Salmanın yanına getdim. O dedi: "Əgər Allahın Elçisi ﷺ bizə artıq xərc etməyi qadağan etməsəydi, sizi xüsusi qarşılayardım". O, çörək və duz gətirdi. Dostum dedi: "Kaş ki, duzumuzun yanında satər də olardı". Salman da öz qabını girov kimi qoyub satər gətirtdi. Biz yedikdən sonra dostum dedi: "Bizə verdikləri ilə qənaət etdirən Allaha həmd olsun". Salman dedi: "Əgər qane olsaydın, mənim qabım girov olmazdı".[117]

Salmanın yoldaşı Bəqira ölüm anında demişdir: "O, dörd qapısı olan uca bir evdən məni çağırıb dedi: – O qapıları aç, bu gün ziyarətçilərim olacaqdır. Bilmirəm onlar hansı qapıdan yanıma daxil olacaqlar". Sonra miskdə su gətirilməsini buyurdu və dedi: "Bunu basdır, bir qədər sonra da yatağımın ətrafına səp". Baxıb gördüm ki, o, artıq canını tapşırıb. Elə bil yatağında yatmışdı.[118]

---

[116] Hədisi Abdur-Razzəq (1/48, ixtisarla) və Beyhəqi "Şuəb əl-iman" əsərində (3/175) rəvayət etmişlər. Bu kitabda qeyd olunan rəvayət isə "Siyər əlam ən-nubəla" əsərindəndir (1/550).

[117] Təbəraninin "əl-Mucəm əl-kəbir" əsəri (6/235).

[118] Hədisi Əbu Nueym "əl-Hilyə" əsərində (1/208) nəql etmişdir. "Siyər..." əsərinin haşiyəsində (1/553) təhqiqatçı alimin qeydlərində

Abbas ibn Yezid əl-Bəhrani deyir ki, elm əhli demişdir: "Salman üç yüz əlli il yaşamışdır. İki yüz əlli ilində onun şikayəti olmadı".

İslam tarixçisi Hafiz Zəhəbi demişdir: "Mən araşdırdım, ancaq Bəhraninin bu sözündən başqa onun özü haqqında heç bir məlumat tapmadım. Onun sözü isə zəifdir. Salmanın işi və halı, döyüşləri, həvəsi, əməlləri, müxtəlif işləri dəlalət edir ki, o, deyildiyi kimi uzunömürlü olmayıb. Gənc yaşlarında öz ölkəsini tərk etmiş, qırx yaşında Hicaza gəlmişdir. Peyğəmbərin ﷺ göndərildiyini eşitdikdə isə hicrət etmişdir. Ola bilsin o, yetmiş yaşdan artıq yaşamışdır, ancaq yüz yaşa kəsinliklə çatmamışdır. Kim bu barədə başqa bir elmə sahibdirsə, bizə də fayda versin".[119]

Onun uzunömürlü olmasını Əbul-Fərəc ibn əl-Cəuzi və başqaları da nəql etmişlər ki, onların da bir dəlili yoxdur. İbn Əbu Hatimin "əl-İləl" əsərində Cəfər ibn Salman Sabit əl-Bunanidən rəvayət edir ki, Salman xəstələndikdə Səd Kufədən çıxaraq onu ziyarət etməyə gedir. Gəlib görür ki, o, ölüm ayağında ağlayır. Salam verib oturur və deyir: "Ey qardaşım, səni ağladan nədir? Məgər Allahın Elçisinə ﷺ səhabə olduğunu

---

deyilir: "Onu dəfn et", yəni qarışdır. Tur – içərisində su saxlanan, daşdan və ya misdən olan qab.

[119] "Siyar əlam ən-nubəla" (1/556).

unutmusan? Gözəl anları xatırlamırsanmı?" Dedi: "Vallahi, bu iki şeydən biri məni ağlatmır – mən nə dünyanı sevdiyim üçün, nə də Allahla görüşməyi istəmədiyim üçün ağlamıram". Səd dedi: "Bəs səksən yaşdan sonra səni ağladan nədir?" Dedi: "Mən ona görə ağlayıram ki, dostum mənə əhd verərək deyib: "Birinizin dünyadan olan nəsibi minik üzərində olanın azuqəsi kimi oldu". Biz isə qorxuruq ki, həddi aşmış olarıq".

Bu hədisi bəziləri Sabitdən belə nəql etmişlər: "Əbu Osman demişdir ki, Əbu Hatim bu rəvayətin mürsələ bənzədiyini bildirmişdir. Bu hədis onun səksəndən yartıq yaşının olduğunu göstərir. Mən "Tarix əl-kəbir" əsərimdə onun iki yüz əlli ildən artıq yaşadığını izah etmişəm. Bu gün isə bununla razı deyiləm və bunu səhih hesab etmirəm. O, hicrətin otuz dördüncü ilində vəfat etmişdir".[120]

Onun Cənnətlə müjdələnməsi xəbəri Hüseyn ibn Əlidən, Ənəs ibn Malikdən, Hüzeyfədən, Əbu Hureyradan, Əli ibn Əbu Talibdən, Müazdan nəql olunur. Mən burada Ənəsdən rəvayət olunanla kifayətlənirəm:

---

[120] Bax: "əl-İləl" (5/191, 1912 saylı hədis). Orada deyilir: "Atam dedi: Sinan bu hədis barədə Cəfərdən, o da Sabitdən, zənnimcə o da Ənəsdən nəql etmişdir. Murra demişdir: "Sabit, Əbu Osmandan nəql etdikdən sonra da qarışdırmışdır. Ona görə də mürsələ bənzəyir".

Əbu Rabiə əl-İyadi əl-Bisri Həsən əl-Bəsridən, o da Ənəs ibn Malikdən ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: “Cənnət üç nəfər üçün darıxır – Əli, Ammar və Salman”.[121]

[121] Hədisi Tirmizi (3797), Əbu Yalə (5/164), Təbərani “əl-Kəbir” əsərində (6/215), Hakim “Mustədrak” əsərində (3/148), Dinuri “əl-Mucələsə”də (2/133), İbn əl-Cəuzi “əl-iləl əl-mutənəhiyə” əsərində (1/248) və başqaları Həsən ibn Salehdən, o da Əbu Rabiə əl-İyadidən rəvayət etmişlər.

Tirmizi demişdir: “Hədis, həsən ğaribdir və onun yalnız Həsən ibn Salehdən nəql olunduğunu bilirik. Əbu Rabiə əl-İyadi Ömər ibn Rabiədir. Əbu Hatim onun haqqında demişdir: – Hədisləri münkərdir (“əl-Cərhu vət-tədil”, 6/109)”. Sonra İbn Əbu Hatim İbn Məinin Əbu Rabiə haqqında belə dediyini nəql etmişdir: – Etibarlıdır. Yəhya ibn Məinin tarixi barədə Darimidə (948) belə nəql olunmuşdur. O demişdir: “Mən onun Şərikdən Əbu Rabiə haqqında belə dediyini rəvayət etmişəm: – O, Kufəlidir və etibarlıdır”.

Hədisi Zəhəbi “əl-Muğni fid-duəfə” əsərində (2/41) ondan Əbu Hatimin belə dediyi nəql olunmuşdur. Hafiz “Təqrib” əsərində (8093) onun məqbul olduğuna hökm vermişdir.

## 13 – Abdullah ibn Ravaha ﷺ

O, Abdullah ibn Ravaha ibn Sələbə əl-Ənsaridir. Xəzrəc qəbiləsindəndir. Ləqəbi Əbu Muhəmməddir və o, Noman ibn Bəşirin dayısıdır. Bacısı Umra bint Ravahadır. Övladı olmamışdır. İslamı ilk əvvəl qəbul edən səhabələrdən və Peyğəmbərin ﷺ şairlərindəndir.

Cahiliyyət dövründə şeir yazardı. O, yetmiş nəfər ənsarla birlikdə Əqəbə beyətində iştirak etmişdir. O, seçilmiş on iki nəfərdən biri idi. Bədr, Uhud və Xəndək döyüşlərində, habelə Hudeybiyyə sülhündə iştirak etmişdir. Qəza ümrəsində də iştirak etmişdir. Həmin gün o, Peyğəmbərin ﷺ dəvəsinin ovsarından (bəzi rəvayətlərə görə yəhərindən) tutaraq demişdi: "Kafir oğullarının yolunu buraxın".[122]

Mutə döyüşündə şəhid olmuş əmirlərdən biridir. O, döyüşlə bağlı məşvərət zamanı müsəlmanları və özünü Rumlulara qarşı vuruşmağa həvəsləndirmişdi. Ondan öncəki iki əmir şəhid olduqdan sonra bayrağı o götürmüşdü. Peyğəmbər ﷺ onun şəhid olmasını bilavasitə söyləmişdi ki, bu da onun Cənnətə daxil olacağına dəlildir. Rəvayət olunur ki, Peyğəmbər ﷺ onunla vidalaşarkən onun bu şeirini demişdi:

---

[122] Tirmizi (2848), Nəsai (2873).

*Allah səni verdiyi yaxşılıqda sabit etsin,*
*Musa və digərlərinə etdiyi yardım kimi.*

Allahın Elçisi ﷺ demişdir: "Allah səni sabit etsin!" Hişam ibn Urva demişdir: "Allah onu şəhid olub Cənnətə daxil edənədək sabit etmişdir".[123] Döyüşlərdən birində Peyğəmbər ﷺ onu Mədinəyə əmir təyin edib getmişdi.[124]

O, hicrətin səkkizinci ilində, Cəmədil-ulə ayında, Mutə döyüşündə şəhid olmuş əmirlərin üçüncüsü idi. Buxari onun Allahın Elçisi ﷺ ilə bağlı şeirlərindən nəql etmişdir:

*Sübh çağı yetişəndə, dan yeri ağaranda,*
*Allahın Peyğəmbəri Quran oxuyur aramızda.*
*Gözlərimiz kor ikən, o bizə yol göstərdi,*
*Sözünün gerçəyini qəlbimiz yəqin etdi.*
*Gecələr o, böyrünü yatağından qaldırır,*[125]
*Müşriklərsə həmin vaxt, dərin yuxuya dalır.*

---

[123] Hədisi İbn Cərir ət-Təbəri "Təhzib əl-əsar" əsərində (2/461) və Təbərani "Mucəm əl-kəbir" əsərində (itirilmiş 204-cü hissədən) rəvayət etmişlər. Heysəmi "əl-Məcmə" əsərində (8/42) demişdir: "Hədisi Təbərani nəql etmişdir və raviləri etibarlıdır. Sadəcə Mudrik ibn Umara İbn Ravahanı görməmişdir". Heysəminin sözü burada bitir. Onların rəvayətində Hişam ibn Urvanın əlavəsi yoxdur.

[124] Bax: "Subulul-hudə val-irşad" (4/337).

[125] Burada, müşriklər yuxuda ikən Peyğəmbərin ﷺ gecə namazı qılması nəzərdə tutulur.

İbn Abdul-Bərr demişdir: "Abdullah ibn Ravaha ﵁ və onun iki dostu Həssan və Kəb ibn Malik barədə bu ayə nazil olmuşdur: **"Təkcə iman sahibi olub saleh əməllər edən, Allahı tez-tez yada salan və haqsızlığa məruz qaldıqdan sonra *İslam dinini* müdafiə edənlərdən başqa".**[126, 127]

Zeyd ibn Harisənin ﵁ də tərcümeyi-halında qeyd etdiyimiz kimi, Abdullah ibn Ravahanın Cənnətlə müjdələnməsi dəqiqdir. Allah onların hər birindən razı olsun.

---

[126] "əş-Şuəra" surəsi, 227.

[127] Bax: "əl-İstiab" (1/271), İbn Kəsirin "Sira"sı (3/486), "əl-İsabə" (4/486), əz-Zəraklinin "əl-Əlam" əsəri (4/86). Həmçinin həmin ayənin nazil olma səbəbinə bax: "Təfsir Təbəri" (19/240).

## 14 – Abdullah ibn Salam ﵁

O, yəhudi Abdullah ibn Salam Əbu Yusuf, Xəzrəc oğulları qəbiləsi ilə sövdələşmiş biri idi. Deyilənə görə öz adı Husayn idi, ancaq Peyğəmbər ﷺ onu Abdullah adlandırmışdır.

Abdullah ibn Salam ﵁ demişdir: “Peyğəmbər Mədinəyə gələrkən onu görmək üçün mən də Mədinə əhli ilə birlikdə çıxmışdım. Mən ona baxıb üzü haqqında düşündüm. Bildim ki, onun üzü yalançı üzü deyil. Ondan eşitdiyim ilk sözlər isə bunlar idi: “Ey insanlar! Salamı yayın, yemək yedizdirin, qohumlarla əlaqə saxlayın, insanlar yatdığı zaman gecələr namaz qılın, Cənnətə salamatlıqla daxil olun”.[128]

İbn Əbdül-Bərr demişdir: “Allahın Elçisi ﷺ Abdullah ibn Salamı Cənnətlə müjdələmişdir”.[129]

İbn Əsakir yaxşı sənədlə Əbu Burdə ibn Əbu Musanın belə dediyini rəvayət etmişdir: “Mən Mədinəyə gəldikdə gördüm ki, Abdullah ibn Salam

---

[128] Hədisi Əhməd (5/451), İbn Əbu Şeybə (7/257), Abd ibn Həmid (496), Dərimi (1460) və Tirmizi (2485) də rəvayət etmiş və demişdir: “Səhihdir”. Həmçinin İbn Macə (1334), İbn Səd (1/235) və Hakim (3/14) də rəvayət etmiş və demişdir: “Buxari və Muslimin şərtlərinə görə səhihdir”. Həmçinin bax: “Diya əl-Muxtəra” əsəri (9/433, 404 saylı hədis).

[129] “əl-İstiab” (1/280).

bir məclisdə mütiliklə oturub, üzündən də xeyir yağır”.[130]

Tirmizi “Sünən” əsərində qardaşım Abdullah ibn Salamın oğlu Abdul-Malik ibn Umeyrdən rəvayət edərək demişdir: “Osman evində mühasirədə ikən Abdullah ibn Salam gəldi və Osman ondan nə üçün gəldiyini soruşdu. Dedi: “Sənə yardım etmək üçün gəlmişəm”. Dedi: “Çıx və insanları qov! Sənin xaricdə olmağın mənim üçün daxildə olmağından daha xeyirlidir”. Abdullah da insanların arasına çıxdı və dedi: “Ey insanlar! Cahiliyyət dövründə mənim adım filankəs idi, Allahın Elçisi ﷺ isə mənə Abdullah adını verdi. Allahın Kitabında mənim barəmdə bu ayə nazil olmuşdur: **“De: “Bir deyin görək, əgər** ***bu Quran*** **Allah tərəfindəndirsə və siz də onu inkar etmisinizsə, İsrail oğullarından da bir şahid onun bənzərinə şahidlik edib iman gətirib, siz isə təkəbbür göstərmisinizsə,** ***o halda zülm etmiş olmazsınızmı*****?! Allah zalımları doğru yola yönəltməz!”**[131] Həmçinin bu ayə də mənim barəmdə nazil olunmuşdur: **“Kafirlər deyirlər: “Sən göndərilmiş elçi deyilsən!” De: “Mənimlə sizin aranızda Allahın**

---

[130] “Tarixi Diməşq” (29/135). Hafiz “əl-İsabə” əsərində (4/119) demişdir: “Sənədi yaxşıdır”.

[131] “əl-Əhqaf” surəsi, 10.

**və Kitabı bilən kimsənin şahid olması yetər."**[132] Sonra da xəbərin ardını qeyd etdi.[133]

Onun nəql etdiyi hədislər və fəzilət vardır. Hicrətin qırx üçüncü ilində Müaviyənin xilafəti dövründə Mədinədə vəfat etmişdir. Onun Cənnətlə müjdələnməsi barədə hədis Səd ibn Əbu Vaqqasdan ﷠ və Müaz ibn Cəbəldən ﷠ nəql olunmuşdur. Burada Sədin hədisi ilə kifayətlənəcəm:

Amir ibn Səd ibn Əbu Vaqqas ﷠ öz atasından rəvayət edərək demişdir: Mən Allahın Elçisinin ﷺ Abdullah ibn Salamdan başqa yer üzərində gəzən kiməsə: – O, cənnətlikdir! – deməsini eşitməmişəm. Bu ayə məhz onun haqqında nazil olmuşdur: "... **İsrail oğullarından da bir şahid onun bənzərinə şahidlik edib...".** Bilmirəm, burada Malik ayə dedi, yoxsa hədis.

Başqa bir rəvayətdə isə deyilir: "Mən Allahın Elçisinin ﷺ Abdullah ibn Salamdan başqa yer üzərində gəzən kiməsə: – O, cənnətlikdir! – dediyini eşitməmişəm".[134]

---

[132] "ər-Rəd" surəsi, 43.

[133] "Sünən ət-Tirmizi" (3256).

[134] "Səhih əl-Buxari" (3601), Muslim (2483), Nəsainin "əl-Kubra" əsəri (8252) və başqaları. Hafiz "əl-Fəth" əsərində (11/126) demişdir: "Daraqutninin rəvayətində deyilir ki, hədisdəki "Bu ayə məhz onun haqqında nazil olmuşdur" cümləsi İmam Malikin əlavəsidir.

## 15 – Abdullah ibn Amr ibn Haram ﷺ

O, Abdullah ibn Amr ibn Haram əl-Ənsari, sonra əs-Suləmi Əbu Cabirdir. Əqəbə beyətində və Bədrdə iştirak etmişdir. Dəvət üçün seçilmiş səhabələrdəndir. Uhud döyüşündə şəhid olmuşdur. Safiyyə və sevimlisi Amr ibn əl-Camuhla birlikdə dəfn olunmuşdur. Allah onun ruhunu şad etsin, cismini də mələklər qanadları ilə kölgələndirsin. O, müşriklərə qarşı qətiyyət və səbat nümayiş etdirərək döyüşmüşdü. Onu doqquz qızın atası olaraq qətlə yetirmişdilər.[135]

Abdullah ﷺ Əqəbə beyətində və Bədr döyüşündə iştirak etmiş və vəhyi insanlara çatdıran dəvətçilərdən idi. Sələmə oğullarının dəvətçiləri o və Bəra ibn Məruf idi.[136]

Muhəmməd ibn əl-Munkədir demişdir ki, mən Cabir ibn Abdullahın belə dediyini eşitmişəm: "Atam Uhud günündə qətlə yetirildi. Mən onun yanına gəldikdə cəsədi parça-parça idi. Həmin vaxt onun üzü örtülü idi. Mən ağlamağa başladım. İnsanlar mənə bunu qadağan etsələr də, Allahın Elçisi ﷺ bunu mənə qadağan etmirdi. [Bibim] Fatimə bint Amr ağlamağa başladıqda, Allahın Elçisi ﷺ dedi: "Onun üçün

[135] Əbu Nueymin "Mərifətus-sahəbə" əsəri (3/1715).
[136] "Usd əl-ğabə" (1/656).

istəyirsən ağla, istəyirsən ağlama, siz onu qaldıranadək mələklər onu qanadları ilə kölgələndirirdilər".[137]

Cabir ﵁ demişdir ki, Uhud günü gəldikdə gecə atam məni yanına çağırıb dedi: "Düşünürəm ki, Peyğəmbərin ﷺ səhabələrindən ilk ölənlərdən biri mən olacağam. Mən özümdən sonra sənə Allahın Elçisindən ﷺ daha əziz birisini qoyub getmirəm. Əgər borcum qalarsa, onu ödə. Qardaşlarınla yaxşı davran". Səhər döyüşdə ilk ölənlərdən biri o oldu. Başqa birisi ilə eyni qəbirdə dəfn olundu. Sonra onun başqası ilə birlikdə eyni qəbirdə olmasından rahat olmadım və onu altı ay sonra çıxardım. Gördüm ki, qulağı istisna olmaqla, o, eynilə dəfn etdiyim gündəki kimidir".[138]

O, Amr ibn Cəmuhla ﵁ birlikdə eyni qəbirdə dəfn olunmuşdu. Peyğəmbər ﷺ dedi: "Onları eyni qəbirdə dəfn edin, çünki onları bu dünyada saf bir dostluq əlaqələri bağlayırdı.[139]

---

[137] Hədisi Əhməd (3/298), Buxari (1244 və 4080), Muslim (2471) və Nəsai (4/13) rəvayət etmişlər.

Hədisi İbn İshaq ("Siratu İbn Hişam", 4/48) rəvayət edərkən demişdir: "Əbu İshaq ibn Yəsar Sələmə oğullarının ağsaqqallarından rəvayət etmişdir ki, Allahın Elçisi ﷺ demişdir: ...". Sonra da hədisi qeyd etdi. İbn İshaqdan isə İbn Əbu Şeybə (7/367) rəvayət etmişdir.

[138] Hədisi Buxari (1286) rəvayət etmişdir.

[139] İbn Əbu Şeybə (11774 və 37912), Əbu Nueymin "Mərifətus-sahəbə" əsəri (3870, mürsəl isnadla).

Həmçinin Amr Abdullahın Hind bint Amr ibn Haram adlı bacısının əri idi.

Amir əş-Şəbi nəql edir ki, Cabir mənə demişdir: "Atam vəfat etdikdə borcu var idi. Mən Peyğəmbərin ﷺ yanına gəlib dedim: "Atam öldükdə borcu var idi, mənim isə xurmadan savayı bir şeyim yoxdur. Bir neçə ilə belə bu xurma ilə onun borcunu ödəyib bitirə bilmərəm. Mənimlə gedək ki, borc yiyələri məni sıxışdırmasınlar". Sonra o ﷺ, xurma saxlanclarından birinin yanına getdi və dua etdi. Sonra bir başqasına eynisini etdi. Sonra birisinin üzərində oturub dedi: "Onun ağzını açın". Sonra [Cabir] onların borcunu ödədi və onun mislində də özünə qaldı".[140]

Onun Cənnətlə müjdələnməsi barədə hədis oğlu Cabirdən رضي الله عنه və Aişədən nəql olunmuşdur. Burada Cabirin hədisi ilə kifayətlənəcəm:

Talhə ibn Xidaş deyir ki, mən Cabir ibn Abdullahın رضي الله عنه belə dediyini eşitmişəm: "Abdullah ibn Amr ibn Haram Uhud günü öldükdə, Allahın Elçisi ﷺ mənimlə rastlaşdı və dedi: "Ey Cabir, Allahın sənin atan barəsində buyurduğunu sənə xəbər verimmi?" [Yəhya hədisdə dedi.] Sonra o ﷺ dedi: "Ey Cabir, nə üçün səni sınıxmış halda görürəm?" Mən dedim: "Ey

---

[140] Hədisi Buxari (3387) rəvayət etmişdir.

Allahın Elçisi, atam şəhid oldu, özündən də sonra külfət və borc qoyub getdi". Dedi: "Allahın sənin atanı necə qarşılayacağı haqda sənə müjdə verimmi?" Dedim: "Bəli, ey Allahın Elçisi". Dedi: "Allah hər kəslə örtük arxasından danışır, sənin atanla isə bilavasitə danışdı və dedi: – Ey bəndəm, məndən istə sənə verim. Dedi: – Ey Rəbbim, məni dirilt ki, Sənin yolunda ikinci dəfə öldürülüm. Nöqsansız Allah buyurdu: – Mən artıq əvvəlcədən buyurmuşam ki, onlar oraya qaytarılmayacaqlar. Dedi: – Ey Rəbbim, qoyub getdiklərimə çatdır. Uca Allah da bu ayəni nazil etdi: **"Allah yolunda öldürülənləri ölü hesab etməyin, onlar diridirlər və Rəbləri yanında ruzi yeyirlər."**[141, 142]

[141] "Ali İmran" surəsi, 169.

[142] Hədisi Tirmizi (3010), İbn Macə (190), İbn Hibban (15/490), Hakim (4914) və Əbu Nueym "Mərifətus-sahəbə" əsərində Musa ibn İbrahim ibn Kəsirdən, o da Talhə ibn Xiraşdan, o da Cabir ibn Abdullahdan ﷺ səhih olaraq rəvayət etmişdir.

Tirmizi demişdir: "Bu hədis bu sənədlə həsən ğaribdir". Musa ibn İbrahim ibn Kəsir barədə İbn Hibban "əs-Siqat" əsərində (7/449) demişdir: "Hərdən səhvlər edərdi". Zəhəbi "əl-Kaşif" əsərində (2/301) onun haqqında demişdir: "Etibarlıdır".

Bu hədisi Şeyx Albani də "Zilal əl-cənnə" əsərində (1/326) həsən hesab etmişdir.

## 16 – Ukkaşə ibn Mihsan ﷺ

O, Ukkaşə ibn Mihsan ibn Hursan ibn Qeys ibn Murra ibn Bukeyr ibn Ğanəm ibn Dudan ibn Əsəd ibn Xuzeymə əl-Əsədidir. Abdu Şəms qəbiləsi ilə sövdələşmişdir. İslamı ilk əvvəl qəbul edənlərdəndir. Bədr döyüşündə iştirak etmişdir.

Deyilənə görə Ukkaşə mürtədlərə qarşı döyüşdə şəhid olmuşdur. Onu qeybdən xəbər verdiyini iddia edən Talihə ibn Xuveylid qətlə yetirmişdi. O, səhabələrin böyüklərindən və fəzilətli olanlarındandır. Mədinəyə hicrət edərək Bədr döyüşündə iştirak etmiş və orada da gözəl həyat yaşamışdır.

Beyhəqi "əd-Dəlail" əsərində onun belə dediyini nəql etmişdir: "Bədr günü mənim qılıncım qırıldı, Allahın Elçisi də mənə bir budaq uzatdı. Bir də gördüm ki, o uzun ağ qılıncdır. Allah müşrikləri məğlub edənədək mən onunla vuruşdum".[143] O ölənədək həmin qılınc onun yanında qaldı. Həmin qılıncın adı əl-Ovn idi.[144]

İbn Səd demişdir: "Mən bəzilərinin Ukaşə adını deyərkən qoşa *k* hərfini tələffüz etdiyini eşitmişəm.

---

[143] "Dəlail ən-nubuvvə" (3/99). İsnadında əl-Vaqidi vardır ki, o da mətrukdur. Bax: "ət-Təqrib" (6175).

[144] "Siratu İbn Hişam" (1/637).

Digərləri isə bir *k* ilə deyirlər. O, olduqca gözəl bir kişi idi.[145]

Həmçinin o, Allahın Elçisi ﷺ ilə birlikdə Uhud, Xəndək və digər döyüşlərdə də iştirak etmişdir. Allahın Elçisi ﷺ onun Cənnətə haqq-hesabsız daxil olacağı barədə müjdə vermişdir. Peyğəmbər ﷺ vəfat etdikdə onun qırx dörd yaşı var idi.[146]

Onun Cənnətlə müjdələnməsi xəbəri İbn Abbas ؓ, İmran ibn Husayn ؓ və İbn Məsuddan ؓ nəql olunmuşdur. Burada İbn Abbasın hədisi ilə kifayətlənəcəm:

Səid ibn Cubeyr ؓ İbn Abbasdan ؓ rəvayət edir ki, bir gün Peyğəmbər ﷺ yanımıza çıxdı və belə buyurdu: "Mənə ümmətlər göstərildi. Mən elə peyğəmbər gördüm ki, onunla kiçik bir dəstə var idi. Elə peyğəmbər gördüm ki, onunla bir və ya iki kişi var idi. Elə peyğəmbər də gördüm ki, onunla bir nəfər belə yox idi. Birdən mənə böyük, üfüqü örtən qaraltı göründü. Mən elə hesab etdim ki, onlar mənim ümmətimdir, ancaq mənə deyildi ki, bu, Musa və onun qövmüdür. Daha sonra mənə deyildi: – Bu tərəfə bax! Mən (dərhal

---

[145] "əl-İstiab" əsərində belə nəql olunmuşdur (1/332). "Tabaqat İbn Səd" əsərində isə: "Ukkaşə ən gözəl kişilərdən biri idi" kimi qeyd olunur. Bax: "ət-Tabaqat əl-kubra" (3/92).

[146] Bax: "əl-İstiab" (1/332), "Usd əl-ğabə" (1/780), "Təhzib əl-əsma" (1/474), "əl-İsabə" (4/533).

ora) baxdım və orada üfüqü örtən çoxlu qaraltı gördüm. Mənə yenə: – O tərəfə bax! O tərəfə də bax! deyildi. (Mən üfüqü örtən daha) çox qaraltı gördüm. Mənə deyildi ki, budur sənin ümmətin. Onların içində yetmiş min nəfər vardır ki, onlar haqq-hesabsız və əzabsız Cənnətə girəcəklər". Sonra o qalxdı və evinə girdi. İnsanlar da o kəslər haqqında fikirlər söyləməyə başladılar. Onlardan bəziləri dedi ki, bizlər müşrik olaraq doğulmuşuq, övladlarımız isə İslamda doğulublar və Allaha heç nəyi şərik qoşmayıblar. Allahın Elçisi çıxdıqda, onlar bu haqda ona xəbər verdilər. O isə dedi: "Onlar o kəslərdir ki, özlərinə ruqyə etməyi başqasından istəməzlər; özlərinə damğa vurmaqla müalicə etməyi başqasından istəməzlər; "tətayyur" etməzlər (uğursuz və bəd əlamətlərə inanmazlar) və yalnız öz rəbblərinə təvəkkül edərlər". Ukkaşə ibn Mihsan ﵁ qalxdı və dedi: "Allaha dua et ki, məni o kəslərdən etsin". Peyğəmbər ﷺ dedi: "Sən onlardansan". Sonra başqa bir kişi qalxdı və dedi ki, Allaha dua et, məni də onlardan etsin. Peyğəmbər ﷺ dedi: "Bu xüsusda Ukkaşə səni qabaqladı".[147]

[147] Hədisi Buxari (5378), Muslim (549), Tirmizi (2446), Nəsai "əl-Kubra" əsərində (7604) və başqaları Husayn ibn Abdur-Rahmən əs-Suləmidən, o da Səid ibn Cubeyrdən, o da İbn Abbasdan nəql etmişlər.

## 17 – Ammar ibn Yasir ﵁

O, Ammar ibn Yasir ibn Amir ibn Malik əl-Ənsi Əbul-Yəqzandır. Anası Sumeyyə Məxzum oğulları qəbiləsinin azadlısıdır. O, məşhur sahəbələrdən biri, İslamı ilk əvvəl qəbul edənlərdəndir. Bədr döyüşündə iştirak etmişdir. Məxzum oğulları ilə sövdələşmə bağlamışdır. Anası Sumeyyə şəhid olmuşdur. O, atası və anası, üçü də İslamı ilk əvvəl qəbul edənlərdəndir.

Ammar ﵁ İslamı qəbul edərkən otuzdan artıq yaşı var idi. Allah yolunda əzab çəkənlərdən biridir. Elm əhli onun nəsəbi haqqında demişlər: "Yasir Ammarın Ənsdən olan Qahtani və Muzhəci ərəblərindən idi. Oğlu Ammar isə Məxzum oğulları ilə sövdələşmişdi. Çünki atası Yasir Məxzumilərdən olan anası ilə evlənmişdi. Onların da Ammar adlı oğulları olmuşdu. Ammar və Suheyb ibn Sinan, Allahın Elçisi Arqamın evində dəvət apararkən eyni vaxtda İslamı qəbul etmişdilər.

Ammar ﵁ deyir ki, mən Suheyb ibn Sinanla Arqamın evinin yanında qarşılaşdıq. Həmin vaxt Allahın Elçisi ﷺ də orada idi. Mən dedim: "Mən istəyirəm ki, içəri daxil olub Muhəmmədin sözlərini

dinləyim". O dedi: "Mən də istəyirəm". Biz oraya daxil olduq. Bizə İslamı anlatdılar, biz də qəbul etdik.

Ammar ﵁ uzunboylu, qarayanız, gözləri qarışıq rəngli, enlikürək birisi idi. O, ağ saç-saqqalını dəyişməzdi. Deyilənə görə o, keçəl idi və başının ön hissəsində azacıq saçı var idi.

Ömər ibn əl-Xəttab ﵁ onu Kufəyə əmir təyin etmiş, şəhərin əhlinə də yazmışdı: "Sonrasına gəlincə, mən sizə Ammarı əmir, Abdullah ibn Məsudu isə vəzir olaraq göndərirəm. Hər ikisi Allahın Elçisinin seçilmiş səhabələrindəndir. Onları rəhbər kimi qəbul edin və onlara tabe olun. Mən sizi Abdullahla özümdən də üstün tuturam.[148]

Sonradan Ömər onu tutduğu vəzifədən azad etdikdə ona demişdi: "Vallahi ki, səni təyin edəndə sevinmişdim, səni işindən azad edəndə isə kədərləndim.[149]

Uca Allahın bu ayəsi Ammar barəsində nazil olmuşdur: **"... imanla sabit qaldığı halda (haqqı danmağa) məcbur edilən kəslər istisna olmaqla, kim**

---

[148] Hədisi İbn Səd (6/7) və Təbərani "əl-Kəbir" əsərində (9/86) rəvayət etmişlər. Heysəmi "əl-Məcmə" əsərində (9/253) demişdir: "Hədisi Təbərani rəvayət etmişdir və raviləri səhih hədislərin raviləridir. Yalnız Harisədən başqa, o etibarlı ravidir".

[149] "Tarixi Təbəri" (2/544).

**iman gətirdikdən sonra Allahı inkar etsə və qəlbini küfrə açsa, Allahın qəzəbinə düçar olar".**[150, 151]

O, Allahın Elçisi ﷺ ilə birlikdə Mədinəyə hicrət etmiş və onunla Bədr, Uhud, Xəndək və digər döyüşlərdə iştirak etmişdir. Onun Həbəşistana hicrət edib-etməməsi barəsində fikir ayrılığı vardır.

O, hicrətin otuz yeddinci ilində Sıffin döyüşündə, Əlinin رضي الله عنه ordusunda doxsan üç yaşında qətlə yetirilmişdir.[152]

Salmanın رضي الله عنه tərcümeyi-halında da qeyd etdiyimiz kimi, Ammarın Cənnətlə müjdələnməsi sabitdir və bu haqda onun anasının tərcümeyi-halında söhbət açılacaq.

Allah onların hər birindən razı olsun.

---

150 "ən-Nəhl" surəsi, 106.

151 Hədisi İbn Səd (3/249), İbn Əbu Şeybə "Usd əl-ğabə"də (7/524), Təbəri "Təfsir"ində (11/534) rəvayət etmişlər.

152 Bax: "Təhzib əl-əsma" (1/545), "Usd əl-ğabə" (1/808), Zəhəbinin "Tarix əl-islam" əsəri (3/572), "əl-İsabə" (4/575).

## 18 – Amr ibn əl-Cəmuh ﷺ

O, Amr ibn əl-Camuh ibn Zeyd ibn Haram ibn Ğanəm ibn Sələmə, Əbu Müaz əl-Ənsari əs-Suləmidir. Əqəbə beyətində iştirak etmişdir.

Deyilənə görə, Bədr döyüşündə iştirak etmişdir.

Ənsarlardan ən son İslamı qəbul edəndir. İbn İshaq demişdir: "Amr ibn əl-Cəmuh Sələmə oğulları qəbiləsinin hörmətli rəhbərlərindən biri idi. Onun evində Manat adlı taxta bir büt var idi, o da ona təzim və qulluq edirdi. Sələmə oğulları qəbiləsindən iki gənc – oğlu Müaz ibn Amr və Müaz ibn Cəbəl ﷺ İslamı qəbul etdikdə, onların gəncləri ilə görüşmüşdülər. Bir gecə onlar Amrın bütünün yanına daxil oldular və onu götürüb Sələmə oğullarının quyularından birinə atdılar. Sonra insanlar onun başına toplandılar. Səhər açıldıqda Amr dedi: "Vay sizin halınıza! Bu gecə bizim ilahlarımıza kim təcavüz edib?" Sonra gedib onu tapdı, çıxarıb yudu, təmizlədi və dedi: "Vallahi ki, bilsəm bunu sənə kim edib, onu rüsvay edəcəyəm".

Axşam düşdükdə Amr yatdı və yenə gəlib bütün başına eyni oyunu açdılar. Səhər Amr yenə onu axtardı. İnsanlar onu çağırdıqda, o gəlib bütü çıxardı, yuyub təmizlədi. Sonra qılıncını gətirib onun

boynundan asdı və dedi: "Vallahi ki, mən bilmirəm bunu sənə kim edir. Əgər səndə bir fayda varsa, bu qılıncla özünü qoru!"

Yenə axşam düşdükdə gəlib qılıncı bütün boynundan çıxardılar. Sonra ölmüş it leşini iplə ona bağlayıb Sələmə oğullarının quyularından birinə atdılar. Bundan sonra insanlar ona yaxınlaşmadılar. Səhər açıldıqda Amr bütü yerində tapmadı. Çıxıb onu axtarıb tapdı. Gördü ki, onu it leşinə bağlayıblar. Bundan sonra o hər şeyi anladı. Qövmündən islamı qəbul edənlər onunla söhbət etdilər və o, İslamı qəbul etdi".

O, Uhuda çıxmaq istədikdə qibləyə yönəlib dedi: "Allahım, mənə şəhidlik nəsib et və məni qövmümə üzüqara döndərmə". Həmin gün o şəhid oldu. O, Cabirin atası Abdullah ibn Amr ibn Haramla birlikdə dəfn olundu. Onlar bir məzarda dəfn olunmuş iki qayın oldular.

əl-Vaqidi demişdir: "O, Amrın qızı, Cabir ibn Abdullahın isə bibisi Hindin əri idi. O, çolaq idi. Peyğəmbər ﷺ ona belə demişdir: "Sanki sənin Cənnətdə bu iki ayağınla sağlam şəkildə gəzdiyini görürəm". (Bir qədər sonra bu hədisin çıxarışı qeyd ediləcək).

Cabir demişdir: "Allahın Elçisi ﷺ bizdən soruşdu: "Ey Sələmə oğulları, sizin rəhbəriniz kimdir?" Biz

dedik: "Cədd ibn Qeysdir, ancaq biz ona paxıllıq edirik". Allahın Elçisi ﷺ əlini uzadaraq göstərib dedi: "Paxıllıqdan daha pis hansı xəstəlik ola bilər ki? Sizin rəhbəriniz Amr ibn əl-Cəmuhdur". Cabir davam edib dedi: "Amr cahiliyyət dövründə bütü saxlayan idi. Evləndikdə Rəsulullahı ﷺ qonaqlığa dəvət etmişdi".[153]

Ənsarlardan olan şair bu barədə belə demişdir:

*Rəsulullah dedi, onun sözü haqdır,*
*Sizlər kimi özünüzə rəhbər adlandırırsınız?*
*Ona dedilər ki, Cədd ibn Qeysdir*
*Qara olsa belə, bizlər ona paxıllıq edirik.*
*Nalayiq bir addım atmamış gəncdir o,*
*Əsla əlini günah işlərə uzatmayıb.*
*O da Amr ibn əl-Cəmuhu rəhbər seçdi,*
*Amr əslində rəhbərliyə layiqdir.*
*Ondan malından bir şey istəyən olduqda,*
*Deyərdi götür, sabah yenə qayıdar mənə.*
*Ey Cədd ibn Qeys, əgər sən də həmçinin,*
*Amr kimi olsaydın, rəhbər seçilərdin.*[154]

---

[153] Hədisi Beyhəqi "əş-Şuəb" əsərində (15/227 – Qətər Vəqflər Nazirliyinin nəşri) və Əbu Nueym "Mərifətus-sahəbə" əsərində (4987) rəvayət etmişlər.

[154] Bax: Əbu Nueymin "Mərifətus-sahəbə" əsəri (14/155), "əl-İstiab" (1/362), "əl-İsabə" (4/615).

Onun Cənnətlə müjdələnməsi barədə hədis Əbu Qatədə əl-Ənsaridən, Cabir ibn Abdullahdan və bəzi mürsəl rəvayətlərdən nəql olunmuşdur. Burada Əbu Qatədənin hədisi ilə kifayətlənəcəm:

Yəhya ibn Nadr Əbu Qatədədən rəvayət etmişdir ki, o demişdir: “Amr ibn əl-Cəmuh Allahın Elçisinin ﷺ yanına gəlib dedi: – Ey Allahın Elçisi, əgər Allah yolunda vuruşaraq ölsəm, Cənnətdə bu ayağım sağlam olacaqmı?” Onun ayağı çolaq idi. Allahın Elçisi ﷺ dedi: “Sanki sənin Cənnətdə bu iki ayağınla sağlam şəkildə gəzdiyini görürəm”. Sonra Allahın Elçisi ﷺ əmr etdi ki, onunla azadlısı eyni qəbirdə dəfn olunsunlar”.[155]

[155] Hədisi Əhməd “əl-Müsnəd” əsərində (22553), İbn Şibbə “Tarix əl-Mədinə” əsərində (1/83) və Əbu Nueym “Mərifətus-sahəbə” əsərində (4984) Əbu Qatədədən rəvayət olunmuşdur.

## 19 – Ali Maxzum qəbiləsi ilə əhd bağlamış Yasir ibn Amir əl-Ənsi ﵁

O, Yasir ibn Amir ibn Malik ibn Kinənə ibn Kəhlan ibn Səba ibn Yəşcəb ibn Yərib ibn Qahtandır.

Yasir və onun iki qardaşı Haris və Malik qardaşlarını axtarmaq məqsədilə Məkkəyə gəlmişdilər. Sonra Harislə Malik Yəmənə qayıtdılar. Yasir isə Məkkədə qaldı və Əbu Hüzeyfə əl-Məxzumi ilə əhd bağladı. O da kənizi Sumeyyə bint Xayyat ilə onu evləndirdi. Onların da Ammar adlı övladı oldu. Sonra Əbu Hüzeyfə onu azad etdi. Həri ikisi ölənədək Əbu Hüzeyfə ilə birlikdə qaldılar. Sonra Allah Muhəmmədi ﷺ İslam peyğəmbəri seçdi. Yasirlə Sümeyyə, habelə Ammar və qardaşı Abdullah ibn Yasir də İslamı qəbul etdilər.

Yasir, zövcəsi və oğlu ilə birlikdə Allah yolunda əzab çəkənlərdən olmuşlar. Onların barəsində bu ayə nazil olmuşdur: **“İnsanların eləsi də var ki, Allahın razılığını qazanmaq üçün canını da verər. Allah Öz qullarına qarşı Şəfqətlidir.”**[156]

[156] “əl-Bəqərə” surəsi, 207.

Ammar həm də Peyğəmbərin ﷺ xanımı Ummu Sələmənin süd qardaşı idi.[157]

Onun Cənnətlə müjdələnməsi sabitdir və bu barədə onun zövcəsi Sumeyyə bint Xabbatın tərcümeyi-halında qeyd olunacaqdır.

[157] Bax: Əbu Nueymin "Mərifətus-sahəbə" əsəri (5/2812), "əl-İsabə" (6/639).

## 20 – Malik ibn Sinan əl-Xudri ؓ

O, Malik ibn Sinan ibn Ubeyd ibn Sələbə ibn əl-Əbcərdir. əl-Əbcər Xudra ibn Auf ibn Haris ibn əl-Xəzrəcdir.

O, Əbu Səid əl-Xudrinin atasıdır və Uhud günü şəhid olmuşdur. Onu Arrab ibn Sufyan əl-Kinani qətlə yetirmişdir. O, öz övladını döyüşə aparılması məqsədilə Peyğəmbərin ﷺ yanına gətirdiyində onun on üç yaşı var idi. Peyğəmbər ﷺ də onu geri qaytarmışdı.[158]

Onun Cənnətlə müjdələnməsi ilə bağlı bir-birini gücləndirən hədislər vardır.

Səid ibn Mənsur "Sünən" (1/70) və Beyhəqinin "əl-Dəlail" (3/266) əsərlərində Ömər ibn əs-Saibdən rəvayət edir ki, ona xəbər verilmişdir ki, Uhud günü Peyğəmbər ﷺ yaralandıqda Əbu Səid əl-Xudrinin ؓ atası Malik onun yarasını sovurub ağappaq edərək təmizlədi. Ona dedilər ki, tüpür onu. O isə cavabında dedi: "Vallahi ki, onu əsla tüpürmərəm". Sonra o döyüşə atıldı. Allahın Elçisi ﷺ dedi: "Kim Cənnət əhlindən olan birinə baxmaq istəyirsə, bu şəhidə baxsın".[159]

[158] Bax: "əl-İstiab" (1/420), "Usd əl-Ğabə" (1/960), "əl-İsabə" (5/727) və "ət-Tuhfətul-latifə" (2/89).

[159] Hafiz İbn Həcər bu hədisin mürsəl olmasına hökm vermişdir. Bax: "Təlxis əl-həbir" əsəri (1/170).

Hədisi Təbərani "əl-Kəbir" əsərində (6/34), "əl-Hakim" (3/651), İbn Əbu Asim "əl-Əhad val-məsani" əsərində (3/598), Əbul-Qasim əl-Bəğavi "Subulul-hudə var-raşəd" əsərində (10/39) Musa ibn Muhəmməddən, o da anasından, o da Ummu Abdur-Rahmən ibn Əbu Səid əl-Xudridən, o da Əbu Səiddən onun belə dediyini rəvayət etmişdir: "Uhud günü Allahın Elçisinin ﷺ üzü yaralanmışdı. Malik ibn Sinan onu ﷺ qarşılayıb onun yarasını sovurdu. Allahın Elçisi ﷺ dedi: "Kim mənim qanımla öz qanının qarışdığı kəsi görmək istəyirsə, Malik ibn Sinana baxsın".

Hədisin isnadında "Subulul hudə var-raşəd" (10/39) əsərində deyildiyi kimi, Musa ibn Muhəmməd vardır ki, o da Musab ibn əl-Əsqadan, o da Rabih ibn Abdur-Rahmən ibn İsmaildən, o da Əbu Səiddən ona yaxın ləfzlə rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Qanım qanına qarışmış birisinə Allah zərər verməz".

Rabih ibn Abdur-Rahmən barəsində İmam Əhməd demişdir: "Naməlumdur". Bu, İbn Udeyin "Kamil" əsərində (3/174) nəql olunur. Buxari onun barəsində demişdir: "Hədisi münkərdir". Tirmizi bunu "İləl əl-kəbir" əsərində nəql etmişdir. Həmçinin İbn Hibban da "əs-Siqat" əsərində (6/309) bunu qeyd etmişdir. İbn Udey onun haqqında tərcümeyi-halının sonunda (3/174) demişdir: "Ümid edirəm ki, onda bir problem yoxdur". Hafiz "ət-Təqrib" əsərində demişdir: "Məqbul".

Bütün bu rəvayətlər birlikdə hədisi həsən liğeyrihi dərəcəsinə qaldırmış olur. Daha doğrusunu Allah bilir.

## 21 – Əbud-Dəhdah əl-Ənsari ﵁

O, Əbud-Dəhdahdır. Ona Əbud-Duhadaha əl-Ənsari də deyilir. Səhabədir.

İbn Abdul-Bərr demişdir: "Onun adına və nəsəbinə rast gəlmədim. Sadəcə onun ənsarlardan olması və onlarla sövdələşməsi məlumdur". Bir başqası demişdir: "Onun adı Sabitdir". İbn Həcər demişdir: "Əbud-Dahdah əl-Ənsari – onlarla sövdələşmişdir". Bəğavi də "Əbud-Dahdah əl-Ənsari" demiş, lakin başqa bir söz qeyd etməmişdir.

Aqil İbn Şihabdan rəvayət etmişdir ki, bir dəfə bir yetim uşaq Əbu Lubəbə ilə xurma ağacı barəsində mübahisə etmişdir. Rəsulullah ﷺ da Əbu Lubəbənin xeyrinə hökm verir və oğlan ağlayır. Rəsulullah ﷺ Əbu Lubəbəyə dedi: "Ağacını ona ver". Dedi: "Xeyr". Dedi: "Onu ver ona, əvəzində Cənnətdə sənə meyvəli bir xurma ağacı verilsin". Dedi: "Xeyr". Əbud-Dəhdah bunu eşidib Əbu Lubəbəyə dedi: "Bu ağacı mənim bu bağımla dəyişəkmi?" Dedi: "Bəli". Əbud-Dəhdah Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ey Allahın Elçisi, yetim uşaq üçün istədiyin xurma ağacını mən ona versəm, Cənnətdə mənə ağac verilərmi?" Dedi: "Bəli". Sonra Əbud-Dəhdah Uhud döyüşündə şəhid olur.

Allahın Elçisi ﷺ də dedi: “Allahım, Əbud-Dəhdaha Cənnətdə ağac nəsib et”.[160]

İbn Məndə Abdullah ibn Harisdən, o da İbn Məsuddan ﵁ rəvayət edir ki, Uca Allahın: **“Kim Allaha gözəl bir borc versə** (malından Allah yolunda xərcləsə)**, O da onun üçün bunu qat-qat artırar.”[161]** ayəsi nazil olduqda Əbud-Dəhdah dedi: “Ey Allahın Elçisi, Allah bizdən borc istəyir?” Dedi: “Bəli”. Sonra onun sədəqəsi barədəki hədisin ardı qeyd olunur.[162]

Ənəsdən ﵁ rəvayət olunan hədisdə deyilir ki, bir nəfər dedi: “Ey Allahın Elçisi, filankəsin xurma ağacı var, mən də divarımı ona dirəmişəm. Mənə əmr edir ki, ona bir şey verim və divarımı ona dirəyim”. Peyğəmbər ﷺ ona dedi: “Onu, Cənnətdə bir ağac müqabilində ona ver”. O isə razılaşmadı. Əbud-Dəhdah dedi: “Divardakı ağacını mənə sat”. O da satdı. Sonra o, gəlib Peyğəmbərə ﷺ dedi: “Ey Allahın Elçisi, mən divarımdakı ağacı satdım”. Dedi: “Onu sənə verirəm ki, ona verəsən”. Allahın

---

[160] Bu hədisi əl-Beyhəqinin “əl-Kubra” əsərində (6/64), habelə Buxarinin öz “Səhih”ində Əbu Lubəbənin qissəsi olmadan rəvayət etməsi qeyd olunur.

[161] “əl-Bəqərə” surəsi, 245.

[162] Hədisi Təbərani (16/165) rəvayət etmişdir.

Elçisi ﷺ də dedi: "Əbud-Dəhdahın Cənnətdə necə də çox ağacı var". O, bu sözləri dəfələrlə demişdir. Dedi: "Mən onun xanımıyam". Dedi: "Ey Ummu Dəhdah, divardan çəkil, mən onu Cənnətdə bir ağac müqabilində satdım". Xanımı dedi: "Bu, gəlirli bir ticarətdir", yaxud buna bənzər bir söz söylədi.[163]

Cabir ibn Səmura rəvayət edir ki, Peyğəmbər ﷺ Əbud-Dəhdahın atına minmişdi.[164]

Onun Cənnətlə müjdələnməsi barədə hədis sabitdir və Ənəsdən, Cabir ibn Səmuradan, Ömər ibn Xəttabdan, Abdur-Rahmən ibn Əbzədən, Səid ibn əl-Müseyyibin və Şəbinin mürsəllərində qeyd olunmuşdur. Burada Cabirin hədisi ilə kifayətlənəcəm:

İmam Muslim, İmam Əhməd va başqaları Səmmak ibn Hərbdən, o da Cabir ibn Səmuradan rəvayət edir ki, Allahın Elçisi ﷺ İbn Dahdah üçün namaz qıldıqdan sonra yəhərsiz bir at gətirdilər. Bir kişi onu yəhərlədi. Sonra onu mindi və yeridi. Biz də onun ardınca getdik. Qövmdən bir nəfər dedi ki,

---

[163] Hədisi Əhməd (12842), İbn Hibban (6/113) və başqaları rəvayət etmişlər.

[164] Bax: İbn Məndənin "Fəthul-bab fil-kunə val-əlqab" əsəri (307-ci səh). Peyğəmbərin Əbud-Dəhdahın atını minməsi xəbərini o, isnadsız qeyd etmişdir. Onun tərcümeyi-halına bax: "əl-İstiab" (2/25), "Təhzib əl-Əsma" (3/112), "əl-İsabə" (7/119).

Peyğəmbər ﷺ dedi: "İbn Dahdah üçün Cənnətdə nə qədər də çoxlu ağac vardır". Şöbə dedi: "Yaxud da Əbud-Dəhdah üçün".[165]

[165] Bax: "Səhih Muslim" (965), İmam Əhmədin "Müsnəd" əsəri (2866), Əbu Davud (3180, müxtəsər olaraq) və Tirmizi (3/343).

## 22 – Xədicə bint Xuveylid ﵂

O, möminlərin anası, Peyğəmbərin ﷺ zövcəsi Xədicə bint Xuveylid əl-Quraşiyyə əl-Əsədiyyədir. Peyğəmbərin ﷺ aləmlərə gətirdiyini qəbul edən ilk insandır. Zamanında aləmlərin qadınlarının rəhbəridir. İbrahimdən başqa Peyğəmbərin ﷺ bütün övladlarının anasıdır. Hər kəsdən öncə Peyğəmbərə ﷺ iman gətirib onun söylədiklərini təsdiqləmiş, ona ürəkdirək vermişdir.

Onun fəzilətləri olduqca çoxdur. Qadınlar arasında kamilliyə çatanlardandır. Olduqca ağıllı, hörmətli, dindar və səxavətli birisi idi. Cənnətlə müjdələnmiş biridir. Peyğəmbər ﷺ onu tərifləyər və digər xanımlarından üstün tutardı. Onu həddindən artıq tərifləyərdi. Peyğəmbər ﷺ ondan öncə heç bir qadınla evlənməmişdi. Peyğəmbərdən ﷺ bir neçə övlad dünyaya gətirmişdir. Həmçinin Xədicə dünyasını dəyişənədək onun üzərinə başqa bir qadınla evlənməmişdi. Onun vəfatı Peyğəmbərə ﷺ olduqca pis təsir etmişdi. O, Peyğəmbərin ﷺ gözəl bir dostu idi.[166]

Hafiz İbn Kəsir onunla möminlərin anası Aişə ﵂ arasındakı fəzilət barədə danışdıqdan sonra demişdir:

---

[166] "Siyar əlam ən-nubələ" (2/110), ixtisarla.

Həqiqət budur ki, onlardan hər birinin özünəməxsus fəziləti vardır. Həmin fəzilətlərə nəzər saldıqda insan heyrətə gəlmiş olur. Ən yaxşısı bu barədə susmaqdır, çünki bunun elmi İzzət və Cəlal Sahibi olan Allaha məxsusdur. Qəti bir dəlili olan, yaxud böyük bir ehtimalı olan dəlilə malik şəxs isə malik olduğu elm barəsində söz söyləyə bilər. Hər kim bu və ya digər məsələlər barəsində susmağı üstün tutarsa, o zaman belə desin: "Daha doğrusunu Allah bilir".[167]

Təqiyyud-din əs-Subki demişdir: "Seçib Uca Allaha etiqad etdiyimiz rəy budur ki, Fatimə ﵂ daha əfzəldir. Sonra isə Xədicə, daha sonra da Aişə". əs-Subkinin sözü burada bitir.[168]

əs-Salehi əs-Subkinin sözünü qeyd etdikdən sonra demişdir: "Kimisə başqasından üstün saymaq çətin məsələdir. Yalnız dəlili olan məsələ barəsində danışmaq, digər məsələlər barəsində isə susmaq və ədəbli olmaq lazımdır".[169]

İmam Buxari, Muslim, Tirmizi və Nəsai Hişam ibn Urvadan, o da atasından, o da Abdullah ibn Cəfərdən, o da Əli ibn Əbu Talibdən rəvayət edir ki, Allahın Elçisi ﷺ demişdir: "O vaxtın ən xeyirli qadını

---

[167] "əl-Bidayə van-nihayə" (3/372), "İbn Kəsir" Nəşriyyatı.
[168] Bax: "Fəthul-bari" (7/139).
[169] "Subul əl-hudə var-raşəd (11/162).

Məryəm bint İmrandır. Həmçinin bu vaxtın ən xeyirli qadını Xədicə bint Xuveyliddir".[170] İbn Kəsir demişdir: "Yəni öz zamanının".[171]

İbn Kəsir "əl-Bidayə van-nihayə" əsərində (3/129) demişdir: "Şöbə Müaviyə ibn Qurradan, o da atası Qurra ibn İyasdan rəvayət etmişdir ki, Allahın Elçisi ﷺ demişdir: "Kişilərdən kamilliyə çatanlar çox olmuşdur. Qadınlardan isə kamil olanlar üçdür: Məryəm bint İmran, Fironun zövcəsi Asiya və Xədicə bint Xuveylid. Aişənin digər qadınlar üzərindəki fəziləti isə ətli yeməyin digər yeməklərdən fərqi kimidir". Hədisi İbn Mərdaveyhi öz "Təfsir"ində nəql etmişdir. Bu, Şöbəyə qədər və ondan sonra səhih isnaddır. Dedilər: "Bu üç qadının – Asiya, Məryəm və Xədicənin arasında ortaqlıq ondan ibarətdir ki, onlardan hər biri mürsəl bir peyğəmbərə zamin olmuşlar. Onların zəmanəti ilə möhkəm bağlılıq olmuşdur. Belə ki, Asiya Musanı tərbiyə etmiş və ona yaxşılıqlar etmiş, habelə o, peyğəmbər göndərildikdə ona iman gətirmişdi. Məryəm öz övladına tam bir şəkildə zamin olmuş, peyğəmbər olduqda isə ona iman gətirmişdi. Xədicə isə Allahın Elçisi ilə evlənmək istəmiş, sonra qeyd

---

[170] Buxari (3249), Muslim (2430), Tirmizi (3877) və Nəsai "əl-Kubra" əsərində (8354).

[171] "əl-Bidayə van-nihayə" (3/129).

etdiyimiz kimi, onun üçün bütün malını sərf etmiş, İzzət və Cəlal Sahibi olan Allahdan ona vəhy nazil olunduqda isə onu təsdiqləmişdi".

İbn Abdul-Bərr "əl-İstiab fi mərifətis-sahəbə" əsərində (2/87) demişdir: "İxtilaf yoxdur ki, Allahın Elçisi ﷺ cahiliyyət dövründə Xədicədən رضي الله عنها başqası ilə evlənməmişdir. Onun üzərinə də o vəfat edənədək qadınlarından heç kim ilə evlənməmişdi. Xədicədən başqa zövcələrindən heç kim ondan uşaq dünyaya gətirməmişdir. O, İzzət və Cəlal Sahibi olan Allaha və Onun Elçisinə iman gətirən ilk adam olmuşdur. Bu Qatədə, Zuhri, Abdullah ibn Muhəmməd ibn Aqil, İbn İshaq və başqalarının rəyidir. Dedilər: "Xədicə Allaha iman gətirmiş ilk insan olmuşdur və bu rəydən heç kimi istisna etməmişlər".

İbn əl-Əsir "Usd əl-ğabə" əsərində (1/1337) demişdir: "Peyğəmbərin evləndiyi ilk qadın və müsəlmanların yekdil rəyi ilə İslamı qəbul etmiş ilk insan Xədicə olmuşdur. Heç bir kişi və ya qadın ondan öndə olmayıb".

İmam Nəvəvi (Allah ona rəhmət eləsin) demişdir: "Bu bir sıra alimlərin rəyidir".[172] Sonra sözünə davam edib deyir: "O, Peyğəmbərin ﷺ yükünü

[172] Bax: İmam Nəvəvinin "ət-Təqrib vat-təfsir limərifəti Sünən əl-Bəşir ən-Nəzir" əsəri (21-ci səh).

azaltmışdı, çünki o, hər dəfə bir şey eşitdikdə və ona cavab verə bilmədikdə, Xədicənin yanına gələr, o da ona ürək-dirək verərdi”.

Təbərani və əd-Dəuləbi yaxşı isnadla Aişədən rəvayət edirlər ki, “Allahın Elçisi ﷺ hər dəfə Xədicəni xatırlayanda onu tərifləyər və onun üçün bağışlanma diləyərdi. Bir dəfə yenə onu xatırladıqda qısqanclıq mənə üstün gəldi və mən dedim: “Allah ondan daha xeyirlisini sənə nəsib edib”. Bu vaxt gördüm ki, Allahın Elçisi ﷺ çox bərk əsəbiləşdi, mən də qorxub öz-özümə dedim: “Allahım, Peyğəmbərin ﷺ bu qəzəbini aradan qaldır, bir daha onun barəsində pis söz söyləməyəcəyəm”. Peyğəmbər ﷺ məni bu halda gördükdə dedi: “Sən nə dedin? Vallahi ki, insanlar mənə inanmadıqda o, mənə iman gətirdi, insanlar məni təkzib etdikdə o, məni təsdiq etdi. Səndən fərqli olaraq, mənim ondan övladlarım olub”. Sonra Peyğəmbər ﷺ məni bir ay tərk etdi.[173]

İbn Abbas رضي الله عنه rəvayət edərək demişdir: “Bir dəfə Allahın Elçisi ﷺ yerə dörd xətt çəkib soruşdu: “Bilirsinizmi bu nədir?” Dedilər: “Allah və Onun Elçisi daha yaxşı bilir”. Allahın Elçisi dedi: “Cənnət qadınlarının ən fəzilətlisi Xədicə bint Xuveylid, Fatimə bint

[173] Hədisi Təbərani “əl-Kəbir” əsərində (16/319) və əd-Dəuləbi “əz-Zurriyyətut-tahira” əsərində (170 rəvayət etmişlər.

Muhəmməd, Fironun xanımı Asiya bint Muzahim və Məryəm bint İmrandır".[174] Allah onların hər birindən razı olsun.

Xədicə hicrətdən dörd və ya beş il əvvəl, Meracdan üç il əvvəl, Ramazanın on yeddinci günündə vəfat etmişdir. Allahın Elçisi ﷺ onun məzarına daxil olmuşdu.[175] Həmin vaxt onun altmış beş yaşı var idi.[176]

Onun Cənnətlə müjdələnməsi barədə hədis İbn Əbu Əufədən, Əbu Hureyrədən, Aişədən, İbn Abbasdan, İbn Ömərdən, Fatimə əz-Zəhradan nəql olunmuşdur. Burada onlardan ən səhihini qeyd etməklə kifayətlənirəm:

İsmail ibn Əbu Xalid demişdir: "Mən Abdullah ibn Əbu Əufədən soruşdum: – Peyğəmbər ﷺ Xədicəni Cənnətdə bir evlə müjdələmişdirmi? Dedi: – Bəli. Onu Cənnətdə təmtəraqlı, yorğunluq olmayan, incidən hazırlanmış bir evlə müjdələmişdir".[177]

---

[174] Bax: Əhməd (2668), Təbəraninin "əl-Kəbir" əsəri (22/407) və Hakim (3/204).

[175] "Tabaqat İbn Səd" (8/18).

[176] Bax: "Siyar əlam ən-nubəla" (2/109), "əl-İsabə" (7/600), "Subul əl-hudə var-Raşəd" (11/157).

[177] Hədisi Buxari (1699), Muslim (2433), Əhməd (19151) və başqaları rəvayət etmişlər.

Suheyli "ər-Raudul-ənf" əsərində (1/414) demişdir: "Burada qəsr deyil, ev sözünün işlənməsi mövcud hala uyğun olaraq qeyd olunur. Çünki o, İslamın evdar qadını idi. İslamda heç kimin bir evi olmadıqda o, iman gətirməklə bir müsəlman evinə malik olmuşdu. Həmçinin o, Allahın Elçisinə ﷺ evlənməklə və ona rəğbət bəsləməklə İslam evinə malik olmuşdu. Ona görə bir əməlin mükafatı daha üstün olsa belə, həmin əməlin növünə uyğun verilir. Hədisdə mirvaridən deyil, incidən deyilir – baxmayaraq ki, mənaları eynidir. Lakin bu ləfzlə xüsusiləşməsi, qeyd edilmiş müxtəliflikdən irəli gəlir. Mükafatın əməlin ləfzinə uyğunlaşdırılması – başqa kişi və qadınlardan fərqli olaraq, mükafat sözü ilə yanaşı işlədilmişdir. Ərəblər keçmiş bir işi "inci əldə etmiş" adlandırırlar.

Bəlağət elminə görə, hədisin müxtəlif ləfzləri müxtəlif sözlərlə ifadə olunmuşdur".

## 23 – Rumeysa bint İmran ﵂

O, Ənəs ibn Malikin ﵁ anası Ummu Səlim bint Milhan ibn Xalid əl-Ənsariyyədir. Deyilənə görə, adı Səhlə və ya Ramilə, və ya Ramisə, və ya Məlikə və ya Ənisədir. Ona əl-Ğamisa, ər-Rumeysa da deyilir. Bu ləqəblə də məşhurlaşmışdır.

Fəzilətli səhabələrdəndir.

Cahiliyyət dövründə Malik ibn Nadrla evlənmiş və ondan Ənəsi dünyaya gətirmişdir. Ənsarlardan ilk əvvəl İslamı qəbul edənlərlə birlikdə müsəlman olmuşdur. Malik də bundan qəzəblənərək Şama gedir və orada da ölür. Sonra o, Əbu Talhəyə ərə gedir. Lakin İslamı qəbul edənədək onunla nikaha girmir. Belə ki, onunla nişanlanarkən o, müşrik idi.

Nəsai və başqaları onların evlilikləri barədə rəvayət nəql etmişlər. Ənəs demişdir: "Əbu Talhə Ummu Suleymlə nişanlanmışdı. Ummu Suleym ﵂ dedi: "Ey Əbu Talhə, sənin ibadət etdiyin ilah yerdən bitən ağacdan düzəlməyibmi? Sonra da filan həbəşi nəccar onu yonub düzəltməyibmi?" Dedi: "Bəli". Dedi: "Əgər filan həbəşinin yonduğu bir ağac parçasına ibadət edəcəksənsə, mənimlə dostluq etmə. Əgər sən İslamı qəbul etsən, səndən başqa bir şey tələb etmərəm". O, dedi: "Yaxşı, fikirləşərəm". O getdi, bir müddət sonra

da qayıdıb dedi: "Şəhadət veririəm ki, Allahdan başqa ibadətə layiq məbud yoxdur və Muhəmməd onun elçisidir". Dedi: "Ey Ənəs, Əbu Talhəni evləndir!".[178]

O, İslamı gözəl şəkildə qəbul etmiş və ondan çox sevdiyi övladını dünyaya gətirmişdi. Lakin övladı kiçik yaşlarında vəfat etmiş və o, buna görə çox kədərlənmişdi. Ona "quş saxlayan Əbu Umeyr" də deyirdilər. Daha sonra ondan Abdullah ibn Əbu Talhəni dünyaya gətirdi və ona bərəkət verildi. O da böyük alim İshaq ibn Abdullah ibn Əbu Talhənin atasıdır – on nəfər qardaşı da ondan elm almışdılar.[179]

Ummu Suleym ﵁ Allahın Elçisindən ﷺ bir sıra hədislər nəql etmişdir.

Olduqca zəkalı bir qadın idi. Əbu Nueym onu belə vəsf etmişdir: "O, müharibələr və tarixi hadisələrdə xəncərlə zərbələr endirərdi.[180]

Buxari və Muslimin "Səhih" əsərlərində Ənəsdən rəvayət olunur ki, Ummu Suleym və Aişə Uhud döyüşündə idilər. Onlar suqabılarını daşıyaraq insanlara su verirdilər.[181]

---

[178] "əs-Sünən əl-kubra" (5/179 – 5374).

[179] "əl-İstiab" (2/130). Müəllifin burada işarə etdiyi hədisi Buxari (5135) və Muslim (2144) rəvayət etmişlər.

[180] "Hilyətul-övliya" (2/57).

[181] Buxari (2724), Muslim (1811).

Onun Cənnətlə müjdələnməsi barədə xəbər Cabir ibn Abdullahdan və Ənəs ibn Malikdən nəql olunmuşdur. Burada Cabirdən nəql olunmuş hədislə kifayətlənəcəm:

Buxari və Muslim Cabirdən rəvayət edirlər ki, o demişdir: "Peyğəmbər ﷺ demişdir: – Mən Cənnətə daxil oldum və gördüm ki, Əbu Talhənin رضي الله عنه zövcəsi Rumeysa oradadır. Sonra ayaq səsləri eşitdim və soruşdum: "Bu kimdir?" Dedilər: "Bu Bilaldır". Sonra bir qəsr gördüm, həyətində bir yeniyetmə qız da var idi. Soruşdum: "Bu kimin üçündür?" Dedilər: "Öməndir". İstədim ki, oraya daxil olum və içərisinə baxım, ancaq sənin qısqanc olduğunu xatırladım". Ömər رضي الله عنه dedi: "Atam-anam sənə fəda olsun, ey Allahın Elçisi, heç səni qısqanarammı?"[182]

[182] Buxari (3456), Muslim (2456).

## 24 – Həfsa bint Ömər رضي الله عنها

O, Möminlərin anası Həfsa bint Ömər ibn əl-Xəttab ibn Nufeyl ibn Abdul-Uzza ibn Rabəh ibn Abdullah ibn Qurt ibn Rəzah ibn Adiy ibn Kəb ibn Luey ibn Ğalib ibn Fəhr əl-Quraşiyyə əl-Ədəviyyədir.

Mühacir qadınlardandır.

Allahın Elçisindən ﷺ öncə Xuneys ibn Huzafə əs-Səhminin zövcəsi idi. Xuneys Bədr döyüşündə iştirak edənlərdən biridir və Mədinədə vəfat etmişdir. Həfsa dul qaldıqda, Ömər Əbu Bəkrlə bu barədə danışaraq Həfsanı ona təklif etmişdi. Əbu Bəkr isə ona heç bir cavab verməmişdi. Ömər də bundan bərk qəzəblənmişdi. Peyğəmbərin ﷺ qızı Ruqayyə vəfat etdikdən sonra Ömər öz qızını Osmana təklif etdi. Osman dedi: "Hal-hazırda evlənmək istəmirəm". Sonra Ömər Allahın Elçisinin ﷺ yanına gedib Osmandan ona şikayət etdikdə Allahın Elçisi ﷺ dedi: "Həfsa Osmandan daha xeyirli birisi ilə evlənəcəkdir. Osman isə Həfsadan daha xeyirlisi ilə evlənəcəkdir". Sonra Allahın Elçisi ﷺ Ömərlə razılaşaraq Həfsaya nişanlandı və evləndi. Bir gün Əbu Bəkr Ömərlə qarşılaşdıqda ona dedi: "Mənə qəzəblənmə! Mən Allahın Elçisinin ﷺ Həfsanı xatırladığını eşitmişdim,

ancaq onun bu sirrini yayası deyildim. Əgər onu tərk etmiş olsaydı, mən onunla evlənərdim".[183]

Əksər alimlərə görə, Allahın Elçisi ﷺ onunla hicrətin üçüncü ilində evlənmişdir. Əbu Ubeydə demişdir: "Hicri tarixinin ikinci ilində, Aişədən sonra Allahın Elçisi ﷺ onunla evlənmişdir". Hicrətin 45-ci ilində vəfat etmişdir.[184]

Onun Cənnətlə müjdələnməsi barədə hədis Qeys ibn Zeyddən, Ömər ibn Xəttabdan, Ammar ibn Yasirdən, Sabitdən, Qatədədən, Həmiddən, o da Ənəsdən, Uqabə ibn Amir əl-Cuhənidən nəql olunmuşdur. Mən burada bunların ən səhihini qeyd etməklə kifayətlənəcəm:

Həmmad ibn Sələmə Əbu İmran əl-Cunidən, o da Qeys ibn Zeyddən rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Həfsanı bir dəfə boşamışdı. Onun iki dayısı – Osman ibn Məzun və Qudamə ibn Məzun onun

[183] Hədisi İbn Səd "ət-Tabaqat" əsərində (8/82) rəvayət etmişdir. Hədisin əsli "Səhih əl-Buxari"dədir (9/152, 153): "Nikah fəsli. İnsanın öz qızını və ya bacısını xeyirli bir insana evlənmək üçün təklif etməsi babı".

[184] Bax: Beyhəqinin Dəlail ən-nubuvva əsəri (8/463), əl-İstiab (2/48), Usd əl-Ğabə (3/331), əl-İsabə (7/581). Bax: Tarh ət-Təsrib (7/122). Burada Ömərin Həfsanı Əbu Bəkrə, sonra Osmana evlilik üçün təklif etməsi qeyd olunur. Bu isə Səhih əsərində nəql olunana ziddir.

yanına daxil oldular. O, ağlayaraq dedi: "Vallahi ki, Allahın Elçisi ﷺ məni bezməsi səbəbindən boşamayıb". Sonra Peyğəmbər ﷺ onun yanına daxil oldu, o da çarşabını örtdü. Peyğəmbər ﷺ dedi: "Cəbrail yanıma gəldi və mənə dedi: – Həfsanı geri qaytar. O, çoxlu oruc tutan, qalxıb namazlar qılan biridir. Həm də o, Cənnətdə sənin zövcən olacaqdır".[185]

[185] Hədisi İbn Səd (8/84), Təbərani (934), Hakim (4/15), əl-Bəlazəri "Ənsab əl-əşraf" əsərində (1/188), Haris öz "Müsnəd" əsərində ("Buğyatul-bahis", 1000), Əbu Nueym "əl-Mərifə" (5157) və "əl-Hilyə" əsərində (2/50) Həmmaddan rəvayət etmişlər. Heysəmi "əl-Məcmə" əsərində (9/245) demişdir: – Onun raviləri "Səhih" əsərinin raviləridir.

Hafiz "əl-Fəth" əsərində (14/482) demişdir: "Qeysin səhabə olub-olmaması arasında ixtilaf vardır".

Həmçinin bax: "Silsilətus-səhihə", 2007-ci hədis.

## 25 – Ammarın anası Sumeyyə bint Xubbat ﷺ

O, Əbu Huzeyfə ibn əl-Muğira əl-Məxzuminin azadlısı, Ammar ibn Yasirin anası Sumeyyə bint Xubbatdır.[186]

Allah yolunda əzab çəkmiş möminlərdən idi. İslamı Məkkədə ilk əvvəl qəbul edənlərdəndir. Allahın dinindən dönsün deyə, ona olmazın işgəncələr verilmiş, o isə onların tələblərini yerinə yetirməmişdi.

O, Əbu Huzeyfə ibn əl-Muğira əl-Məxzuminin kənizi idi. Yasir isə Əbu Huzeyfə ilə sövdələşməsi olan biri olduğu üçün Sümeyyəni onunla evləndirmişdi. Yasirdən o, Ammarı dünyaya gətirmişdi və Əbu Huzeyfə onu azad etmişdi. İslamı ilk əvvəl qəbul edənlərdəndir. Deyilənə görə, İslamı qəbul etmiş yeddinci adamdır.

Ona İzzət və Cəlal Sahibinin yolundan üz döndərsin deyə, ən şiddətli əzablar verilmişdi. O isə bütün bunlara səbir etmişdi. Sonda Əbu Cəhl onun yanına gəlmiş, nizəsini onun ürəyinə soxmuş, o da ölmüşdü. Allah ona rəhmət eləsin. O, İslamda ilk şəhiddir. Yaşlı və zəif bir qadın idi.

---

[186] Hafiz ibn Həcər "əl-İsabə" əsərində onun tərcümeyi-halında demişdir: – Xubbat sözündə qoşa b hərfi vardır və o, əlifsiz yazılır. Yə ilə də deyilir, yəni Sumeyyə bint Xubbat və ya Xayyat və ya xabt.

Rəvayət olunur ki, Əbu Cəhl öz nizəsini onun önünə soxaraq qətlə yetirmişdi. O, İslamda ilk şəhiddir. O, hicrətdən öncə qətlə yetirilmişdi.

İslamı qəbul etdiyini Məkkədə elan edən ilk insanlardan idi.

Mücahid demişdir: "Məkkədə İslamı qəbul edən yeddi nəfər bunlardır: Əbu Bəkr, Bilal, Xabbəb, Suheyb, Ammar və Sumeyyə. Peyğəmbərlə ﷺ Əbu Bəkrə qövmü qadağalar qoymuşdu. Başqalarına da dəmir zirehlər geyindirilərək günün altında işgəncə edilmişdi.[187] Əbu Cəhl də Sumeyyənin yanına gələrək onu nizə ilə öldürmüşdü.[188, 189]

Onun Cənnətlə müjdələnməsi barədə hədis bir-birini gücləndirən müxtəlif rəvayətlərlə varid olmuşdur. Bu rəvayətlər Osman ibn Əffandan, Cabirdən, Ummu Hanidən, Abdullah ibn Cəfərin mürsəlində, Yusuf ibn Malikdən, İbn İshaqdan və Mücahiddən nəql olunmuşdur. Mən onlardan ən səhih olanını qeyd etməklə kifayətlənəcəm:

---

187 Hədisi İbn Əbu Şeybə "əl-Musənnəf" əsərində (7/537) rəvayət etmişdir.

188 Hədisi İbn Əbu Şeybə "əl-Musənnəf" əsərində (8/329) rəvayət etmişdir.

189 Bax: İbn Sədin "ət-Tabaqat" əsəri (8/264), "Usd əl-Ğabə" (7/152, "əş-Şuəb" nəşriyyatı), "əl-İsabə" (7/712).

Əbu Zubeyr Cabirdən ﷺ rəvayət edir ki, bir dəfə Allahın Elçisi ﷺ Ammar və onun ailəsinə işgəncə verildiyi vaxt onun yanına gəldi və dedi: "Ey Ammar ailəsi, Yasirin ailəsi, müjdələr olsun, gedəcəyiniz yer Cənnətdir".[190]

[190] Hədisi Təbərani "əl-Əvsat" əsərində (1566), Əbu Nueym "əl-Mərifə" əsərində (6664) İbrahim ibn Əbdül-Əziz əl-Muqvimdən nəlq etmişdir. Həmçinin Beyhəqi ondan "əd-Dəlail" əsərində (2/282) İbrahim ibn İsmət əl-Ədldən rəvayət edir ki, əs-Sirri ibn Xuzeymə bizə demişdir... Həmçinin onu İbn Səd (3/249), İbn Əsakir (43/371) rəvayət etmişlər, onların üçü də demişdir: "Muslim ibn İbrahim demişdir, Hişam bizə nəql etmişdir...". Hakim demişdir: "Muslimin şərtinə müvafiqdir, lakin Buxari və Muslim bu hədisi rəvayət etməmişlər". Heysəmi (9/293) demişdir: "Raviləri səhih hədis raviləridir, yalnız İbrahim ibn Əbdül-Əziz əl-Muqvimdən başqa, o da etibarlı ravidir".

## 26 – Aişə bint əs-Siddiq ﵂

Hafiz əz-Zəhəbi (Allah ona rəhmət eləsin) demişdir: Möminlərin anası Aişə bint ən böyük Siddiq, İmam, Allahın Elçisinin ﷺ xəlifəsi Əbu Bəkr ibn Abdullah ibn Əbu Quhafə Osman ibn Amir ibn Amr ibn Kəb ibn Səd ibn Teyyim ibn Murra ibn Kəb ibn Luey əl-Quraşiyyə ət-Teymiyyə əl-Məkkiyyə ən-Nəbəviyyə.

Möminlərin anası, Peyğəmbərin ﷺ zövcəsi, ümmətin ən elmli qadınlarından biridir.

Anası Ummu Ruman bint Amir ibn Uveymir ibn Abdu-Şəms ibn İtab ibn Əzinə əl-Kinaniyyədir. Valideyinləri Aişə ilə birlikdə hicrət etmişdilər. Allahın Elçisi ﷺ onunla hicrət etməmişdən öncə, Siddiqa Xədicə bint Xuveylidin vəfatından sonra evlənmişdi. Bu da hicrətdən on aydan çox bir müddətdə baş vermişdir. Bəziləri bu evliliyin hicrətdən iki il öncə baş verdiyini də demişlər. Hicrətin ikinci ilinin Şəvval ayında, doqquz yaşında olarkən, Peyğəmbər ﷺ Bədr döyüşündən qayıtdıqdan sonra onunla birlikdə yaşamışdır.

O, Peyğəmbərdən ﷺ çoxlu mübarək elm rəvayət etmişdir. Ağbəniz və olduqca gözəl bir qadın idi. Ona

görə də ona əl-Humeyra (qırmızıyanaq) deyilirdi. Peyğəmbər ﷺ ondan başqa heç bir bakirə qadınla evlənməmiş, onun kimi heç bir qadını sevməmişdir. Muhəmmədin ümmətində, hətta ümumən qadınlar arasında ondan daha savadlı bir qadın tanımıram, baxmayaraq ki, Xədicənin özünəməxsus bir məqamı vardır. Onlardan hansı birinin daha əfzəl olduğunu düşünürəm. Təbii ki, sonda bir neçə səbəbdən dolayı Xədicənin daha əfzəl olduğu qənaətinə gəlirəm. Həmin səbəbləri burada qeyd etməyi lazım bilmirəm.

Əli ibn Zeyd ibn Cədan babasından, o da Aişədən رضي الله عنها rəvayət edir ki, o demişdir: "Mənə doqquz özəllik verilib ki, Məryəm bint İmrandan sonra heç bir qadına həmin özəlliklər verilməyib: Cəbrail mənim surətimdə nazil olmuş və Allahın Elçisinə ﷺ mənimlə evlənməyi buyurmuşdur, mənimlə bakirə olduğum halda evlənmişdir, məndən savayı heç bir qadınla bakirə olduğu halda evlənməyib, Peyğəmbər ﷺ ölərkən başı mənim qucağımda idi, onun məzarı mənim evimdə idi, mələklər mənim evimi dövrəyə almışdılar, mən onunla bir örtük altında olarkən ona vəhy nazil olmuşdur, mən onun dostunun, xəlifəsinin və siddiqinin qızıyam, paklığım barədə səmadan ayələr nazil olunmuşdur, gözəl bir insanın yanında gözəl bir həyat yoldaşı oldum. Mənə bağışlanma və gözəl bir

ruzi vəd olunmuşdur". Hədisi Əbu Bəkr əl-Acurri rəvayət etmişdir, isnadı yaxşıdır.[191]

Peyğəmbər ﷺ onunla Xədicənin ﵂ vəfatından sonra nikah bağlamışdı. Onunla Sevda ilə eyni vaxtda evlənmişdi. Sonra Sevda ilə üç il yaşadı. Bədr döyüşündən sonra Şəvval ayında isə Aişə ilə yaşadı. Ondan başqa bakirə qızla evlənməmişdir. Onu olduqca çox sevirdi və bunu büruzə də edirdi. Peyğəmbərin ﷺ sevdiyi bir zat yalnız yaxşı ola bilər.

Rəvayət olunur ki, Aişə ﵂ demişdir: "Aişənin evlilik günündə insanlar müxtəlif hədiyyələr gətirirdilər. Rəfiqələrim Ummu Sələmənin ﵂ yanına yığışdılar və ona dedilər: – Biz də Aişə xeyir istədiyi kimi, xeyir istəyirik. Allahın Elçisinə ﷺ de, insanlara əmr etsin ki, ona da müxtəlif hədiyyələr versinlər. Ummu Sələmə də bunu ona dedi. O isə susdu və cavab vermədi. Sonra ikinci dəfə onun yanına gedib dedi, lakin o yenə ona cavab vermədi. Üçüncü dəfə ona dedikdə, Peyğəmbər ﷺ dedi: "Ey Ummu Sələmə, Aişə xüsusunda mənə əziyyət vermə, vallahi ki, ondan başqa heç bir qadınla eyni örtüyün altında

---

[191] Hədisi İbn Əbu Yalə "Müsnəd" əsərində (8/90) rəvayət etmiş, Daraqutni də "İləl" əsərində (15/165) onu zəif hesab etmişdir.

olarkən mənə vəhy nazil olmamışdır." Səhihliyinə ittifaq edilmişdir.[192]

Onun verdiyi bu cavab ilahi əmr və ona olan sevgisi sayəsində Aişənin digər qadınlardan daha əfzəl olmasına dəlalət edir. Bu əmr onu sevməyinə səbəb olmuşdur. Asim ibn Kuleyb atasından rəvayət edərək demişdir: "Biz Əlinin yanında olarkən, o, Aişəni xatırlayaraq dedi: – Allahın Elçisinin ﷺ dostu idi". Zəhəbi demişdir: "Bu hədis həsəndir". Bunu möminlərin əmiri möminlərin anası Aişə barəsində demişdir. Baxmayaraq ki, onların arasında müəyyən qədər soyuqluq var idi. Allah onların hər ikisindən razı olsun.

Şəkk yoxdur ki, Aişə Bəsrəyə getdiyinə və Cəməl günündə iştirakına görə tamamilə peşman olmuşdu. Çünki o, bilmirdi ki, iş bu vəziyyətə gələ bilər. Amməra ibn Umeyrdən rəvayət olunur ki, bir nəfər Aişə barəsində demişdir: "O, Uca Allahın **"Evinizdə qərar tutun"**[193] ayəsini oxuduqda çarşabı islananadək ağlayardı".

Buxarinin "Səhih" əsərində Ammar ibn Yasirdən onun minbərdə belə dediyi rəvayət olunur: "Şübhəsiz

[192] Hədisi Buxari (2442) və Muslim (2442) rəvayət etmişlər.
[193] "əl-Əhzab" surəsi, 33.

ki, o (yəni Aişə), Peyğəmbərin ﷺ həm bu dünyada, həm də axirətdə zövcəsidir”.[194]

Əli ibn əl-Əqmər demişdir ki, Məsruq Aişə barəsində danışarkən deyərdi: “Siddiqin qızı Siddiqə, Allahın sevimlisinin sevimlisi, yeddi qat səmanın üzərindən təmizə çıxarılan mənə danışdıqda ona nə üçün inanmayım?”.[195]

Urva Aişədən rəvayət edir ki, o, yetmiş min sədəqə vermişdi, lakin geyiminin üstünə yamaq vurardı. Ummu Zura demişdir: “İbn Zubeyr رضي الله عنه Aişənin yanına iki ata yüklənmiş yüz min pul göndərir. O da bir qab gətirilməsini istəyir və həmin pulu insanlara paylamağa başlayır. Axşam düşdükdə dedi: “Ey cariyə, yeməyimi gətir”. Ummu Zura dedi: “Ey möminlərin anası, kaş ki, bir dirhəmlik bizə ət alaydın”. Dedi: “Məni qınama, yadıma salsaydın edərdim”.[196]

İbn Abbas demişdir: **“Günahsız qadınları zinada ittiham edənlər...”**[197] Aişə barəsində nazil olmuşdur.[198]

---

[194] əl-Buxari (6687).

[195] Bu hədisi Əbu Nueym başqa yolla Məsruqdan “əl-Hilyə” əsərində (2/44) rəvayət etmişdir. Onun ləfzi belədir: “Siddiqin qızı Siddiqə, Allahın sevimli qulu, Allahın kitabında təmizə çıxarılmış mənə rəvayət etmişdir...”.

[196] İbn Sədin “ət-Tabaqat” əsəri (6/67), “Hilyətul əvliya” (2/47).

[197] “ən-Nur” surəsi, 23.

Qeys demişdir: "Aişə ﷺ öz evində dəfn olunmağı düşünürdü. O dedi: – Mən Allahın Elçisindən sonra yeni işlər görmüşəm, məni onun zövcələri ilə birlikdə dəfn edin".[199] Beləcə o, Baqi məzarlığında dəfn olundu.

Zəhəbi demişdir: "Yeni işlər" dedikdə, Cəməl gününü qəsd edirdi, çünki o, bütünlüklə buna görə peşman olmuş və tövbə etmişdi – baxmayaraq ki, o, bu əməlini xeyir məqsədilə etmişdi. Talhə ibn Ubeydullah, Zubeyr ibn əl-Avvam və bir sıra böyük səhabələr də onun kimi ictihad etmişdilər. Allah onların hər birindən razı olsun.

İbn Əbu Atiq demişdir ki, Aişə dedi: "İbn Ömər buradan keçsə, onu mənimlə görüşdürün". O gəldikdə, dedilər: "Budur İbn Ömər". Dedi: "Ey Əbu Abdur-Rahmən, sənin mənim yolumu kəsib getməyimi qadağan etməyinə nə mane oldu?" O, İbn Zubeyri nəzərdə tutaraq dedi: "Gördüm ki, bir kişi səninlədir".[200]

---

198 əl-Hakim (4/10). O demişdir: "Bu hədisin isnadı səhihdir, lakin Buxari və Muslim onu rəvayət etməmişlər".

199 İbn Sədin "ət-Tabaqat" əsəri (8/74), Hakimin "əl-Mustədrak" əsəri (4/7). Hakim demişdir: "Bu hədis Buxari və Muslimin şərtlərinə görə səhihdir, lakin onlar onu rəvayət etməmişlər".

200 Hədisi İbn Abdul-Bərr "əl-İstiab" əsərində (1/275) və İbn Əsakir "ət-Tarix" əsərində (31/110) rəvayət etmişlər.

Aişə, ən səhih rəyə görə hicrətin əlli yeddinci ilində vəfat etmiş və Baqi məzarlığında dəfn olunmuşdur. O, ən məşhur rəyə görə vəfat edərkən altmış üç yaşında idi.[201]

Onun Cənnətlə müjdələnməsi barədə xəbər ondan çox mənbədən – Abdur-Rahmən ibn Kəb ibn Malik Aişədən, Muslim əl-Buteynin mürsəlindən, Əbul-Ənbəs Səid ibn Kəsir öz atasından, İbn Abbasdan məvquf hədis kimi, Əbu Vail Ammar ibn Yasirdən, Qasim ibn Muhəmməd Aişədən, Musab ibn İshaqdan, Əsvəd ibn Yeziddən, Əbu Bəkr ibn Abdur-Rahmən Aişədən, Abdullah ibn Ziyad əl-Əsədi Ammar ibn Yasirdən, Damira ibn Həbib Aişədən, Arib ibn Həmiddən, Amr ibn Ğalib Ammardan, İbn Əbu Muleykə Aişədən varid olmuşdur. Mən onlardan ən səhih olanını qeyd etməklə kifayətlənəcəm:

Abdullah ibn Ziyad əl-Əsədidən rəvayət olunur ki, o demişdir: "Talhə, Zubeyr və Aişə Bəsrəyə gedərkən Əli Ammar ibn Yasirlə Həsən ibn Əlini onların yanına göndərdi. Onlar Kufədə bizim yanımıza gəldilər və minbərə çıxdılar. Həsən ibn Əli minbərdə ondan bir qədər yuxarıda idi, Ammar isə Həsəndən bir qədər aşağıda dayanmışdı. Biz onların ətrafına

[201] Bax: "Siyar əlam ən-nubəla" (2/135), ixtisarla.

toplaşdıq. Mən Ammarın belə dediyini eşitdim. "Aişə Bəsrəyə doğru hərəkət edir. Vallahi ki, o, Peyğəmbərinizin ﷺ həm bu dünyadakı, həm də axirətdəki zövcəsidir. Lakin Uca və Böyük Allah sizi imtahana çəkir ki, görsün, ona (Əliyə) itaət edəcəksiniz, yoxsa ona (yəni Aişəyə)". Başqa bir rəvayətdə isə deyilir: "O, (yəni Aişə) həm bu dünyada, həm də axirətdə onun zövcəsidir".[202]

[202] Hədisi Buxari öz "Səhih"ində (6687), Tirmizi (3889) və Təbərani "əl-Kəbir" əsərində (19054) rəvayət etmişlər.

## 27 – Fatimə bint Muhəmməd رضي الله عنها

O, Fatimə əz-Zəhra bint Rəsulullahdır رضي الله عنها.

Peyğəmbərin ﷺ ciyərparəsi və zamanında bütün xanımların rəhbəridir. Peyğəmbərin bir parçası, atasının qızı idi. Məxluqatın rəhbəri Əbul-Qasim Muhəmməd ibn Abdullah ibn Abdul-Muttalib ibn Haşim ibn Abdu Manaf əl-Quraşiyyə əl-Haşimiyyə Rəsulullahın qızı, Həsənlə Hüseynin anasıdır.

Övladları arasında Peyğəmbər ﷺ onu özəlliklə sevirdi. O, onun ən kiçik qızı idi. Peyğəmbər ﷺ ona müjdə vermişdi ki, ailəsindən ona birinci qovuşan o olacaqdır. O, dünya qadınlarının ən xeyirlilərindən olmaqla yanaşı, həm də bu ümmətin və Cənnət qadınlarının rəhbəridir. O, pak, təmiz və iffətli birisi idi. O qəzəbləndikdə, Allah da qəzəblənər, razı qaldıqda isə Allah da razı qalardı. O, ağrı duyduğunda Peyğəmbər də ağrı duyar, əziyyət çəkdikdə, Peyğəmbər də əziyyət çəkərdi.

Peyğəmbərlikdən azacıq öncə anadan olmuşdur.

İmam Əli ibn Əbu Talib Bədr döyüşündən bir qədər sonra, hicrətin ikinci ilinin Zul-qadə ayında onunla evlənmişdir.

İmam İbn Abdul-Bərr demişdir: "Uhud döyüşündən sonra onunla birlikdə yaşamışdır".

Onun Əlidən Həsən, Hüseyn, Muhsin, Ummu Kulsum və Zeynəb adlı övladları olmuşdu. Peyğəmbər ﷺ onu çox sevir, ona yaxşılıqlar edir və onunla sevinərdi.

Onun fəzilətləri olduqca çoxdur. O, olduqca səbirli, dindar, xeyirxah, haramlardan çəkinən, aza qane olan və Allaha şükür edən birisi idi. Peyğəmbər ﷺ vəfat etdikdə buna görə çox kədərlənib ağladı və dedi: "Atacan! Cəbrailə kədərimizi bildiririk! Atacan! Onu çağıran Rəbbinə cavab verdi! Atacan! Sığınacağı Firdovs cənnətləridir!" Dəfn olunduqdan sonra isə belə dedi: "Ey Ənəs, Rəsulullahın üzərinə torpaq tökməyə necə əliniz gəldi?"[203]

Peyğəmbər ﷺ xəstə ikən ona belə demişdi: "Bu xəstəlikdən vəfat edəcəyəm". Fatimə رضي الله عنها də ağlamağa başladı. Sonra ona xəbər verdi ki, ailəsindən ona qovuşacaq ilk adam o olacaqdır və o, bu ümmətin qadınlarının rəhbəridir. Bu sözlərə Fatimə gizlicə gülümsəmişdi. Peyğəmbər ﷺ vəfat etdikdən sonra

---

203 Hədisi Buxari öz "Səhih" əsərində (4193) rəvayət etmişdir.

Aişə ondan bu barədə soruşmuş, o da həmin sirri ona açmışdı.[204]

Aişə deyir: “Fatimə gəldikdə baxdım ki, onun yerişi Allahın Elçisinin ﷺ yerişinə bənzəyir. Aişə də onun üçün qalxıb dedi: “Xoş gəldin, qızım”.[205]

Atası vəfat etdikdə Fatimə ondan miras qalmasına ümid etdi. Gəlib Əbu Bəkr əs-Siddiqdən həmin mirası tələb etdi. Əbu Bəkr isə Peyğəmbərdən ﷺ belə eşitdiyini ona söylədi: “Biz miras qoymarıq, qoyub getdiyimiz sədəqədir”.[206] Fatimə ondan inciyir, bir qədər sonra da xəstələnir.

İsmail ibn Əbu Xalid Şəbidən rəvayət edərək demişdir: “Fatimə رضي الله عنها xəstələndikdə Əbu Bəkr رضي الله عنه onun evinə gəlib içəri daxil olmaq üçün izin istədi. Əli رضي الله عنه dedi: “Ey Fatimə, Əbu Bəkrdir, sənin yanına daxil olmaq üçün izin istəyir”. Soruşdu: “Ona izin verməyimi istəyirsənmi?” Dedi: “Bəli”. O da izin verdi. Əbu Bəkr onun yanına daxil olub onun könlünü almağa başladı. Dedi: “Vallahi ki, mən evi, malı, mülkü, ailəmi, qohumlarımı yalnız Allah və Onun Elçisi, bir də siz əhli-beytin razılığı üçün tərk etmiş-

[204] Bax: Buxari (3426), Muslim (2450).
[205] Bax: Buxari (3426), Muslim (2450).
[206] Hədisi Buxari (3508) rəvayət etmişdir.

dim". Sonra yenə onun könlünü almağa başladı və Fatimə ondan razı qaldı.[207]

Zəhəbi demişdir: "Fatimə Peyğəmbərin ﷺ vəfatından beş ay və ya buna bənzər bir müddət sonra, iyirmi dörd-iyirmi beş yaşında vəfat etmişdir. Çox deyilir ki, o, iyirmi doqquz yaşında vəfat etmişdir, lakin birinci rəy daha səhihdir".

O, bacıları – Əbul-As ibn ər-Rabinin zövcəsi Zeynəbdən, habelə Osman ibn Əffanın zövcəsi Ruqayyədən yaşca kiçik idi.

Peyğəmbərin ﷺ nəsli məhz Fatimədən davam etmişdir. Çünki Peyğəmbərin ﷺ namazda qucağında tutduğu Zeynəbin qızı Umamə Əli ibn Əbu Talibə ərə getmişdi. Ondan sonra isə səhabələrdən olan Muğira ibn Nəufəl ibn əl-Haris ibn Abdul-Muttalib əl-Haşimiyə ərə getmişdi. Ondan övladları dünyaya gəlmişdi. Zubeyr ibn Bəkkar demişdir: "Zeynəbdən sonra uşaqlar da vəfat etmişdilər".

---

[207] Hədisi Beyhəqi "Sünən əl-kubra" əsərində (6/301) Şəbidən rəvayət etmiş, sonra demişdir: "Bu mürsəl səhihdir". Hafiz "əl-Fəth" əsərində (9/345) demişdir: "Mürsəl hədis olsa belə, isnadı Şəbiyə qədər səhihdir". Zəhəbi onun Əlidən icazə alması barədə demişdir: "O, Sünnəyə riayət etmişdir. Belə ki, ərinin izni olmadan evinə heç kəsi buraxmamışdır".

Əbul-Buxturi deyir ki, Əli anasına demişdi: "Fatimənin xaricdəki işlərinə yardım et, o da sənə ev işlərində – xəmir yoğurmaq, çörək bişirmək və un üyütmək kimi işlərdə yardım edər".[208]

Aişə ﵂ demişdir: "Fatimədən daha doğru danışan birisini görməmişəm. Yalnız övladı onun kimi ola bilər".[209, 210]

Fatimənin Cənnətlə müjdələnməsi barədə hədis Aişədən, Hüzeyfədən, Ummu Sələmədən, İbn Abbasdan, Əbu Hureyradan və Əbu Səid əl-Xudridən nəql olunmuşdur. Burada Aişənin və Hüzeyfənin hədisləri ilə kifayətlənəcəm:

Amir əş-Şabi Məsruqdan, o da Aişədən rəvayət edir ki, o demişdir: "Bir dəfə Fatimə ﵂ yol gedirdi. Onun yerişi Peyğəmbərin ﷺ yerişinə çox bənzəyirdi. Peyğəmbər ﷺ dedi: "Xoş gəldin, qızım". Sonra da onu gah sağ, gah da sol tərəfində oturtdu. Sonra onunla gizlincə söhbət etdi və Fatimə ağladı. Mən ondan soruşdum: "Niyə ağlayırsan?" Sonra yenə

---

[208] Hədisi İbn Əbu Şeybə "əl-Musənnəf" əsərində (8/156) rəvayət etmişdir. Orada "xaricdə" sözündən sonra belə bir əlavə vardır: "su və digər ehtiyaclarında".

[209] Hakimin "əl-Mustədrak" əsəri (3/175). Bu hədis Muslimin şərtinə uyğundur, lakin Buxari və Muslim onu rəvayət etməmişlər.

[210] Bax: "Mərifətus-sahəbə" (22/196), "Siyar əlam ən-nubəla" (2/118), "əl-İsabə" (8/53).

onunla gizlincə danışdı və Fatimə güldü. Mən dedim: "Bu günkü sevincə bənzər bir kədər görməmişəm". Sonra ondan Peyğəmbərin ﷺ nə söylədikləri barədə soruşdum, o isə dedi: "Mən əsla Peyğəmbərin sirrini ifşa etmərəm". Peyğəmbərin ﷺ vəfatından sonra ondan yenə bu barədə soruşdum. O dedi: "O, mənə gizlincə dedi ki, "Cəbrail hər il Quranı mənə bir dəfə ərz edirdi, bu il isə Quranı mənə iki dəfə ərz etdi. Düşünürəm ki, əcəlim yaxınlaşıb. Ailəmdən mənə ilk əvvəl qovuşacaq kəs sən olacaqsan". Mən də ağladım. Sonra dedi: "Məgər istəmirsən ki, Cənnət qadınlarının və ya mömin qadınların rəhbəri olasan?"Mən də buna güldüm".[211]

Zirr ibn Hubeyş Huzeyfədən رضي الله عنه rəvayət edərək demişdir ki, anam məndən soruşdu: "Peyğəmbərlə ﷺ nə vaxtdan bəri birlikdəsən?" Mən dedim ki, filan vaxtdan bəri. O da məni təhqir edərək ağır sözlər işlətdi. Mən ona dedim: "Məni tərk et, gedib Peyğəmbərlə ﷺ birlikdə məğrib namazını qıldıqdan sonra həm özüm, həm də sənin üçün bağışlanma diləyəcəyəm". Sonra mən gedib Peyğəmbərlə ﷺ birlikdə məğrib namazını qıldım. Sonra Peyğəmbər işa namazını qıldı və çıxıb getdi, mən də onu izlədim. Bir nəfər ona yaxınlaşıb nə isə istədi, o ona yardım etdi, o da

---

[211] Hədisi Buxari (3623) və Muslim (2450) rəvayət etmişlər.

çıxıb getdi. Mən yenə onu izlədim. Mənim səsimi eşitdikdə dedi: “Bu kimdir?” Dedim: “Huzeyfədir”. Soruşdu: “Sənə nə olub?” Mən də hal-qəziyyəmi ona danışdım. Dedi: “Allah səni də, ananı da bağışlasın”. Sonra dedi: “Mənim yanıma gəlib yardım istəyənin kim olduğunu gördünmü?” Dedim: “Gördüm”. Dedi: “O, mələklərdən biri idi. Bu gecədən öncə heç vaxt yerə enməmişdi. Rəbbindən izn istəmişdi ki, gəlib mənə salam versin. Sonra da mənə müjdə verdi ki, Həsən və Hüseyn Cənnət cavanlarının rəhbəri olacaqlar, Fatimə isə Cənnət qadınlarının rəhbəri olacaqdır”.[212]

---

[212] Hədisi Əhməd (23377), Tirmizi (3781), Nəsai “əl-Kubra” əsərində (8298), əl-Hakim (3/164) Məysəra ibn Həbib ən-Nəhdi əl-Minhal ibn Amr Zirrdən rəvayət etmişlər. Sonra da hədisi zikr etdi. Əbu İsa Tirmizi demişdir: “Bu hədis bu formada həsən ğaribdir və bunu yalnız İsraildən eşitmişik”. Hafiz “Fəthul-Bari” əsərində (11/68) demişdir: “İsnadı yaxşıdır”.

## 28 – Ummu Zufər əl-Həbəşiyyə ﵂

O, Ummu Zufər əl-Həbəşiyyə əs-Səudə ət-Tavilədir. Onun adı Buxarinin "Səhih" əsərində (5328) qeyd olunur. Deyilənə görə onun adı Səiradır. Bəziləri isə onu Şəqira adlandırmışlar. Belə deyilir ki, o, Xədicənin yardımçısı Ummu Zufərdir.[213]

Onun Cənnətlə müjdələnməsi barədə hədis İbn Abbasdan və Əbu Hureyradan nəql olunmuşdur. Mən burada İbn Abbasın hədisi ilə kifayətlənirəm:

Rəvayət olunur ki, Əta ibn Əbu Rabəh demişdir ki, İbn Abbas ﵄ mənə dedi: "Sənə Cənnət əhlindən olan bir qadın göstərimmi?" Dedim: "Bəli". Dedi: "Bu qara qadın. Bir dəfə o, Peyğəmbərin ﷺ yanına gəlib demişdi: "Mən hərdən huşumu itirirəm və üstüm açılır. Mənim üçün Allaha dua et". Peyğəmbər ﷺ dedi: "İstəyirsən səbir et və Cənnəti qazan, istəyirsənsə də Allaha dua edim, sənə şəfa versin". Dedi: "Səbir edərəm. Ancaq üstüm açılır, dua et ki, üstüm açılmasın". Peyğəmbər ﷺ də onun üçün dua etdi".[214]

---

[213] Bax: Xatib əl-Bağdadinin "əl-Əsma əl-mubhəmə fil-ənbəil muhkəmə" əsəri (11-ci səh), "əl-İstiab" (2/129), "Usd əl-Ğabə" (1/1438), "əl-İsabə" (8/210 və 211).

[214] Hədisi Buxari (3528), Muslim (2576), Tirmizi (3578), Nəsai "əl-Kubra" əsərində (7490) və Əhməd (3240) Ətadan, o da İbn Abbasdan rəvayət etmişlər.

## Araşdırmanın nəticələri

Əvvəldə və sonda, zahirdə və batində Allaha həmd olsun ki, mənə bu araşdırmanı bitirməyi nəsib etdi. Onlar peyğəmbərlərdən və elçilərdən sonra ən xeyirli nəslin nümayəndələridir.

Bu araşdırmanın mövzusu bir məclisdə Cənnətlə müjdələnmiş on nəfərdən savayı Cənnətlə müjdələnmiş digər səhabələr barədədir. Uzun araşdırmadan sonra on nəfərdən başqa cənnətlə müjdələnən həmin səhabələrin sayının 48 olması qənaətinə gəldim. Ancaq həmin hədislərin səhihliyini yoxladıqdan sonra onlardan yalnız 28-nin sabit olması aydın oldu. Müjdələnməsi sabit olmayan səhabələrin sayı isə 20-dir. Mən bu araşdırmada yalnız müjdələnmə xəbəri səhih olanlarla kifayətlənirəm. Kitabın müqəddiməsində mən müjdələnməsi səhih olmayanların da adlarını qeyd etdim. Şübhəsiz ki, bir səhabənin müjdələnməsi barədə varid olan rəvayətlər bəzən ondan artıq olur. Bu səbəbdən müəllif yalnız bir rəvayəti qeyd etməklə kifayətlənmişdir. Lakin bu araşdırma bir sıra məsələləri qabardır ki, onların da araşdırılmasına

---

Hədisin sonunda Buxari İbn Cureycdən rəvayət etmişdir ki, Əta ona demişdir ki, o, həmin hündürboy qara qadın olan Ummu Zufəri Kəbənin örtüyü üzərində görmüşdü.

ehtiyac vardır. Misal üçün, səhabələrin bir-birindən daha fəzilətli olmaları, ümmətin xeyirxah olmasına şahidlik etdikləri kəslərin Cənnətlik olmaları, İslam əhlindən döyüş meydanında ölənlərin şəhid olmalarına hökm vermək kimi məsələlər.

Uca Allahdan diləyirəm ki, bizi Nəim cənnətlərində onlara qovuşdursun. Mənə, valideyinlərimə, şeyxlərimə, ailəmə və müsəlmanlara gözəl sonluq nəsib etsin. Həmçinin İzzət və Cəlal Sahibi Allahdan müvəffəqiyyət və doğruluq, hidayət və dürüstlük diləyirəm.

Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinə salavat və salam olsun.

# Araşdırmanın mənbələri

1. Şeyx Saleh ibn Əbdül-Əziz Ali Şeyxin "İthaf əs-sail bimə fit-tahaviyyəti min məsail" əsəri.

2. Əhməd ibn Amr ibn əd-Dahhək Əbu Bəkr əş-Şeybaninin "əl-Əhad val-məsani" əsəri. "Dar ən-nəşr", "Dar ər-rayə" – ər-Riyad, h.1411 (m.1991), I nəşr. Təhqiq: Dr. Basim Feysal Əhməd əl-Cəvabira.

3. Əbu Abdullah Muhəmməd ibn Abdul-Vahid ibn Əhməd əl-Hənbəli əl-Məqdisinin "əl-Əhadis əl-muxtəra" əsəri. "Dar ən-nəşr", "ən-Nəhdal hədisə" kitabxanası – Məkkə, h.1410, I nəşr. Təhqiq: Abdul-Malik ibn Abdullah ibn Duheyş.

4. Şeyx Muhəmməd Nasirəddin əl-Albaninin "Əhkam əl-cənaiz" əsəri. "əl-Məktəb əl-İslami" nəşriyyatı, Beyrut.

5. İmam Buxarinin "əl-Ədəb əl-mufrad" əsəri. Təqdim: Kamal Yusuf əl-Hut, "Aləm əl-kutub" nəşriyyatı, Beyrut, I nəşr, h.1404 (m.1984).

6. ən-Nəvəvinin "İrşad tulləb əl-həqaiq ilə mərifəti sunəni xayril xaləiq əsəri". Təhqiq: Abdul-Bari əs-Sələfi, "əl-İman" kitabxanası – Mədinə, I nəşr, h.1408.

7. Yusuf ibn Abdullah ibn Muhəmməd ibn Abdul-Bərrin "əl-İstiab fi mərifətil-əshab" əsəri. "Dar əl-ceyl" nəşriyyatı – Beyrut, h. 1412, I nəşr. Təhqiq: Əli Muhəmməd əl-Bicavi.

8. İzzəddin ibn əl-Əsir Əbul-Həsən Əli ibn Muhəmməd əl-Cəzərinin "Usd əl-ğabə fi mərifətis-sahəbə" əsəri. "Dar ət-turas əl-ərəbi" nəşriyyatı – Beyrut, h.1417 (m.1996), I nəşr. Təhqiq: Adil Əhməd ər-Rifai.

9. Əhməd ibn Əli ibn Həcər Əbul-Fadl əl-Əsqəlani əş-Şafiinin "əl-İsabə fi təmyiz əs-sahəbə" əsəri. "Dar əl-ceyl" nəşriyyatı –

Beyrut, h.1412 (m.1992), I nəşr. Təhqiq: Əli Muhəmməd əl-Bicavi.

10. Şeyx Hafiz ibn Əhməd əl-Hukminin “Əlam əs-sünnə əl-mənşura” əsəri. “əs-Səvadi” kitabxanası – Ciddə, II nəşr, h.1408.

11. Xeyrud-din əz-Zərəklinin “əl-Əlam qamus təracim əl-əşhər ər-rical van-nisa minəl-ərabi val-mustəribin val-mustəşriqin” əsəri. II nəşr, 1989. “əl-İlmu lil-məlayin” nəşriyyatı, Beyrut.

12. İbn Buşranın “Amali” əsəri.

13. əl-Bəlazərinin “Ənsab əl-əşraf” əsəri.

14. Əbu Muhəmməd əl-Bəğavinin “əl-Ənvar fi şəmail ən-nəbi əl-muxtar” əsəri.

15. İmam Əbu Bəkr Muhəmməd ibn İbrahim ibn əl-Munzir ən-Nisaburinin “əl-Əvsat fis-sünəni val-icma val-ixtilaf” əsəri. Təhqiq: Sağir Əhməd Muhəmməd Hənif. “Taybə” nəşriyyatı, ər-Riyad, I nəşr, h.1413.

16. İsmail Başa ibn Muhəmməd əl-Bağdadinin “İydah əl-Məknun fiz-zeyli alə kəşfiz-zunun” əsəri. “əl-Ulum əl-hədisə” nəşriyyatı, Beyrut.

17. Muhəmməd ibn İshaq ibn Məndənin “əl-İman” əsəri. “ər-Risalə” müəssisəsi – Beyrut. Təhqiq: Dr. Əli ibn Muhəmməd ibn Nasir əl-Fəqihi.

18. Əbu Bəkr Əhməd ibn Ömər əl-Bəzzarın (hicri 292-ci ildə vəfat etmişdir) “Musnəd əl-Bəzzar” adı ilə məşhur olan “əl-Bəhruz zəxxar” əsəri. Təhqiq: Məhfuzur-Rahmən Zeynullah, “əl-Ulumu val-hikəm” nəşriyyatı, Mədinə, I nəşr, h.1409 (m.1988).

19. Hafiz İbn Kəsirin “əl-Bidayə van-nihayə” əsəri. “əl-Kutub əl-ilmiyyə” nəşriyyatı, Beyrut, IV nəşr, h.1408.

20. Haris ibn Əbu Usəmə / Hafiz Nuruddin əl-Heysəminin “Buğyətul-bahis an zəvaid müsnəd əl-haris” əsəri. “Xidmətus-sünnə vas-siratun-nəbəviyyə” nəşriyyatı – Mədinə. Təhqiq: Dr. Hüseyn Əhməd Saleh əl-Bəkri.

21. Əbu Nueym Əhməd ibn Abdullah ibn Mehran əl-Mehrani əl-İsbahaninin “Tarix İsbahan” əsəri. “əl-Kutub əl-ilmiyyə“ nəşriyyatı – Beyrut, h.1410 (m.1990), I nəşr. Təhqiq: Seyyid Kəsravi Həsən.

22. Muhəmməd ibn Cərir ət-Təbəri Əbu Cəfərin “Tarixul-uməmi val-muluk” əsəri. “əl-Kutub əl-ilmiyyə” nəşriyyatı – Beyrut.

23. Əbu Zeyd Ömər ibn Şibbə ən-Numeyri əl-Bəsrinin “Tarix əl-Mədinə əl-munəvvərə” əsəri. “əl-Kutub əl-ilmiyyə” nəşriyyatı – Beyrut, h.1417 (m.1996). Təhqiq: Əli Muhəmməd Dəndal və Yasin Sadəddin Bəyan.

24. Əhməd ibn Əli əl-Xatib əl-Bağdadinin (hicri 463-cü ildə vəfat etmişdir) “Tarixu Bağdad av Mədinətus-sələm” əsəri. “əl-Kutub əl-ilmiyyə” nəşriyyatı – Beyrut.

25. Əbul-Qasim Əli ibn əl-Həsən ibn Hibətullah ibn Abdullah əş-Şafiinin “Tarixu Mədinəti Diməşqi va zikru fadlihə va təsmiyətu mən həlləhə minəl əmasil” əsəri. “əl-Fikr” nəşriyyatı – Beyrut, m.1995. Təhqiq: Muhibbud-din Əbu Səid Ömər ibn Ğaramə əl-Umari.

26. əs-Səxavinin “ət-Tuhfətul-lətifə fi tarix əl-ədinətuş-şərifə” əsəri.

27. Abdul-Kərim ibn Muhəmməd ər-Rafiinin “ət-Tədvin fi axbar Qazvin” əsəri. Təhqiq: Əzizullah əl-Ətardi, h.1408, “əl-Kutub əl-ilmiyyə” nəşriyyatı – Beyrut.

28. Şeyx Abdur-Razzəq əl-Abbadın “Təzkiratul-mutəsi şərhu əqidətul hafiz Abdul-Ğani əl-Məqdisi” əsəri.

29. Abdul-Azim ibn Abdul-Qavi əl-Munziri Əbu Muhəmmədin “ət-Tərğib vat-tərhib minəl-hədis əş-şərif” əsəri. “əl-Kutub əl-ilmiyyə” nəşriyyatı – Beyrut, h.1417, I nəşr. Təhqiq: İbrahim Şəmsud-din.

30. Əbu Nueym əl-İsbahaninin “Təsmiyətu mə ruviyə anil-fadl ibn Dukeyn” əsəri.

31. Əbul-Fida İsmail ibn Ömər ibn Kəsir əl-Quraşi əd-Diməşqinin (hicri 774-cü ildə vəfat etmişdir) “Təfsir əl-Quran əl-azim” əsəri. Sami ibn Muhəmməd Sələmə, “Dar ət-Taybə” nəşriyyatı.

32. Əhməd ibn Əli ibn Həcər Əbul-Fadl əl-Əsqəlani əş-Şafiinin “Təqrib ət-Təhzib” əsəri. “Dar ər-Raşid” nəşriyyatı – Suriya, h.1406 (m.1986), I nəşr. Təhqiq: Muhəmməd Avvama.

33. Əhməd ibn Əli ibn Həcər Əbul-Fadl əl-Əsqəlaninin “Təlxis əl-həbir fi əhadis ər-rafii əl-kəbir” əsəri. Mədinə şəhəri, h.1384 (m.1964). Təhqiq: Seyyid Abdullah Haşim əl-Yəmani əl-Mədəni.

34. Cəmaləddin Əbul-Fərac Abdur-rahmən ibn əl-Cəuzinin “Təlqih fuhum əhlil-əsər fi uyunut-tarix vas-siyar” əsəri. “Dar əl-Arqam ibn Əbi Ərqam” nəşriyyatı – Beyrut, 1997-ci il nəşri.

35. Əbu Cəfər Muhəmməd ibn Cərir ibn Yəzid ət-Tabərinin “Təhzib əl-əsar va tafsil əs-sabit an rasulilləhi minəl-əxbar” əsəri. Təhqiq: Mahmud Muhəmməd Şakir, “əl-Mədəni” mətbəəsi – Qahirə.

36. Muhyiddin Əbu Zəkəriyyə ən-Nəvəvinin “Təhzib əl-əsma val-luğat” əsəri. “əl-Kutub əl-ilmiyyə” nəşriyyatı – Beyrut.

37. Muhəmməd ibn İsmail Əbu Abdullah əl-Buxari əl-Cufinin “əl-Cami əs-səhih əl-muxtəsar” əsəri. “İbn Kəsir”, əl-Yəmama – Beyrut, h.1407, III nəşr. Təhqiq: Mustafa dib əl-Buğa, Muhəmməd Duad Abdul-Baqinin rəqəmlədiyi nüsxə.

38. Əbu İsa Muhəmməd ibn İsa ibn Sura ət-Tirmizi (hicri 209-279-cu il). Təhqiq: Əhməd Muhəmməd Şakir. “əl-Kutub əl-ilmiyyə” nəşriyyatı – Beyrut.

39. Abdur-Rahmən ibn Əbu Hatim Muhəmməd ibn İdris Əbu Muhəmməd ər-Razi ət-Təmiminin “əl-Cərhu vat-tədil” əsəri. “İhya ət-turas əl-arabi” nəşriyyatı – Beyrut, h.1271 (m.1952), I nəşr.

40. Əbu Bəkr Əhməd ibn Cəfər ibn Həmdan ibn Malik ibn Şəbib əl-Bağdadinin “Cuzul-əlf dinar” əsəri, o da “Favaid əl-muntəqa val-əfrad əl-ğaraib əl-hisanın” beşincisidir. “ən-Nəfais” nəşriyyatı – Küveyt. Təhqiq: Bədruddin Abdullah əl-Bədr.

41. İmam Abdullah ibn Mübarəkin “əl-Cihad” əsəri. “ət-Tunisiyyə” nəşriyyatı – Tunis, m.1972. Təhqiq: Nəzih Həmmad.

42. Əbu Nueym əl-İsfahaninin “Hilyətul-əvliya va tabəqatul-əsfiya” əsəri. “əl-Kutub əl-arabi” nəşriyyatı – Beyrut, h.1405. IV nəşr.

43. Əbu Abdullah əl-Buxari əl-Cufinin “Xalqu əfal əl-ibad” əsəri. “Darul-məarif” nəşriyyatı – ər-Riyad, Dr. Abdur-Rahmən Umeyra.

44. Beyhəqinin “Dəlail ən-nubuvva” əsəri. Təhqiq: Abdul-Muti Qalaci.

45. Muhəmməd ibn Cəfər əl-Kəttaninin “ər-Risalətul mustətrafə libəyəni məşhuri kutubis-sunnətil musannəfə” əsəri. “əl-Bəşair əl-isləmiyyə” nəşriyyatı – Beyrut, IV nəşr, h.1406 (m.1986). Təhqiq: Muhəmməd əl-Muntasir Muhəmməd əz-Zəmzəmi.

46. İmam Nəvəvinin “Riyadus-salihin” əsəri. “əl-Məktəbul-islami” nəşriyyatı – Beyrut. Təhqiq: Muhəmməd Nasirəddin əl-Albani.

47. Muhəmməd ibn Yusuf əs-Salihi əş-Şaminin "Subul əl-hudə var-raşəd fi sirati xayril-ibad, va zikru fədailihi va əlam nubuvvatihi va əfalihi va əhvalihi fil-məbdə val-məad" əsəri.

48. Muhəmməd ibn Nasirəddin əl-Albaninin "Silsilətul-əhadis əs-səhihə" əsəri. "əl-Məarif" kitabxanası – ər-Riyad, h.1415.

49. Muhəmməd ibn Nasirəddin əl-Albaninin "Silsilətul-əhadis əd-daifə val-məuduə va əsəruhəs-seyyi fil-ummə" əsəri. "əl-Məarif" kitabxanası, I nəşr, h.1412.

50. Abdullah ibn Əhməd ibn Hənbəl əş-Şeybaninin "əs-Sünnə" əsəri. "İbn Qeyyim" nəşriyyatı – Dəmmam, h.1406, I nəşr. Təhqiq: Dr. Muhəmməd Səid Səlim əl-Qahtani.

51. İmam Abdullah ibn Abdur-Rahmən Əbu Muhəmməd əd-Dariminin "Sünən əd-Dərimi" əsəri. "əl-Kitab əl-ərəbi" nəşriyyatı – Beyrut. Təhqiq: Favvaz Əhməd Zumərli.

52. Əbu Osman Səid ibn Mənsur ibn Şubə əl-Xorasaninin "Sünən Səid ibn Mənsur" əsəri. "Darul-Useymi" nəşriyyatı – ər-Riyad.

53. Muhəmməd ibn Əhməd əz-Zəhəbinin (hicri 748-ci ildə vəfat etmişdir) "Siyar əlam ən-nubəla" əsəri. Təhqiq: Şüeyb əl-Arnaut və başqaları, IV nəşr, h.1406, "Muəssəsətur-risalə" – Beyrut.

54. Abdul-Malik ibn Hişam ibn Əyyub əl-Humeyri əl-Məarifi Əbu Muhəmmədin "əs-Siratun-nəbəviyyə" əsəri. Təhqiq: Taha Abdur-Rauf Səad, "Darul-Ceyl" nəşriyyatı – Beyrut, h.1411.

55. Hibatullah ibn əl-Həsən ibn Mənsur əl-Ləlakai Əbul-Qasimin "Şərh usul itiqad əhlis-Sünnə val-cəmaə minəl-kitabi vas-sünnəti va icma əs-sahəbə" əsəri. "Darut-taybə" – ər-Riyad, h.1402. Təhqiq: Dr. Əhməd Səd Həmdan.

56. İmam əl-Bəğavinin (hicri 516-cı ildə vəfat etmişdir) “Şərhus-sünnə” əsəri. Təhqiq: Zuheyr əş-Şaviş və Şüeyb əl-Arnaut, “əl-Məktəb əl-islami” nəşriyyatı, Beyrut, Diməşq, II nəşr, h.1403 (m.1983).

57. İbn Əbul-İzz əl-Hənəfinin “Şərhut-tahaviyyəti fil-əqidətis Sələfiyyə” əsəri. Təhqiq: Əhməd Muhəmməd Şakir, Araşdırmalar mərkəzinin nəzdində nəşr və tərcümə agentliyi – Səudiyyə.

58. Şeyx Abdullah ibn Cibrinin “Şərhu əqidətut-tahaviyyə” əsəri.

59. Möhtərəm Şeyx Abdul-Əziz ər-Racihinin “Şərhu əqidətut-tahaviyyə” əsəri (Şeyxul-islam İbn Teymiyyə saytından səs yazılarının məcmusu).

60. Əbu Zəkəriyyə Yəhya ibn Şərəf ibn Mərri ən-Nəvəvinin “Şərhun-Nəvəvi alə Səhihi Muslim” əsəri. “İhya ət-turas əl-ərəbi” nəşriyyatı – Beyrut, h.1392, III nəşr.

61. Əbu Cəfər Əhməd ibn Muhəmməd ibn Sələmə ət-Tahavinin “Şərhu muşkilul əsar” əsəri. “ər-Risalə” müəssisəsi – Beyrut, h.1408 (m.1987), I nəşr. Təhqiq: Şüeyb Arnaut.

62. Əbu Bəkr Əhməd ibn əl-Hüseyn əl-Beyhəqinin “Şuəbul-iman” əsəri. “əl-Kutub əl-ilmiyyə” nəşriyyatı – Beyrut. Təhqiq: Muhəmməd əs-Səid Bəsyuni Zəğlul.

63. Muhəmməd ibn Hibban ibn Əhməd Əbu Hatim ət-Təmimi əl-Bustinin “Səhih ibn Hibban bitərtib ibn Bilban” əsəri. “ər-Risalə” müəssisəsi – Beyrut, h.1414 (m.1993), II nəşr. Təhqiq: Şüeyb Arnaut.

64. Muhəmməd ibn İshaq ibn Xüzeymə Əbu Bəkr əs-Silmi ən-Nisaburinin “Səhih ibn Xüzeymə” əsəri. “əl-Məktəb əl-İslami” nəşriyyatı – Beyrut, h.1390 (m.1970). Təhqiq: Dr. Muhəmməd Mustafa əl-Əzami.

65. Muslim ibn əl-Həccac Əbul-Hüseyn əl-Quşeyri ən-Nisaburinin "Səhih Muslim" əsəri. "İhya ət-turas əl-ərəbi" nəşriyyatı – Beyrut. Təhqiq: Muhəmməd Fuad Abdul-Baqi.

66. Əbul-Abbas Əhməd ibn Həcər əl-Heytəminin "əs-Savaiq əl-muhriqa alə əhlir-rafdi vad-daləli vaz-zəndəqa" əsəri. "ər-Risalə" müəssisəsi – Beyrut, I nəşr, m.1997. Təhqiq: Abdur-Rahmən ibn Abdullah ət-Turki və Kamil Muhəmməd əl-Xarrat.

67. "İmam Muhəmməd ibn Səd ibn Muni Əbu Abdullah əl-Bisri əz-Zuhri". Sadir nəşriyyatı – Beyrut.

68. Abdul-Vahhab ibn Abdur-Rahmən əl-Bərihi əs-Səksəki əl-Yəməninin "Tabaqat sulahə əl-Yəmən" ("Tarixul-Bərihi" adı ilə məşhurdur) əsəri. Təhqiq: Abdullah Muhəmməd əl-Həbəşi, "əl-İrşad" kitabxanası – Səna.

69. İbn Əbu Asimin "Zilal əl-cənnə fi təxric əs-Sünnə" əsəri. Təhqiq: Muhəmməd Nasirəddin əl-Albani, "əl-Məktəb əl-İslami" nəşriyyatı – Beyrut.

70. Abdur-Rahmən ibn Əli ibn əl-Cəuzinin "əl-İləl əl-mutənəhiyə fil-əhadis əl-vahiyə" əsəri. "əl-Məktəb əl-islami" nəşriyyatı – Beyrut. Təhqiq: Xalil əl-Meys.

71. Əli ibn Ömər ibn Əhməd ibn Mehdi əd-Daraqutninin (hicri 306-385-ci illər) "əl-İləl əl-varidə fil-əhadis ən-nəbəviyyə" əsəri. Təhqiq: Dr. Məhfuzur-Rahmən Zeynullah əs-Sələfi, I nəşr, h.1405, "Taybə" nəşriyyatı – ər-Riyad.

72. Əhməd ibn Əli ibn Həcər Əbul-Fadl əl-Əsqəlani əş-Şafiinin "Fəthul-Bari şərh Səhih əl-Buxari" əsəri. "əl-Mərifə" nəşriyyatı – Beyrut. Təhqiq: Muhibbud-din əl-Xatib.

73. Əbu Nueym əl-Əsbahaninin "Fədail əl-xuləfa ər-raşidin" əsəri.

74. Əhməd ibn Hənbəl Əbu Abdullah əş-Şeybaninin "Fədail əs-sahəbə" əsəri. "ər-Risalə" müəssisəsi – Beyrut, h.1403 (m.1983), I nəşr. Təhqiq: Dr. Vasiyyullah Muhəmməd Abbas.

75. Əbu Bəkr Muhəmməd ibn Abdul-Malik ibn İbrahim əş-Şafiinin (hicri 260-354-cü illər) "əl-Fəvaid əş-şəhir bil-ğilaniyyat" əsəri. Təhqiq: Hulmi Kamil, Əsad Abdul-Hadi, I nəşr, h.1417. "İbn əl-Cəuzi" nəşriyyatı – Dammam (Səudiyyə Ərəbistanı).

76. Tamam ibn Muhəmməd ər-Razi Əbul-Qasimin "əl-Favaid" əsəri. Təhqiq: Abdul-Məcid əs-Sələfi, "ər-Ruşd" kitab-xanası – ər-Riyad.

77. İmam Hafiz Əbu Əhməd Abdullah ibn Udey əl-Curcəninin (hicri 277-365-ci illər) "əl-Kamil fi duəfa ər-rical" əsəri. Təhqiq: Yəhya Muxtar Əzavi, III nəşr, h.1409, "əl-Fikr" nəşriyyatı – Beyrut.

78. Əli ibn Əbu Bəkr əl-Heysəminin (hicri 735-807-ci illər) "Kəşful-əstar ən zəvaid əl-Bəzzar" əsəri. Təhqiq: Həbibur-Rahmən əl-Əzami, II nəşr, h.1404, "ər-Risalə" müəssisəsi – Beyrut.

79. Əbu Bəkr əd-Dinuri əl-Qadinin "əl-Mucələsə va cəvahir əl-ilm" əsəri. "İbn Həzm" nəşriyyatı – Beyrut, h.1423 (m.2002).

80. İbn Hibban əl-Bustinin "əl-Məcruhin minəl-muhəddisin vad-duəfa val-mətrukin" əsəri. "Dar əl-Vahy" nəşriyyatı – Hələb, h.1396, I nəşr. Təhqiq: Mahmud İbrahim Zayid.

81. Muhəmməd ibn Abdul-Vahid ibn Muhəmməd əl-Əsbahani Əbu Əbdullahın "Məclis imla liəbi Abdullah Muhəmməd Abdul-Vahid ibn Muhəmməd əd-Dəqqaq fi ruyətilləhi təbərakə va təalə" əsəri. "ər-Ruşd" nəşriyyatı – ər-Riyad. Təhqiq: əş-Şərif Hatim ibn Arif əl-Uni.

82. Nuruddin əl-Heysəminin “Məcmə əz-zəvaid va mənbə əl-favaid” əsəri. “ər-Rəyyan” nəşriyyatı – Qahirə, “əl-Kitab əl-ərəbi” nəşriyyatı – Beyrut, h.1407.

83. Şeyxul-islam ibn Teymiyyənin “Məcmu əl-fətəva” əsəri. “İbn Teymiyyə” nəşriyyatı, II nəşr. Təhqiq: Abdur-rahmən ibn Muhəmməd ibn Qasim.

84. Əbu Abdullah əl-Hakim ən-Nisaburinin “əl-Mustədrak aləs-sahiheyn” əsəri. “əl-Mərifə” nəşriyyatı – Beyrut.

85. Əbul-Qasim əl-Bəğavinin rəvayəti ilə “Müsnəd İbn əl-Cud” əsəri. “Nadir” müəssisəsi – Beyrut, h.1410, I nəşr. Təhqiq: Amir Əhməd Heydər.

86. Süleyman ibn Davud Əbu Davud əl-Farisi əl-Bisri ət-Tayəlisinin “Müsnəd Əbu Davud ət-Tayəlisi” əsəri. “əl-Mərifə” nəşriyyatı – Beyrut.

87. İmam Əbu Avvana Yaqub ibn İshaq əl-İsfəraininin “Müsnəd Əbu Avanə” əsəri. “əl-Mərifə” nəşriyyatı – Beyrut.

88. Əbu Yalə əl-Musilinin “Müsnəd Əbu Yalə” əsəri. “əl-Məmun lit-turas” nəşriyyatı – Dəməşq, h.1404, I nəşr. Təhqiq: Hüseyn Səlim Əsəd.

89. İshaq ibn Rahuya əl-Hənzalinin “Müsnəd” əsəri. “əl-İman” kitabxanası – Mədinə, h.1412, I nəşr. Təhqiq: Dr. Abdul-Ğafur əl-Bəlluşi.

90. İmam Əhməd ibn Hənbəlin “Müsnəd” əsəri. “ər-Risalə” nəşriyyatı. Şeyx Şüeyb Arnautun rəhbərliyi altında bir qrup alimin təhqiqi ilə.

91. Əbul-Qasim ət-Təbəraninin “Müsnəd əş-Şamiyyin” əsəri. “ər-Risalə” müəssisəsi – Beyrut, h.1405, I nəşr. Təhqiq: Həmdi əs-Sələfi.

92. Abdulah ibn Zubeyr əl-Humeydinin “əl-Müsnəd” əsəri. Təhqiq: Həbibur-Rahmən əl-Əzami, “Aləm əl-kutub” nəşriyyatı – Beyrut.

93. Əbu Bəkr ibn Əbu Şeybə əl-Kufinin “əl-Musənnəf fil-əhadis val-əsar” əsəri. “ər-Ruşd” kitabxanası – ər-Riyad, h.1409, I nəşr.

94. Abdur-Razzəq ibn Həmmam əs-Sanəninin “əl-Musənnəf” əsəri. “əl-Məktəb əl-İslami” nəşriyyatı – Beyrut, h.1403, II nəşr. Təhqiq: Həbibur-Rahmən əl-Əzami.

95. İbn Həcər əl-Əsqəlaninin “əl-Mətalib əl-aliyə bizəvaid əl-məsanid əs-səməniyə” əsəri. “əl-Asimə” nəşriyyatı, “əl-Ğeys” nəşriyyatı – Səudiyyə Ərəbistanı, h.1419, I nəşr. Təhqiq: Dr. Səd ibn Nasir ibn Əbdül-Əziz əş-Şisri.

96. Əbu Bəkr əl-İsmailinin şeyxlərinin adlarının lüğəti.

97. Əbul-Qasim Süleyman ibn Əhməd ət-Təbəraninin “əl-Mucəm əl-Əvsat” əsəri. Təhqiq: Tariq ibn İvadallah və Abdul-Muhsin əl-Hüseyni. “əl-Hərameyn” nəşr və yayım evi – Qahirə, h.1415.

98. Süleyman ibn Əhməd ət-Təbəraninin (hicri 260-360-cı illər) “əl-Mucəm əl-kəbir” əsəri. Təhqiq: Həmdi əs-Sələfi, “İbn Teymiyyə” nəşriyyatı – Qahirə.

99. Ömər Rida Kəhhalənin “Mucəm əl-muəllifin” əsəri. “İhya ət-turas əl-ərəbi” nəşriyyatı – Beyrut.

100. Əbu Nueym əl-İsbahaninin “Mərifətus-sahəbə” əsəri.

101. Əbu Abdullah əl-Hakimin “Mərifətu ulum əl-hədis” əsəri. “əl-Kutub əl-ilmiyyə” kitabxanası – Beyrut, II nəşr, h.1397. Təhqiq: əs-Seyyid Muzam.

102. Yaqub ibn Sufyan əl-Fəsəvinin “əl-Mərifə vat-tarix” əsəri. Təhqiq: Dr. Əkram əl-Umari, II nəşr, h.1401, “ər-Risalə” nəşriyyatı – Beyrut.

103. Bədrud-Din əl-Ayninin "Məğanil-əxyar fi şərhi Usəmə rical məanil-əsar" əsəri. Əbu Abdullah Muhəmməd Həsən İsmailin təhqiqi.

104. Abd ibn Həmid ibn Nasr Əbu Muhəmməd əl-Kissinin "əl-Muntəxab min müsnəd Abd ibn Həmid" əsəri. "əs-Sünnə" kitabxanası – Qahirə, h.1408 (m.1988), I nəşr. Təhqiq: Subhi əl-Bədri əs-Səmərrai, Mahmud Muhəmməd Xalil əs-Saidi.

105. Abdur-Rahmən ibn Əli ibn Muhəmməd ibn əl-Cəuzi Əbul-Fəracın "əl-Muntəzəm fi tarix əl-muluk val-uməm" əsəri. "Sadir" nəşriyyatı – Beyrut.

106. Xatib əl-Bağdadinin "Muvaddih əvham əl-cəm vat-təfriq" əsəri. "əl-Məarif əl-Osmaniyyə məclisi" nəşriyyatı – Heydərabad (Hindistan).

107. İmam Malikin "əl-Muvatta" əsəri. "İhya ət-Turas əl-ərəbi" nəşriyyatı – Qahirə. Təhqiq: Muhəmməd Fuad Abdul-Baqi.

108. Əbul-Abbas Əhməd ibn əl-Xatibin "Vasilətul islam binnəbiyyi aleyhissalətu vas-səlam" əsəri. Təhqiq: Süleyman əl-İd əl-Muhəmi, "əl-Ğarb əl-İslami" nəşriyyatı – Beyrut.

*Allahın izni ilə bitdi*

## Müəllifin müqəddiməsindən

Şəkk yoxdur ki, əhli-beytin ağaları da möhtərəm səhabələrdəndir. Onlar hər iki fəziləti özlərində birləşdirmişlər: qohumluq fəziləti və səhabəlik fəziləti.

Bu məqamda biz Allahın onları tərifləməsini izləyir, Peyğəmbərin ﷺ vəsiyyətinə riayət etmiş oluruq ki, bu da mühüm məsələdir. Əhli-beyt və başqalarından xüsusi olanlar on nəfərdən başqa Cənnətlə müjdələnənlərdəndirlər. Cənnətlə müjdələnmiş on səhabə barəsində kitablar yazılmışdır. Onlar da bu məqama layiqdirlər. Lakin onlardan başqa Cənnətlə müjdələnənlər barədə də kitaba ehtiyac vardır. Biz bu məsələyə müxaliflik sərgiləmək istəmirik. Lakin on nəfərin Cənnətlə müjdələnməsi başqalarının da müjdələnməsi anlamına gəlmir. Onlarla, hətta yüzlərlə səhabə, o cümlədən Ridvan beyətində iştirak etmiş 1400 nəfər, Bədr döyüşündə iştirak etmiş 300-dən artıq səhabə və əhli-beyt nümayəndəsinin hamısı Cənnətlə müjdələnmişlər. Bu kitabda isə biz səhih və həsən mənbələrdə xüsusi olaraq müjdələnmiş kəslər barədə söhbət açacağıq.